Xalqın qəzeti!

# Xalq qəzeti

№ 85 (30779) 29 aprel 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimaisiyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan–İran: Əməkdaşlığın dərinləşməsi üçün geniş meydan açılır

## İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri



Səhifə ⇨ 2

## Azərbaycan–İran münasibətləri yeni hədəflər çevrəsinə daxil olur

*Son 20 ildə ümumi ticarət 2,7 dəfə artıb*



**Xəbər verildiyi kimi, İran Prezidenti Məsud Pezeşkian ölkəmizə səfəröncəsi Azərbaycan Dövlət Televiziyasına müsahibə verib. İranın dövlət başçısı hazırda iki ölkə arasında əməkdaşlıq sahələri baxımından heç bir məhdudiyyətin olmadığını vurğulayaraq bir çox sahələrlə yanaşı, ticarət, sənaye və müştərək əməkdaşlıq nöqteyi-nəzərindən qarşılıqlı müsbət addımların atıla biləcəyini bildirib.**

İran İslam Respublikası ölkəmizin vacib ticarət tərəfdaşlarından biridir. 2005-ci ildə iki ölkə arasında ümumi ticarət dövriyyəsinin həcmi 242 milyon 786,4 min ABŞ dolları təşkil etdiyi halda, ötən il bu göstərici 647,1 milyon dollara çatıb. Bu isə 2023-cü ilə nisbətən 159,7 milyon dolları və ya 32,8 faiz çoxdur. Ümumilikdə, 2024-cü ildə İran İslam Respublikası ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,3 faizi həcmində olub.

Hesabat ilində Azərbaycan İrana 14 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Ötən il ölkəmiz İrandan məhsul idxalını illik müqayisədə 160 milyon ABŞ dolları və ya 33,8 faiz artıraraq 633 milyon dollara çatdırıb. Cənub qonşmuzdan alınan məhsullar ölkəmizin ümumi idxalının 3,01 faizini təşkil edib.

*(ardı 6-cı səhifədə)*

## Qlobal Cənub QHT Platforması təsis olundu



**Aprelin 28-də Bakıda "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı Forum işə başlayıb.**

Əvvəlcə Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirib.

Sonra forumla bağlı videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində Qlobal Cənub QHT Platforması təsis olunub.

Forumda Kuala Lumpur şəhərinin sabiq meri, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) üzrə keçmiş icraçı direktoru **Maimunah Mohd Sharifin** video formatda çıxışı dinlənilib. Tədbirin əhəmiyyətindən danışan Maimunah Mohd Sharifin sözlərinə görə, bu qədər nümayəndənin tədbirdə iştirakı vətəndaş cəmiyyətinin səsinin gələcəyin birgə qurulmasında mühüm rol oynayacağını göstərir. O, Azərbaycana qlobal səhnədə liderlik fəaliyyətinə və Qoşulmama Hərəkatına sədrliyi dövründə verdiyi dəyərli töhfələrə görə təşəkkür edib.

*(ardı 8-ci səhifədə)*

## "Christian Post"un anti-Azərbaycan ritorikası



Səhifə ⇨ 10

## Rəqəmsallaşma və süni intellekt iş yerlərinə necə təsir edir?



**Dünən Bakıda, Gülüstan sarayında Ümumdünya Əməyin Mühafizəsi Günü və ilk kollektiv müqavilənin 120 illiyinə həsr olunmuş "Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri" mövzusunda konfrans keçirilib.**

Toplantıda çıxış edən Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial sahədə apardığı məqsədyönlü siyasətin nəticəsi olaraq, 2018–2025-ci illər ərzində ölkəmizdə 5 böyük sosial islahat paketi həyata keçirilib. Bu islahatların illik əlavə maliyyə tutumu 7,6 milyard manat olmaqla, 4 milyon nəfəri əhatə edib. Onun sözlərinə görə, nəticədə, bu dövrdə minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya 2,9 dəfə, orta aylıq pensiya isə 2,6 dəfə artıb. Sosial müavinət və təqaüd ödənişlərinin həcmi isə 5 dəfə artaraq 400 milyon manatdan 1,9 milyard manata çatıb.

*(ardı 13-cü səhifədə)*

## Makron və korrupsiyaya uğramış komandası



**Rüşvət, korrupsiya və maxinasiyalar Emmanuel Makron hakimiyyətini xarakterizə edən əsas cəhətlərdir. İrimiqyaslı maliyyə maxinasiyaları, korrupsiya piramidasının başında isə birbaşa prezident və ona yaxın adamlar dururlar. Onun hakimiyyətə gəldiyi 2017-ci ildən bəri "ən azı 26 nazir siyasi və hüquqi məsələlərə qarışıb".**

Halbuki, Makron prezidentlik müddətinin əvvəlində dövlət qulluqçuları arasında dürüstlük prinsiplərinin qorunmasının vacibliyindən danışır və istintaq altında olan nazirləri istefaya çağırırdı. Lakin bu prinsiplərə əməl edilmədi və onlar cəzasız qaldılar.

*(ardı 9-cu səhifədə)*

## ZORƏN MÜTTƏFİQ



Səhifə ⇨ 11

## Ermənistan silahlı qüvvələrinin Şuşanı işğal etməsinə videomateriallar şahidlik edir



Səhifə ⇨ 12

# Azərbaycan–İran: Əməkdaşlığın dərinləşməsi üçün geniş meydan açılır

## Rəsmi qarşılanma mərasimi



**Aprelin 28-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İran Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti Məsud Pezeşkianı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi İran Prezidentinə raport verdi.

İran İslam Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Məsud Pezeşkianın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



## Liderlərin geniş tərkibdə görüşü



**Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə geniş tərkibdə görüşü keçirilib.**

**Prezident İlham Əliyev dedi:**

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Sizi səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfərin tarixi əhəmiyyəti olacaq. Biz bu gün Sizinlə məhdud tərkibdəki görüşdə bir çox məsələləri müzakirə etdik və görürük ki, əməkdaşlığın dərinləşməsi üçün çox gözəl imkanlar var. Həm siyasi, həm iqtisadi, həm də bütün başqa sahələrdə əməkdaşlığın dərinləşməsi iki qardaş xalqın marağındadır. Ümid edirəm ki, bu gün müzakirə olunan və olunacaq məsələlər, verəcəyimiz tapşırıqlar bizim əlaqələrimizi daha da gücləndirəcək.

Son aylar ərzində bizim hökumətlərin üzvləri bir-biri ilə sıx təmasda olmuşlar, qarşılıqlı səfərlər etmişlər. Bir çox məsələlər həll olundu. Sizin səfərinizə hazırlıq məqsədilə bir çox məsələlər də müzakirə olundu.

Bu gün bir çox önəmli sənədlər imzalanacaq və veriləcək qərarlar iki qardaş xalqı bir-birinə daha yaxın edəcək. Bir daha sizi ürəkdən salamlayıram, xoş gəlmisiniz. Əminəm ki, səfəriniz uğurlu olacaq.

***

**Prezident Məsud Pezeşkian dedi:**

– Bismillahir-rəhmanir-rəhim. Mərhəmətli və rəhmli Allahın adı ilə.

Mən əziz qardaşım Azərbaycanın hörmətli Prezidentini, burada olan əziz qonaqları və qardaşlarımızı yenidən salamlayıram. Çox şadam ki, Azərbaycandayam və sizin qarşınızdayam. Ümid edirəm ki, bizim burada iştirakımız, həmçinin daha əvvəl keçirilən iclaslarda mütəxəssislərimiz tərəfindən hazırlanan razılaşmalar və bundan sonra imzalanacaq sazişlər Azərbaycanla, əziz, dost, qardaş və demək olar ki, həm də qohum Azərbaycan xalqı ilə əlaqələrimizdə daha geniş addımlarla irəliləyişin başlanğıcına çevriləcək, bölgədə münasib əməkdaşlıq nümunəsinin formalaşmasına səbəb olacaq. Ali Rəhbərin salamını Sizə çatdırmağı özümə borc bilirəm.

Sizin, Azərbaycanın və əziz Azərbaycan xalqının Qarabağda və Azərbaycanın sahib çıxmalı olduğu digər ərazilər üzərindəki hüququnu tanıyırıq. Biz inanırıq ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və buna hörmətlə yanaşırıq. Təbii ki, bizim burada olmağımız əlaqələrimizin və birliyimizin möhkəmlənməsinə imkan yaradacaq.

***

Prezident İlham Əliyev İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İranın Ali Rəhbərinə çatdırmağı xahiş etdi.

## Məhdud tərkibdə görüş



**Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə məhdud tərkibdə görüşü olub.**

Görüşdə hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu, energetika, xüsusilə elektrik enerjisi sahəsində əməkdaşlıq müzakirə olundu. Araz çayı üzərində su elektrik stansiyalarının tikintisi və Ağbənd-Kələlə avtomobil körpüsü layihəsinin yekunlaşdırılmasının önəmi qeyd edildi.

Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı ilə bağlı fikir mübadiləsi aparıldı. Bir daha diqqətə çatdırıldı ki, Azərbaycan və İran regional məsələlərin bölgə ölkələrinin özləri tərəfindən həll edilməsinin tərəfdarıdır. Bu xüsusda 3+3 regional əməkdaşlıq formatının əhəmiyyəti vurğulandı.

Görüşdə, həmçinin turizm və mədəniyyət sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər



**Aprelin 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Azərbaycan-İran dostluq, qardaşlıq münasibətlərinin inkişafına öz dəyərli töhfəsini verəcək.

Xalqlarımız əsrlər boyu mehribanlıq, qardaşlıq şəraitində yaşayıb. Bu gün dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində inkişaf edir. İran Prezidentinin Azərbaycana rəsmi səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür.

Bu gün apardığımız danışıqlar və fikir mübadiləsi əsnasında bir çox önəmli məsələlər haqqında söhbət etdik, fikirlərimizi bildirdik, Azərbaycan-İran strateji münasibətlərini bir daha təsdiqlədik. Biz bütün məsələlərə səmimi şərait əsnasında öz fikirlərimizi bildirmişik. Əsas məsələ ondan ibarətdir ki, hər iki tərəf Azərbaycan-İran əlaqələrinin inkişafına çalışmalıdır və çalışır. Hörmətli Prezidentin böyük heyətlə Azərbaycana gəlməsi və bu gün bir çox önəmli sənədlərin imzalanması, o cümlədən prezidentlər səviyyəsində imzalanmış sənəd bir daha bizim xoş niyyətimizi göstərir, onu göstərir ki, biz bütün istiqamətlər üzrə bir-birimizə daha yaxın olmağa çalışırıq.

Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi ənənəvi olaraq dəstəkləyirik. Bu barədə bu gün də fikir mübadiləsi aparıldı və gələcək birgə əməkdaşlıq çərçivələri müzakirə edildi. İstər BMT olsun, istər İslam Əməkdaşlıq Təşkilatı, ECO, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində daim bizim nümayəndələrimiz bir-birinin yanındadır.

Biz bu gün geniş gündəlik əsasında fəaliyyət göstəririk. Burada həm regional təhlükəsizlik məsələləri önəmli rol oynayır, – bu barədə fikir mübadiləsi aparılmışdır, – eyni zamanda, çoxtərəfli əməkdaşlıq üçün gözəl şərait var. Təbii olaraq bizim ticarət əlaqələrimizin inkişafı ilə bağlı konkret göstərişlər verildi. Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüş də çox məhsuldar olmuşdur. Birinci mərhələdə hörmətli Prezidentlə təkbətək və məhdud tərkibdəki görüş əsnasında fikir mübadiləsi aparılmışdır. Yəni, məramımız, məqsədimiz birdir – Azərbaycan–İran dövlətlərarası əlaqələrini yüksək səviyyəyə qaldırmaqdır. Bunun üçün yenə də deyirəm, müvafiq göstərişlər verildi və əminəm ki, bu göstərişlər yerinə yetiriləcək.

Prezidentin səfərinə qədər çox fəal təmaslar həyata keçirilirdi, yüksəkvəzifəli şəxslər qarşılıqlı səfərlər edirdilər, həm Prezidentin səfərinə hazırlıq məqsədilə, eyni zamanda, konkret layihələrin icrası üçün. Bütün bu işlərdə əməyi olan vəzifəli şəxslərə öz təşəkkürümü bildirmək istəyirəm. Səfər doğrudan da çox yaxşı hazırlanıb, çox yaxşı sənədlər ərsəyə gəlib. Əminəm ki, qəbul edilmiş qərarlar bizim əlaqələrimizi uzun illər bundan sonra yüksələn xətlə aparacaq.

Biz bu gün təbii olaraq üçtərəfli əməkdaşlıq layihələrini geniş müzakirə etdik. Onların arasında təbii olaraq Şimal-Cənub nəqliyyat dəhlizi xüsusi yer tutur. Bu layihə bu layihədə iştirak edən bütün ölkələrə çox böyük səmərə gətirəcək, böyük fayda verəcək. Azərbaycan öz ərazisində bu nəqliyyat dəhlizinin fəaliyyəti üçün bütün lazımi infrastruktur layihələrini həyata keçirib. Hazırda biz, sadəcə olaraq, artacaq yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarımızı və infrastrukturumuzu genişləndiririk. İstər dəniz limanı olsun, dəmir yolu olsun, avtomobil nəqliyyatı olsun - bütün bu istiqamətlər üzrə gözlənilən böyük yük həcmlərini qəbul etmək və ötürmək üçün biz böyük sərmayə qoyuluşu layihələrinə başlamışıq.

Biz bu gün, eyni zamanda, humanitar sahədə, mədəniyyət sahəsində ənənəvi dostluq əlaqələrinin davam etdirilməsi üçün konkret göstərişlər verdik. Müəyyən etdik ki, sonuncu qarşılıqlı mədəniyyət günləri səkkiz il bundan əvvəl keçirilmişdir və birgə qərar əsasında yaxın gələcəkdə qarşılıqlı mədəniyyət günləri keçiriləcək. Xalqlarımızın tarixi ortaqdır, mədəniyyətimiz də ortaqdır. Biz əsrlər boyu bir məkanda yaşamışıq, bir dövlət çərçivəsində yaşamışıq. Yəni, qohumluq əlaqələri də çox genişdir. Bu gün iki müstəqil dövlət kimi biz bölgəmizdə önəmli rol oynayırıq. Bölgə məsələlərinin bölgə ölkələri tərəfindən həll olunması da hər iki tərəfin fikridir və siyasətidir.

Mən heç şübhə etmirəm ki, bu səfər bizim münasibətlərimizin inkişafında çox önəmli rol oynayacaq. Biz Prezident Pezeşkianı səbirsizliklə gözləyirdik. Çox təəssüf edirik ki, bir neçə gün bundan əvvəl İranda baş vermiş faciə insan itkiləri ilə nəticələndi. Bir daha qardaş İran xalqına başsağlığı veririk.

(ardı 3-cü səhifədə)

# Azərbaycan–İran: Əməkdaşlığın dərinləşməsi üçün geniş meydan açılır

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

Allah həlak olanlara rəhmət eləsin, yaralananlara Allah şəfa versin. Bu faciəyə baxmayaraq, Prezident Pezeşkian Azərbaycana öz səfərini gerçəkləşdirir. Biz bunu çox yüksək qiymətləndiririk və Allah xalqlarımızı bu bəlalardan qorusun, həmişə bizim bölgəmizdə sülh olsun, əmin-amanlıq olsun və hər iki ölkə bu istiqamətdə öz səylərini göstərəcək. Hər halda ikitərəfli formatda bölgədəki vəziyyət, sülhün dayanıqlı olması, əmin-amanlığın təmin edilməsi, ölkələrin suverenliyi, ərazi bütövlüyü, ölkələrin daxili işlərinə qarışmama kimi prinsiplər də üstün tutuldu.

Mən yenə də Prezident Pezeşkiana "Xoş gəlmisiniz!" deyirəm, mənim dəvətimi qəbul edib Azərbaycana səfər etdiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Onunla birlikdə gələn bütün qonaqlarımıza da "Xoş gəlmisiniz!" deyirəm. Əminəm ki, səfəriniz uğurlu, nəticələr də çox gözəl olacaq. Sağ olun.

***

Sonra İran Prezidenti bəyanatla çıxış etdi.



### Prezident Məsud Pezeşkianın bəyanatı

– Hər şeydən əvvəl əziz qardaşım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə səmimi qarşılanma, qonaqpərvərlik və göstərdiyi münasibətə, həmçinin onun regionla, Azərbaycanla bağlı və ümumən, ikitərəfli münasibətlərimizdə atılacaq addımlar və mümkün olan bütün sahələrdə əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün göstərdiyi əzmkarlığına görə təşəkkürümü bildirmək istərdim.

Bizim münasibətlərimiz yeni başlamış münasibətlər deyil. Biz qədim dövrlərdən üzü bəri həmişə bir yerdə olmuşuq. Tarixin lap qədim dövrlərindən birlikdə, yan-yana olmuşuq. Sərhəd qonşuluq deməkdir, evlərin qonşuluğu kimi. Qonşuların həyati var, evi var. Lakin onların bir-birinin arasında gediş-gəliş olur. Bir-birinə dayaq durarlar, kömək edərlər, səsinə səs verərlər.

Bizim bu bölgədə mədəniyyət, din, etiqad, siyasət kimi bütün bu sahələrdə həddindən artıq oxşar cəhətlərimiz var. Bununla fəxr edirik. Bunlara ürəkdən bağlıyıq. Çalışacağıq ki, bundan sonra da bu müştərək dəyərlər əsasında münasibətlərimizi davam etdirək. Biz bir çox sahələrdə əldə edilmiş təcrübə ilə bölüşə bilərik. Bu bölgədə bazarlarımızdan birgə istifadə edə bilərik. Bu gün əldə edilmiş razılaşmalara, imzalanmış sənədlərə əsasən, hörmətli Prezident İlham Əliyev müəyyən müddət çərçivəsində gələcək üçün strateji planın hazırlanması haqqında müvafiq nazirlərə, məsul şəxslərə göstəriş vermişdir. Biz də öz tərəfimizdən xarici işlər nazirinə tapşırıq verdik ki, hökumətlə razılaşdırıb, bu addımları davam etdirsin. Çalışacağıq ki, gələcək üçün geniş, əhatəli və daha yaxşı strateji planımız olsun. Bütün sahələrdə – sənaye, elm, mədəniyyət, iqtisadiyyat, siyasət, təhlükəsizlik üzrə planlarımız olsun. Biz birlikdə bölgədə sülh, təhlükəsizlik və əmin-amanlığı təmin edəcəyik və öz çətinliklərimizi həll edəcəyik. Əminəm ki, əgər biz müsəlman ölkələri, regional dövlətlər və qonşular, qədim dövrlərdən bir yerdə olmuş qardaş və bacılar əl-ələ verib bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşsaq, dünyaya baxışlarımız qarşılıqlı qaydada razılaşdırılmış olacaq.

Beləliklə, bütün sahələrdə əməkdaşlıq edə bilərik. Elə bir bölgə yarada, ölkələr arasında elə bir əlaqə qura bilərik ki, Avropa ölkələri arasında olan əlaqələrdən daha üstün olsun. Bunun üçün yolları birləşdirək, maliyyə, ticarət əlaqələrimizi düzəldək, Şimal–Cənub, Şərq–Qərb dəhlizlərini yaradaq. Bütün bunları qarşılıqlı dəstək sayəsində həyata keçirək. İş adamlarımız birgə istehsal proseslərini həyata keçirsinlər, birgə sərmayələr yatırsınlar, işlər qursunlar. Biz istehsal, elm, mədəniyyət, iqtisadiyyat, siyasət sahələrində birgə hərəkət etməli, digərlərinə bunları pozmağa imkan verməməliyik. Onlar aramızda ixtilaf yaratmaq istəsələr, buna yol verməyəcəyik. Bizim aramızda bizi birləşdirən çoxlu ortaq amillər, hətta ailə, qohumluq əlaqələrimiz var. Bu, elə bir məsələdir ki, heç kəs bunları poza bilməz.

Əziz qardaşım, Prezident İlham Əliyev böyük əzm və iradə nümayiş etdirir. Biz də öz tərəfimizdən, inamımıza, iradəmizə və əzmkarlığa əsaslanaraq, Allahın köməyi ilə bütün əldə olunmuş nailiyyətləri artıracağıq, öhdəlik götürdüyümüz sənədləri icra edəcəyik. Bəzi məqamlar var ki, hələ yazılmayıb. Amma gərəkdir ki, onları da yazaq və imzalayaq, onları mütləq həyata keçirək. Biz bunların həyata keçirilməsinə, icrasına qəti şəkildə qərarlıyıq. Mən həmin qətiyyəti, həmçinin qardaşımızda görürəm. Allahın köməyi ilə digər layihələri bölgə üçün, İranın və Azərbaycanın gələcəyi üçün, hətta Yaxın Şərq bölgəsi üçün birlikdə yaradacağıq.

Əziz qardaşıma qonaqpərvərliyə görə bir daha böyük minnətdarlığımı bildirirəm. Ölkəmizdə bəzi hadisələr baş verdiyinə görə burada əlavə müddətə qala bilmirəm. Lakin çox vaxt keçməyəcək ki, dostumla yenidən görüşəcəyik. Çalışacağam ki, Azərbaycanda növbəti dəfə daha çox qalım və burada olanda heç zaman özümü yad ölkədəki kimi hiss etmirəm. Elə bil ki, sanki Təbrizdəyəm, Ərdəbildəyəm. Sanki doğulduğumuz, böyüdüyümüz, yaşadığımız İran Azərbaycanındayıq. Çox şadam ki, Sizinlə bir yerdəyəm. İqtisadi, mədəni, elmi, təhlükəsizlik, hərbi və digər sahələrdə əl-ələ verib özümüz, övladlarımız və sonrakı nəsillər üçün möhkəm gələcək quraq. Gələcək nəsillər fəxr etsinlər ki, bu cür sağlam əlaqələr qurmuşuq.

Bir daha Sizə təşəkkür edirəm.

## Azərbaycan ilə İran arasında sənədlərin mübadiləsi



**Aprelin 28-də Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Məsud Pezeşkianın iştirakı ilə mübadiləsi mərasimi olub.**

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian prezidentlərin Birgə Bəyanatını imzaladılar.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə İran İslam Respublikasının Xarici İşlər Nazirliyi arasında 2025–2027-ci illər üçün Siyasi Məsləhətləşmələr Proqramı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İranın xarici işlər naziri Seyid Abbas Əraqçi mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında 2025-2026-cı illər üçün nəqliyyat sahəsində hərtərəfli əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və İranın yol və şəhərsalma naziri (hökumətlərarası komissiyanın həmsədri) xanım Fərzanə Sadiq mübadilə etdilər.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə İran İslam Respublikasının Yol və Şəhərsalma Nazirliyi arasında "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"nın (əlavələrlə) I/10-cu qaydasına əsasən sertifikatların qarşılıqlı tanınmasına dair Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və İranın yol və şəhərsalma naziri (hökumətlərarası komissiyanın həmsədri) xanım Fərzanə Sadiq mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında 2025-2028-ci illər üzrə Mədəni Mübadilə Proqramı"nı Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və İranın mədəni irs, turizm və əl işləri sənayesi naziri Seyid Rza Salehi Əmiri mübadilə etdilər.

"Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə İran İslam Respublikasının Mədəniyyət və İslami İrşad Nazirliyi arasında media əməkdaşlığı haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın Baş nazirinin müavini (hökumətlərarası komissiyanın həmsədri) Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri (hökumətlərarası komissiyanın həmsədri) xanım Fərzanə Sadiq mübadilə etdilər.

## Azərbaycan–İran biznes forumu

*Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Məsud Pezeşkian tədbirdə iştirak ediblər*



**Aprelin 28-də Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycan-İran biznes-forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian tədbirdə iştirak ediblər. Dövlətimizin başçısı biznes-forumda çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

**– Hörmətli cənab Prezident, əziz qardaşım.**

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün İran İslam Respublikasının Prezidenti cənab Pezeşkianın Azərbaycana rəsmi səfəridir. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər bir daha Azərbaycan–İran dostluğunu, qardaşlığını təsdiqləyir. Bir sözlə, bu rəsmi səfərin çox gözəl siyasi nəticələri vardır. İmzalanmış sənədlər arasında xüsusilə prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannaməni qeyd etmək istərdim. Çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir. Əlbəttə, biz istərdik ki, ticarət, iqtisadi əməkdaşlığımız da eyni nəticələri hasil etsin. Əfsuslar olsun ki, bu günə qədər bu, belə olmayıb. Ancaq əminəm ki, bu səfərdən sonra və biznes-forumun nəticələrindən irəli gələrək biz növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər bu kimi sahələrdə ciddi irəliləyiş görəcəyik. Mən şadam ki, hörmətli cənab Prezidentlə bərabər Azərbaycana böyük biznes heyəti gəlib.

(ardı 4-cü səhifədə)

# Azərbaycan–İran biznes forumu





**(əvvəli 3-cü səhifədə)**

İrandan gələn 120-dən çox iş adamı əminəm ki, Azərbaycanda öz həmkarları ilə artıq təmaslar qurublar və biznes-forum nəticəsində real layihələr meydana gələcək.

Əminəm ki, növbəti dəfə biz biznes-forum keçirəndə bu toplantı salonu tam dolu olacaq. Halbuki indi də nümayəndələrin sayı az deyil, biznes-forumda 400-dən çox iştirakçı vardır. Bu onu göstərir ki, qarşılıqlı maraq kifayət qədər böyükdür. Təbii ki, siyasi əlaqələr güclü olanda biznes dairələri də öz fəaliyyətlərini buna uyğun şəkildə qururlar və hesab edirəm ki, növbəti illərdə ticarət dövriyyəsinin artırılması üçün konkret addımlar atılmalıdır. Bu gün biz statistik rəqəmlərə baxdıqda görürük ki, iki ölkə arasındakı ticarət dövriyyəsi heç bir milyard dollara çatmır və əlbəttə ki, bu, bizi qane edə bilməz. Ona görə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslər əlbəttə ki, təqdirəlayiq olacaq. Hesab edirəm ki, burada aparıcı rol Azərbaycan–İran hökumətlərarası komissiyaya məxsusdur. Mən komissiyanın fəaliyyətini yüksək qiymətləndirirəm. Komissiyanın həmsədrləri, üzvləri müntəzəm olaraq görüşürlər və hər bir görüşün böyük əhəmiyyəti var.

Azərbaycan və İran, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak edir, o cümlədən Şimal–Cənub nəqliyyat dəhlizi üzrə biz sıx əməkdaşlıq edirik. Biz istəyirik ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın. Bunun üçün kifayət qədər imkanlar var. Çünki hər iki ölkənin çox böyük iqtisadi potensialı var, hər iki ölkədə sahibkarlar sinfi kifayət qədər fəaldır. Sadəcə olaraq, biz gərək iş adamlarımızı bir araya gətirək, necə ki, bu gün biz bunu edirik. Onlara konkret layihələr təqdim olunmalıdır. Ölkələrimizin vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik – bütün bunlar iki ölkənin iş adamlarına aydın olmalıdır. Yəni, qaydalar nədir, qanunlar nədir? Ondan sonra əlbəttə ki, böyük sərmayə qoyuluşundan söhbət gedə bilər. Mən hesab edirəm ki, uzun fasilədən sonra Azərbaycan və İran iş adamlarının belə mötəbər toplantısı, xüsusilə prezidentlərin iştirakı ilə biznes-forumun keçirilməsi çox ciddi bir addımdır və əlbəttə ki, biz iş adamlarımızdan konkret nəticələr gözləyirik.

Azərbaycanda dövlət xətti ilə bir çox infrastruktur layihələri həyata keçirilir. Biz İran şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirik. Burada həm dəmir yolları, avtomobil yolları, kommunikasiya xətləri, elektrik xətləri – bütün bu layihələr bizdə bu gün əsas gündəlikdədir. Eyni zamanda, erməni işğalından azad edilmiş ərazilərdə hazırda geniş quruculuq işləri gedir. Biz kəndləri, şəhərləri demək olar ki, sıfırdan qururuq. Çünki işğal dövründə Ermənistan bizim bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Ona görə orada böyük iş imkanları yaradılır və istərdim ki, İrandan, bizim dost, qardaş ölkədən olan biznesmenlər bu istiqamətdə də işləsinlər.

Biz bu gün müzakirə etdiyimiz məsələlər arasında elektroenergetika məsələlərinə də böyük diqqət ayırdıq. Burada təkcə elektrik stansiyalarının tikintisi yox, eyni zamanda, ötürücü xətlərin tikintisi məsələsi nəzərdə tutulur. Burada da bu sahədə təcrübəsi olan şirkətlər üçün yaxşı fürsətlər, yaxşı imkanlar yaradılır. Biz gələcəkdə iki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli – qonşu ölkələrlə birlikdə formatda enerji mübadiləsi layihələrinə də baxa bilərik. Daha doğrusu, bu gün artıq bu, gündəlikdə duran məsələlərdən biridir. Azərbaycanda "yaşıl" enerjinin istehsalı prosesi artıq başlamışdır və bunun böyük gələcəyi var. Biz beş ildən sonra 6500 meqavat gücündə Günəş, külək və su enerji potensialımızı ortaya qoyacağıq və bunun böyük hissəsi ixracyönümlü enerji növləridir. Bu istiqamətdə əlbəttə ki, indidən hazırlıq işləri aparılmalıdır. Eyni zamanda, Araz dəhlizi layihəsi böyük diqqət cəlb edir, həm bölgəmizdə, həm dünyada, bu layihə ilə bağlı müxtəlif fərziyyələr, müxtəlif şayiələr gəzir. Əslində, buna heç bir əsas yoxdur. Çünki bu, sadəcə olaraq, yeni bir nəqliyyat, bağlantı layihəsidir və Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihədir. Burada, eyni zamanda, böyük tranzit imkanları yaranacaq. Bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil. Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır. Bir tərəfi Aralıq dənizinə, bir tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi olmalıdır və bir çox ölkələr bundan fayda götürəcək. Təbii olaraq, bu layihənin ərsəyə gəlməsində əsas rol yenə də bizim ölkələrimizin üzərinə düşür və bu istiqamətdə Azərbaycan tərəfindən aparılan işlər demək olar ki, tamamlanıb. Araz çayı üzərində Azərbaycan tərəfinə düşən körpünün inşası demək olar ki, hazırdır, o cümlədən sərhəd-keçid məntəqəsinin inşası prosesi gedir. Əgər hər şey istədiyimiz kimi olsa, bu ilin sonuna qədər avtomobil körpüsü istismara verilə bilər.

O ki qaldı, dəmir yolu körpüsünə, bu məsələ də müzakirə mövzusudur. Biz dəmir yolumuzu artıq gələn il İran sərhədinə, Zəngilan-Ağbənd istiqamətinə çatdıra bilərik və təbii olaraq İran ərazisində dəmir yolu inşası da nəzərdə tutularsa, o zaman bu da beynəlxalq nəqliyyat dəhlizi olacaq. Yəni, çox geniş perspektivlər açılır və bütün bunları həyata keçirmək üçün əsas amillər var. Birincisi, Azərbaycan–İran arasındakı dostluq, ikincisi, qarşılıqlı siyasi iradə, üçüncüsü bu layihələrin bir çox ölkələrə xidmət göstərməsi və qarşılıqlı fayda verməsi məsələsi. Bu, yəni, əsas məsələlərdən biri olan layihədir.

Təbii ki, kiçik və orta sahibkarlığın inkişafı da həmişə bizim diqqət mərkəzində olub və hesab edirəm ki, biznes dairələri, Azərbaycan, İran iş adamları rəhbərlikdən, yəni siyasi rəhbərlikdən gələn bu mesajları düzgün qəbul edəcəklər və öz fəaliyyətlərində bunu rəhbər tutaraq, konkret iş görməklə bizim ticari-iqtisadi əlaqələrimizi daha da gücləndirəcəklər. Yenə də ümid edirəm ki, növbəti dəfə biz burada görüşəndə bu salon tam dolu olacaq.

Bir daha xoş gəlmisiniz, hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli iranlı dostlarımıza da xoş gəlmisiniz deyirəm. Sağ olun.




***

Sonra İran Prezidenti çıxış etdi.

## Prezident Məsud Pezeşkianın çıxışı

– Azərbaycan Respublikasının möhtərəm Prezidenti, əziz qardaşım cənab İlham Əliyevə bizə göstərdikləri qonaqpərvərliyə, bizi səmimi qarşıladıqlarına, qarşılıqlı əlaqələrimizin konstruktiv şəkildə davam etməsi ilə əlaqədar ümidverici bəyanatına görə bir daha təşəkkürümü bildirirəm. Burada Sizin xidmətinizdəyik və inanırıq ki, əlaqələrimiz əvvəllər olduğu kimidir, - biz onsuz da bir yerdə idik, – aramızdakı sərhəd elə bil qonşu və ailə arasında olan sərhəddir, hərəsi bir tərəfdə bir divar və bir qapıya malikdir, amma həmişə bir yerdədirlər, bir-birini görürlər və bir-biri ilə əlaqələrə malikdirlər. Biz gərək bir-birimizə kömək edək, Azərbaycan xalqı və İran xalqı üçün nailiyyətlərimizi, istehsalımızı, elmimizi və mədəniyyətimizi qarşılıqlı olaraq bölüşək və ondan faydalanaq, hər iki tərəfin qazanacağı bir mühiti yaradaq.

Əziz qardaşımın vurğuladığı kimi, Azərbaycan və İran nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkələr olaraq aramızdakı əsas nəqliyyat dəhlizlərini və marşrutlarını – bizimlə Rusiya arasında Şimal–Cənub, həmçinin Şərq–Qərb nəqliyyat marşrutlarını həyata keçirə bilərlər. Bu isə ticarətin, elmin, mövcud təcrübənin və texnologiyanın ötürülməsinə lazımi şərait yaradır.

Bizim bir çox qonşu ölkələrin rəhbərləri ilə görüşlərimdə həmişə belə bir ideyanı qaldırmışam və bu, hətta tələbəlik illərimdə də daim beynimdə olub ki, niyə biz birlikdə bir qatara minərək Pakistandan İrana, Azərbaycana, Türkiyəyə, İraqa, Ərəbistana səfər etməyək. Axı, bir-birimizlə bu əlaqələri rahat şəkildə yaratmaq üçün nə problem var ki...

Oxşar mədəniyyət və sivilizasiyaya, qədim tarixə və qohumluq əlaqələrinə malik İslam ölkələri, – bütün qonşularımız bir-biri ilə bir neçə minillik əlaqələrə malikdir, – nəyə görə biz belə əlaqələr üçün münasib mühit yaratmayaq. Belə bir mühitin yaradılması üçün ilk addım ticarətlə, mədəniyyətlə, elmlə başlayır. Universitetlərimiz bir-biri ilə əlaqə yarada, elm, texnologiya və mədəniyyət sahələrində əldə etdikləri təcrübələri bölüşə bilərlər. Ticarət və sənaye sahələrində çalışan insanlarımız bu istiqamətlərdə təcrübələrini regionun və bizim özümüzün ehtiyaclarımız üçün bir-birinə ötürsünlər. Regionumuzda mövcud olan bazar bizim ehtiyacımızı təmin edir və bütün dünyanı təmin edə bilər. Bu bazar İran üçündür, Azərbaycan üçündür, Pakistan üçündür, Əfqanıstan üçündür. Biz özümüz üçün belə bir bazar yarada bilərik və bu, bizim iradəmizdən asılıdır. Bizim iş adamlarımız, tacirlərimiz, Azərbaycandakı siz əzizlər bir-birinizlə müştərək olub birgə investisiya qoyuluşunu həyata keçirin. Biz Azərbaycanda, siz İranda, biz və siz İraqda, Pakistanda, pakistanlılar isə bizimlə, yəni, bir-birimizlə sıx əlaqələrə malik bir birlik yarada bilərik. Daha sonra yollarımızı açarıq, mövcud texnologiyanı, təcrübəni, elmimizi bir-birimizə ötürə bilərik. Rifahın, sülhün və sabitliyin, inkişafın və azadlığın mövcud olduğu bir gələcəyi özümüz, bölgəmiz və cəmiyyətlərimiz üçün yarada bilərik. Regionun təhlükəsizliyini biz özümüz qoruya bilərik. Başqa yerdən gəlib bizim üçün təhlükəsizliyin yaradılmasına ehtiyacımız yoxdur. Böyüklərimiz bir yerdə oturub problem və ixtilafları həll ediblər. İnanmıram ki, yuxarı səviyyədə ixtilaf mövcud olsun, aşağıda bəziləri var və əlbəttə, onları da xaricdən təhrik edirlər. İstəmirlər ki, eyni mədəniyyət və ənənələrə malik qonşu ölkələr arasında və bölgədə sağlam əlaqələr yaransın. Biz aramızda mövcud olan uzun tarixə malik sağlam əlaqələrin bəziləri tərəfindən müxtəlif bəhanələrlə pozulmasına və pisləşməsinə imkan verməməliyik. İranda, elə öz cəmiyyətimizdə bu hadisələrin baş verməsini ürəyi istəməyənlər var. Ehtimal ki, ola bilər burada da olsun. Ehtimal ki, İraqda, Əfqanıstanda da ola bilər olsun. Lakin vacib olan odur ki, ticarət və investisiya biri-birini tamamlasa və biz təhsildə, sənayedə, elmdə, mədəniyyətdə səmimi və dərin əlaqələr qura bilsək, idmançılarımız və incəsənət xadimlərimiz bir-biri ilə görüş keçirsələr, əlaqələri olsa sülh və təhlükəsizlik dolu bir region yarada bilərik. Mən burada əziz qardaşım, möhtərəm cənab Prezident İlham Əliyevin yanındayam. İlk saatlardan bir-birimizə səmimiyyətimizi və sədaqətimizi bildirdik. Bütün sahələrdə əməkdaşlıq etməyə hazır olduğumuzu bildirdik. Bizim və Azərbaycanın ərazisi Şərqin Qərbə, Şimalın Cənuba birləşməsi üçün dördyol ola bilər. Biz elə bir coğrafi məkanda yerləşirik ki, bu bağlantıları bərqərar edə bilərik. Belə bir iş təbii olaraq avtomobil yolu, dəmir yolu, liman, ticarət əlaqələri, habelə keçə biləcəyimiz sərhədlər istəyir. Əlbəttə, rabitə və proqram təminatları sistemlərinin mütləq şəkildə öz prinsipləri var. Birlikdə əyləşə və bunları planlaşdıra bilərik. Rahat, etimad və arxayınlıqla irəliyə gedə bilərik. Qəti və mütləq şəkildə bir-birimizin ərazi bütövlüyünə, siyasətinə və təhlükəsizliyinə hörmət etməliyik. Bir-birimizin daxili işlərinə müdaxilə etmək niyyətimiz olmamalıdır. Bu, bizim inandığımız amildir. Qardaşımla danışıqlarda doğmalıq hissinə malik oldum. Biz burada həqiqətən qardaşlıq və qohumluq hiss edirik. Qonşuluqla yanaşı, bura bizim üçün həqiqətən də fərqli yerdir, mənim Avropaya və ya Afrikaya getməyimlə Azərbaycana gəlməyim arasında böyük fərq var. Ümumiyyətlə, müqayisə olunası deyil. Yəni, bura o yerdir ki, adam mədəniyyəti, dili və insanları ilə tanış olduğunu hiss edir. Yeməyi, ümumiyyətlə, hər şeyi tanışdır. Baxırsan və elə bilirsən ki, səninkidir. Bu tanışlıq hissinin nəticəsi olaraq, həqiqət, birlik və yoldaşlıq hissləri qanunlarda, qaydalarda və əlaqələrdə də özünü göstərməlidir. Biz bu amilin özünü göstərməsinə hazırıq və qərarlıyıq.

Mən bu gün səhər buraya gəlməmişdən əvvəl Ali Rəhbərin qəbuluna getdim, o da Sizə salam göndərdi və təkid etdi ki, buradakı bacı və qardaşlarımızla əlaqələrimizi daha səmimi və dərin edək. Bu, Ali Rəhbərin inancı və etiqadıdır, mənə verdiyi tövsiyədir. Burada olmağımız bir-birimizlə əlaqə qurmaq üçündür. Mən inanıram ki, biz əl-ələ verərək problemlərimizi həll etməyə qadirik. Bütün sahələrdə qüdrətli ölkələrə çata bilərik ki, onların özləri də bunu təsəvvür edə bilməzlər. Kifayətdir ki, bir-birimizə etimad göstərək, elmimizi, təcrübəmizi, bacarıqlarımızı bölüşək, cəmiyyətlərimizi inkişafa, başucalığına və vəhdətə çatdıraq. Əminəm ki, əgər bizim istehsalçılar və investorlar bir-biri ilə şərik olsalar, qarşılıqlı investisiya yatırsalar, çərçivə və qaydalarda vahid baxışa nail olsalar, regionumuzda kənar qüvvələrin varlığına ehtiyacımız olmayacaq. O yerdəki ki, bir sərhəddən digər sərhədə iqtisadiyyat və ticarət hərəkət edir, artıq o sərhəddən silah və hərbi qüvvə keçməyəcək. Ticarət təhlükəsizlikdir, sülhdür, qardaşlıqdır. Biz bunu ölkələrimizin qanunlarını, bir-birimizə hörməti və ya məhdudiyyətlərimizi, üzrlərimizi qəbul etməklə gücləndirə bilərik.

Mən əziz qardaşım möhtərəm cənab Prezident İlham Əliyevə bizə və ümumiyyətlə, İrandan gələn əzizlərimizə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlıq edirəm. Həqiqətən də minnətdarlıq ediləsidir. Ümid edirəm ki, bu, növbəti uğurun başlanğıcı olacaq. Şəhriyardan iki bənd şeir deyərək sözlərimi tamamlayıram:

**Bir uçaydım bu çırpınan yelinən,**
**Bağlaşaydım dağdan aşan selinən,**
**Ağlaşaydım uzaq düşən elinən,**
**Bir görəydim ayrılığı kim saldı?**
**Ölkəmizdə kim qırıldı, kim qaldı?**

**Mən sənintək dağa saldım nəfəsi,**
**Sən də qeytər, göylərə sal bu səsi,**
**Bayquşun da dar olmasın qəfəsi,**
**Burda bir şir darda qalıb bağırır,**
**Mürüvvətsiz insanları çağırır.**

Sağ olun.

## İran İslam Respublikasının Prezidenti Zati-aliləri cənab Məsud Pezeşkiana

**Hörmətli cənab Prezident!**

Bəndər Abbas şəhərindəki Şəhid Rəcai limanında baş vermiş partlayış nəticəsində insan tələfatı və çox sayda yaralı barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2025-ci il**

## Cənubi Afrika Respublikasının Prezidenti Zati-aliləri cənab Matamela Siril Ramafozaya

**Hörmətli cənab Prezident,**

Cənubi Afrika Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Cənubi Afrika arasında dövlətlərarası əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə, uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 aprel 2025-ci il**

## Syerra-Leone Respublikasının Prezidenti Zati-aliləri cənab Culius Maada Bioya

**Hörmətli cənab Prezident,**

Syerra-Leone Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 aprel 2025-ci il**

# Qlobal Cənub QHT Platformasının təsis konfransının iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Bu gün Qlobal Cənubun həyatında vacib gündür. 100-dən artıq ölkənin nüfuzlu qeyri-hökumət təşkilatlarının, vətəndaş cəmiyyəti təmsilçilərinin iştirakı ilə ilk dəfə Qlobal Cənub QHT Platforması təsis olunur.

Çox şadıq ki, keçən ilin noyabrında Bakıda COP29 çərçivəsində Qoşulmama Hərəkatı ölkələrinin QHT-lərinin Cənub-Cənub əməkdaşlığı üzrə baş tutan beynəlxalq konfransı zamanı Azərbaycan Milli QHT Forumunun Qlobal Cənub QHT Platformasının yaradılması barədə təşəbbüsü güclü dəstək qazanmışdır. Bununla əlaqədar 140-a yaxın ölkədən 1000 nəfərdən çox QHT təmsilçisi və ictimai fəal birgə bəyanat imzalamışdır.

100-dən çox ölkədən 500-ə yaxın QHT-nin birləşdiyi COP29 QHT Koalisiyasının sonrakı dövrdə Qlobal Cənub QHT Platformasının təsisatlanması məqsədilə təşəbbüs qrupuna çevrilməsi birgə, koordinasiyalı fəaliyyətə ehtiyacı aydın nümayiş etdirmişdir.

Şaxələndirilmiş xarici siyasət yürüdən Azərbaycan 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik edərək, inkişaf etməkdə olan ölkələrin maraqlarını qətiyyətlə müdafiə etmiş, mühüm qlobal təşəbbüslərlə çıxış etmişdir. Bu dövr ərzində tərəfimizdən fərqli iqtisadi durumda olan üzv dövlətlərə, o cümlədən COVID-19 zamanı 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımları göstərilmiş, Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində mühüm addımlar atılmışdır.

Qlobal Cənubun güclü səsinə çevrilən Azərbaycan bu platformanın məhz Bakıda təsis olunmasını Qoşulmama Hərəkatına və COP29-a sədrlik dövrlərində fəaliyyətinə verilən yüksək qiymət kimi qəbul edir. İnanıram ki, Qlobal Cənub QHT Platforması xalqlarımızın səsinin eşidilməsi, mövqelərinin dünya ictimaiyyətinə çatdırılması, onların haqlarının qorunması və hüquqlarının təmin edilməsi işinə böyük töhfə verəcəkdir.

Azərbaycanın Qlobal Cənub ilə Qlobal Şimal arasında fəal dialoq, o cümlədən qarşılıqlı anlaşma mühiti yaratması, uzun illər ərzində nail olunması mürəkkəb olan konsensus üçün davamlı şəkildə tarazlaşdırıcı mövqe tutması COP29 zamanı "Bakı sıçrayışı"nın əldə edilməsi ilə nəticələnmişdir. Biz Azərbaycanın ev sahibliyi ilə keçirilmiş və 197 ölkədən 80 minə yaxın iştirakçının qatıldığı COP29-da tarixi uğurlara imza atdıq və ölkəmiz haqlı olaraq COP29 irsi ilə fəxr edir.

Azərbaycan fəal diplomatiya vasitəsilə Qlobal Şimal və Qlobal Cənub arasında mövcud fərqliliklərini aradan qaldırmaq, daha inklüziv və effektiv dialoqu inkişaf etdirmək üçün bu gün də əzmlə çalışır. Lakin bu prosesdə uğura nail olmaq yolunda ən böyük maneə Qlobal Cənub ilə Qlobal Şimal arasında illər ərzində formalaşmış etimadsızlıqdır. Biz bu disbalansı aradan qaldırmaq məqsədilə Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu öz üzərimizə götürərək etimad quruculuğu işinə yeni töhfələr vermək əzmindəyik.

İqtisadi və siyasi transformasiyadan uğurla keçmiş, hərbi təcavüzlə üzləşmiş, ərazi bütövlüyü və suverenliyini öz gücünə tam bərpa etmiş bir dövlət kimi Azərbaycan az inkişaf etmiş, inkişaf etməkdə olan ölkələrin və bütövlükdə Qlobal Cənubun üzləşdiyi problemləri dərindən dərk edir. Biz bu məkanda həmrəyliyin, əməkdaşlığın və davamlı inkişafın təşviqinə daim sadiqik.

Azərbaycan hər zaman qarşılıqlı hörmət və birgə inkişaf prinsiplərinə əsaslanan siyasət aparıb. Təəssüflər olsun ki, hazırda Qlobal Cənubu təmsil edən bir sıra ölkələrin hələ də əziyyət çəkdikləri əsas problemlərdən biri də bəzi Qərb ölkələrinin yürütdüyü neokolonializm siyasətidir. Biz müstəmləkəçiliyin bütün formalarını və təzahürlərini qətiyyətlə rədd edir, xalqlara faciələr, köləlik, iztirab gətirən bu cür davranışları qəbuledilməz hesab edirik.

Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə əməl edən, xalqların siyasi sistemlərinə, mədəni, etnik, dini fərqliliklərinə hörmət edən, dinlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu daim güclü təşviq edən ölkədir. İnanıram ki, birgə fəaliyyətimizlə xalqlarımız üçün daha işıqlı bir gələcək, yeni, ədalətli dünya düzəni qura bilərik.

Qlobal Cənub QHT Platformasının fəaliyyətinə uğurlar arzu edir və hər bir iştirakçını bu əlamətdar hadisə münasibətilə təbrik edirəm!

Azərbaycana hər zaman güvənə bilərsiniz!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 aprel 2025-ci il**

# İran Prezidenti Ulu öndərin məzarını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian aprelin 28-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda rəsmi səfərdə olan İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian aprelin 28-də Şəhidlər xiyabanını ziyarət edib.**

Məsud Pezeşkian Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə həyatlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtın mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Bibiheybət məscidini ziyarət





**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian aprelin 28-də Bibiheybət məscidini ziyarət edib.**

Ali qonağı Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov qarşıladılar.

İran Prezidentinə Bibiheybət məscidi haqqında məlumat verilərək bildirilib ki, Azərbaycandakı İslam memarlığı abidələrinin ən əhəmiyyətli nümunəsi olan bu məscid XIII əsrdə Mahmud ibn Səd tərəfindən yeddinci imam Musa əl-Kazımın qızı Həkimə xanımın məzarı üzərində tikilib. Məhəmməd (s) peyğəmbərin nəslindən olduğuna görə Həkimə xanımın məzarı yerləşən bu məkan məscid tikilməzdən əvvəl də müqəddəs sayılırdı. Məscidin tikilməsi ilə bura insanların ziyarətgahına və ibadətgahına çevrilib.

Qeyd olunub ki, məscid keçmiş SSRİ ərazisində dinə qarşı mübarizə zamanı 1936-cı ildə bolşeviklər tərəfindən tamamilə dağıdılmışdı. Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra ölkədə məscidlərin bərpasına başlanıldı. Məscidin dağıdıldığı yerdə yenidən tikilməsi ulu öndər Heydər Əliyevin, kompleks şəklinə salınması işləri isə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Məscidin Heydər Əliyev Fondunun prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətində olduğu xüsusi qeyd edilib.

İran Prezidenti Həkimə xanımın ziyarətgahına baş çəkdi, fəxri qonaqlar üçün ziyarət kitabına ürək sözlərini yazdı.

Çay süfrəsi arxasında səmimi söhbət edən İran Prezidenti Məsud Pezeşkian və şeyxülislam Allahşükür Paşazadə bir-birilərinə xatirə hədiyyələri təqdim etdilər.

# Səfər başa çatdı



**İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 28-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İran Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Naxçıvan Ali Məclisinin iclası



**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti iclasında Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabat dinlənilmiş, "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" və "Publik hüquqi şəxslər haqqında" Naxçıvan Muxtar Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə layihələr ikinci oxunuşda müzakirə edilib.**

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Nazirlər Kabinetinin hesabatı Ali Məclisin komitə iclaslarında müzakirə olunub, Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim edib. Müzakirələrdən sonra "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatı barədə" qərar səsə qoyularaq qəbul edilib.

Müzakirəyə çıxarılan qanun layihələri barədə Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib. Layihələr səsə qoyularaq ikinci oxunuşda qəbul edilib və redaktə olunması üçün aparıcı komitəyə qaytarılıb.

***XQ***

# Gənc soydaşlarımızın Gürcüstanda fəallığı artır



**Gürcüstanda səfərdə olan Diaspora İş üzrə Dövlət Komitəsinin sədr müavini Vaqif Seyidbəyov və Diaspora Dəstək Fondunun icraçı direktoru Əkrəm Abdullayev Tbilisidə fəaliyyət göstərən "Alyans" Gənclər Mərkəzində də olublar.**

İcraçı direktor Rəna Hüseynova mərkəzdə gənc soydaşlarımızın ictimai-mədəni fəaliyyəti barədə qonaqlara ətraflı məlumat verib. Mərkəzin sədri Leyla Əmrahova isə bildirib ki, Azərbaycan dövləti qonşu ölkənin sakini olan fəal gənclərimizin milli-mənəvi dəyərlərimizlə geniş tanış olmaları, Gürcüstan cəmiyyətində layiqli yer tutmaları ilə bağlı önəmli işlər görür.

Bildirilib ki, "Alyans" Gənclər Mərkəzi də belə ictimai qurumlardan biri olaraq ana dilimizi, milli tariximizi və mədəniyyətimizi təbliğ edir. Erkən nikahların qarşısının alınması, qurulan yeni ailələrdə milli adət-ənənələrimizin yaşadılması, gənclərin gərəkli sənət və peşələrə yönləndirilməsi də əsas hədəflərdəndir. Müvafiq gürcü mərkəzləri ilə birgə layihələr də həyata keçirilir.

Sonra Diaspor Komitəsinin dəstəyi ilə yaradılmış "Qlobal Təhsil Assosiasiyası"nın təqdimatı keçirilib. Assosiasiyanın təsisçisi və direktoru R.Əliyev bildirib ki, QHT kimi fəaliyyət göstərəcək assosiasiya Gürcüstanda təhsil alan tələbələrin problemlərinin həllinə, onların ali məktəb mühitinə uyğunlaşmalarına dəstək verəcək.

Vaqif Seyidbəyov qeyd edib ki, Azərbaycan və Gürcüstan dövlətləri və xalqları arasında dostluq və qardaşlıq münasibətlərinin inkişaf etdirilməsində gənclərin üzərinə böyük vəzifə düşür. Regionda cərəyan edən proseslər Azərbaycan və Gürcüstan gənclərinin daha yaxından əməkdaşlığını tələb edir.

***Paşa ƏMİRCANOV***
***XQ***

# Prezident Məsud Pezeşkian: Qonşularla yaxın münasibət qurmaq İranın əsas prioritetlərindəndir

## *İran Prezidenti xalqlarımıza sakit və rahat həyat yaradılmasının vacibliyini vurğuladı*

**İran Prezidenti Məsud Pezeşkian Azərbaycan Televiziyasına eksklüziv müsahibəsində Bakıya ilk rəsmi səfərindən, bununla bağlı gözləntilərdən, iki qonşu dövlət və xalq arasında sıx əlaqələrin yaradılması zərurətindən danışıb, eləcə də bir sıra maraqlı mesajlar verib.**

Onun sözlərinə görə, bu səfər dost və qardaş Azərbaycanın Prezidenti İlham Əliyevin rəsmi dəvəti ilə həyata keçirilir: "Biz, həmçinin Azərbaycandakı yaxınlarımızla görüşməkdə maraqlıyıq. Orada özümüzü qərib hesab eləmirik".

### "Sevincimizə və qəmimizə şərik olmuşuq"

Bakıya gəlişinin böyük əhəmiyyət kəsb etdiyini deyən İran Prezidenti bu səfər çərçivəsində iş adamları, sənayeçilər və alimlər Azərbaycandakı tərəfdaşları ilə danışıqlar aparacaqlarını, əlaqələri genişləndirməyə çalışacaqlarını qeyd edib: "İki ölkə dərin tarixi, mədəni və mənəvi bağlara malikdir. Biz böyük tarixi bölüşmüşük, amma aramızda sərhəd var. Buna baxmayaraq, şad və çətin günlərimizdə bir-birimizə şərik olmuşuq. Bu mənada, qonşularla yaxın münasibətdə olmaq İranın əsas prioritetlərindən biridir".

M.Pezeşkian Azərbaycana səfərində, Prezident İlham Əliyevlə görüşündə bu amilin öz təsdiqini tapacağına, xalqlar arasında qardaşlığın bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Azərbaycanlı jurnalistin Bakıda müzakirə olunacaq məsələlərin çeşidi ilə bağlı sualına cavabında İran lideri dedi: "İki qonşu, qardaş ölkə nə etməlidir? Malik olduğumuz potensialımız və qabiliyyətimizlə elm, sənaye, ticarət sahələrində yaxın əlaqələr qura bilərik. Qonşular kimi bir-birimizə çox köməyimiz dəyə bilər. İki ölkə arasında sağlam əlaqələrin yaradılması üçün əl-ələ verməli və irəli getməliyik".

### "Bütün sahələr üzrə əməkdaşlıq genişlənəcək"

"Bu taylı, o taylı bir-birimizlə qohumuq və sıx əlaqələrimiz, təmaslar öz töhfəsini verməkdədir. Ona görə bütün yolları açmalıyıq. Biz hər iki xalq üçün sakit və rahat həyat yarada bilərik" – deyə bildirən M.Pezeşkian növbəti sualın cavabında ikitərəfli əməkdaşlıqla bağlı heç bir məhdudiyyətin nəzərdə tutulmadığını diqqətə çatdırdı. O, parlamentlərarası əlaqələrin, universitetlərarası mübadilələrin genişlənməsini də irəliyə doğru addım sayıla biləcəyini nəzərə çatdırdı: "Səhiyyə sahəsində dava-dərman təchizatı ilə bağlı əməkdaşlıq edə bilərik. Yəni bu sahədə də müsbət əməkdaşlıq üçün imkanlar mövcuddur".

İki ölkə arasında əməkdaşlığın coğrafiyasının genişlənməsindən danışan İran Prezidenti belə mübadilələrin qarşılıqlı əlaqələrin bütün sahələrdə inkişafına, böyüməsinə səbəb olacağını, ümumi təcrübəni bölüşmənin tərəflərə yalnız fayda gətirəcəyini söylədi.

### "Beynəlxalq hüquqa riayət olunması vacibdir"

Azərbaycan–Ermənistan arasında davam edən sülh danışıqlarından, münaqişənin aradan qaldırılmasının vacibliyindən, eləcə də Zəngəzur dəhlizindən söz açan Pezeşkian bu zaman beynəlxalq hüquqa riayət olunmasının vacibliyini qeyd edib: "Bu məsələlər həm Azərbaycanın, həm də Ermənistanın hüquqları əsas götürülərək həll olunmalıdır. Həm də iki ölkə arasında ticarət əlaqələrinin bərpası ilə birbaşa bağlıdır. Azərbaycanla Naxçıvan arasında quru əlaqəsinin yaradılmasına biz təşəbbüs göstərmişik. Həmin layihə bu gün böyük sürətlə həyata keçirilməkdədir".



Pezeşkian qeyd edib ki, İran da Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqəsinin yaradılmasına şərait yaradıb: "Bu gün bizim köməyimiz ondan ibarətdir ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin yaradılmasına təşəbbüs göstərmişik. Layihə bu yaxınlarda həyata keçiriləcək. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında İran ərazisindən keçməklə əlaqənin yaradılmasında heç bir problem olmayacaq".

### "İki ölkənin xalqları üçün dinc və firavan həyat yaradaq"

AzTV əməkdaşının İran Prezidentinə verdiyi suallardan biri də rəsmi Tehranın BMT, İslam Əməkdaşlıq Təşkilatı, BRICS, Şanxay Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq platformalarda Bakıdan gözləntiləri barədə oldu. M.Pezeşkian suala cavabında qarşılıqlı normal əlaqələr qurulduqdan sonra sadalanan təşkilatlar çərçivəsində yaxın əməkdaşlığı növbəti addım kimi qiymətləndirdi.

Bunun ardınca M.Pezeşkian ölkəsi ilə Azərbaycan arasındakı münasibətlərdən danışarkən qeyd edib ki, Azərbaycan və İran bir-birinə böyük kömək göstərə bilər. İran dövlətinin başçısı jurnalistin ikitərəfli əlaqələrin uğurlu perspektivi üçün nə etməli? Sualını cavablandırarkən qeyd edib ki, Azərbaycanla İran arasında əməkdaşlıq imkanları genişdir: "İki qonşu və qardaş xalq nə etməlidir? Biz ölkələrimiz arasında möhkəm əlaqələr qurmaq üçün bir araya gəlib əməkdaşlıq edə bilərik. Universitetlər arasında əlaqələri inkişaf etdirə, ticarət əlaqələrini müzakirə edə bilərik".

Qarşılıqlı təmasların əlaqələri gücləndirəcəyini bildirən İİR lideri bu səfərləri asanlaşdırmaq üçün yolların açılmasının vacibliyini önə çəkdi: "Biz bir-birimizə kömək edib hər iki ölkənin xalqları üçün dinc və firavan həyat yarada bilərik". Müsahibədə İran Prezidenti Azərbaycana səfərindən məmnunluğunu və iki ölkə arasında möhkəm əlaqələrin qurulmasına, xüsusilə ticarət və sənaye sahələrində birgə layihələrin inkişaf etdirilməsi istiqamətində müsbət addımların atılacağına ümid etdiyini bildirib.

### "Bu şeir həyatı əks etdirir"

Jurnalistin "Məhəmmədhüseyn Şəhriyarın şeirlərinə tez-tez müraciət edirsiniz. Bu, sizin üçün duyğularınızın, yoxsa yaratmaq istəyinizin ifadəsidir? Bəs bu məqamda hansı şeirindən bir parça söyləmək istərdiniz?" – sualına cavabında Məsud Pezeşkian Şəhriyarın çox şeirlər yazdığını, amma onların arasında "Heydərbabaya salam" poemasının həyatı olduğu kimi əks etdirdiyini bildirdi. O, ölkəmizə və xalqımıza hörmət əlaməti olaraq Azərbaycan dilində Şəhriyarın "Heydər babaya salam"ından bir parçanı səsləndirdi:

**Heydər baba, kəndin günü batanda,**
**Uşaqların şamın yeyib yatanda,**
**Ay buluddan çıxıb qaş-göz atanda,**
**Bizdən də bir mümkün olsa, yad elə,**
**Açılmayan ürəkləri şad elə.**

**Qarı nənə gecə nağıl deyəndə,**
**Külək qalxıb qapı-bacanı döyəndə,**
**Qurd keçinin şəngülüsün yeyəndə,**
**Mən qayıdıb bir də uşaq olaydım,**
**Bir gül açıb ondan sonra solaydım.**

Bu şeiri oxuduqdan sonra Azərbaycandakı bacı-qardaşlarına canı-dildən sevgi bəslədiyini dilə gətirən Pezeşkian onlara başucalığı, izzət və mərhəmət arzuladığını bildirdi.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan–İran münasibətləri yeni hədəflər çevrəsinə daxil olur

**(əvvəli 1-ci səhifədə)**

Bu tendensiya 2025-ci ilin ilk aylarından da davam edib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında Azərbaycanla İran İslam Respublikası arasında ticarət əməliyyatlarının həcmi 157,2 milyon dolları təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə müqayisədə 22,3 milyon dollar və ya 16,5 faiz çoxdur. Məlumata əsasən, hesabat dövründə İran İslam Respublikası ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,30 faiz həcmində olub.

Bu ilin birinci rübündə Azərbaycandan İran İslam Respublikasına 4,9 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Ötən ilin eyni dövrü ilə müqayisədə bu sahədə 1,7 milyon dolları və ya 50,7 faizlik artım qeydə alınıb. Eyni zamanda, hesabat dövründə İrandan ölkəmizə 248,8 milyon dollar dəyərində idxal əməliyyatları icra olunub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 20,6 milyon dollar və ya 15,7 faiz artım deməkdir.

Son illər ölkələrimiz beynəlxalq yükdaşımalar, nəqliyyat-logistika sahələrində də uğurla əməkdaşlıq edirlər. Şimal – Cənub Nəqliyyat Dəhlizi üzrə əməkdaşlıq əlaqələrinin genişlənməsi bu baxımdan diqqət çəkir. Artıq iki ölkə sözügedən dəhlizin infrastruktur imkanlarının artırılması ilə bağlı birgə fəaliyyətlərini xeyli artırıb. Elə İran Prezidenti məlum müsahibəsində bu məqama toxunaraq Astara – Astara, eləcə də Astara – Rəşt dəmir yolları ilə İran və Azərbaycan arasında ticarət əlqələrinin perspektivlərindən bəhs edib. O, Azərbaycanın İranla Rusiya arasında qovuşdurucu rol oynaya biləcəyini vurğulayaraq deyib: "İnsanda ürək və damar həyati əhəmiyyət kəsb etdiyi kimi, yollar da ictimaiyyətlər və cəmiyyətlər arasında əlaqə və həyat anlamını özündə əks etdirir. Biz quru yollarının təmin edilməsi və bərpası üçün layihələrimizi həyata keçirməkdəyik. Astara-Astara dəmir yolu layihəsi də davam etdirilir".

Prezident deyib ki, Azərbaycan özü İran vasitəsilə Fars Körfəzinə daşımalar həyata keçirə bilər. Onun sözlərinə görə, İran hazırda bu sahədə öz üzərinə düşəni həyata keçirir və Prezident İlham Əliyev ilə görüşümüzdə də bu sahənin daha da sadələşdirliməsi üçün layihələrin reallaşdırılması üzrə danışıqlar olacaq.

İran üzərindən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqənin təmin edilməsi üzrə işlərin davam etdirildiyini bildirən prezident ölkəsinin Naxçıvanla quru əlaqənin təmin edilməsi üçün təşəbbüs göstərdiyini xatırladıb. Hazırda bu layihənin çox sürətlə həyata keçirildiyini diqqətə çatdıran M. Pezeşkian İran ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru əlaqənin yaradılmasında heç bir problem olmayacağını bildirib: "Biz çalışırıq ki, bu yolu daha təhlükəsiz və daha sağlam şəkildə yekunlaşdıraq. Yüksək səviyyəli mütəxəssislər layihəni dəyərləndiriblər. Ümid edirəm ki, bu layihə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında əlaqəni təhlükəsiz şəkildə təmin edəcək, eyni zamanda, Azərbaycanla Təbriz, Ərdəbil və Qərbi Azərbaycan arasında əlaqələrə də töhfə verəcək".



İranın dövlət başçısı müsahibəsində iki ölkənin "yaşıl" enerji sahəsində qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından bəhs edərək Araz çayının "yaşıl" enerji istehsalı üçün son dərəcə münasib olduğunu vurğulayıb. "Orada bəndlər yaradılıb və bəziləri də hələ reallaşdırılır. Bu su bəndlərindən "yaşıl" enerji əldə etmək olar. Biz bu sahədə hər iki ölkə üçün qarşılıqlı faydalı əməkdaşlıq edə bilərik. Heç şübhəsiz ki, bu əməkdaşlıq günəş və külək enerjisi sahəsini də əhatə edə bilər. Bu da iki ölkə arasında müvafiq qurumların əməkdaşlığı çərçivəsində inkişaf edə bilər", – deyə o əlavə edib.

Xatırladaq ki, ortaq tarixə malik olan Azərbaycanla qonşu İran İslam Respublikası arasında diplomatik münasibətlər zəngin keçmişə malikdir. Din, mədəniyyət və mənəvi dəyərlər baxımından yaxınlıq iki ölkə arasında müxtəlif sahələrdə əlaqələrin inkişafı üçün geniş imkanlar yaradır. Belə ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki dövlət arasında diplomatik münasibətlər sürətlə inkişaf etməyə başlayıb. Elə ölkəmizin müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də məhz cənub qonşumuz olub. 1991-ci il dekabrın 25-də Azərbaycanın dövlət müstəqilliyini tanıdığını bəyan edən İran İslam Respublikası ölkəmizlə bir çox sahələrdə əlaqələrin qurulmasına səy göstərib.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi illərdə Ermənistan tərəfindən blokada şəraitinə düşmüş bu diyarın üzləşdiyi çətinliklərin, qismən də olsa, aradan qaldırılması üçün İranla iqtisadi, humanitar və ticarət sahəsində əlaqələrin qurulmasına nail olunub. Bu baxımdan İrandan Azərbaycana qaz verilməsi, cənub qonşumuzun ərazisindən keçərək Naxçıvana gediş-gəliş məsələləri barədə əldə olunmuş razılaşmalar xüsusi əhəmiyyət daşıyıb.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış müxtəlif sahələrdə əməkdaşlığa dair 16 maddədən ibarət protokola əsasən, muxtar respublikanın kommunikasiya xətlərinin İran ərazisindən keçirilməsi, bir il ərzində qaz kəmərinin İran hökumətinin vəsaiti hesabına çəkilməsi, ayda 100 ton maye qazın, təqribən, 30 meqavat gücündə elektrik enerjisinin verilməsi kimi həyati vacib məsələlər həll olunub. Bununla da, Ulu öndərin gərgin əməyi və diplomatik fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasının Ermənistan tərəfindən yaradılan nəqliyyat, enerji blokadası yarılıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə gəlişindən sonra İranla münasibətlər yeni mərhələyə qədəm qoyub. 1993-cü ilin oktyabr ayında "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və qardaşlıq münasibətlərinin prinsipləri haqqında" 22 maddəlik memorandumla yanaşı, siyasi, ticarət, iqtisadi, elmi-texniki, mədəni və humanitar əlaqələrə dair 14 sənəd imzalanıb.

1994-cü ilin yayında Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyətinin İrana rəsmi səfəri çərçivəşində siyasi, iqtisadi, elmi-mədəni əməkdaşlığa dair 7 sənəd, o cümlədən Azərbaycanla İran arasında dostluq münasibətlərinin inkişafına dair 13 maddəlik bəyanata imza atılıb. Ümummili liderin hakimiyyətinin sonrakı illərində də iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin inkişafına xüsusi diqqət yetirilib.

Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də cənub qonşumuzla müxtəlif istiqamətlərdə əlaqələrin möhkəmləndirilməsinə xüsusi önəm verib. Xatırladaq ki, 2004-cü ilin avqust ayında İranın dövlət başçısının ölkəmizə səfəri çərçivəsində iqtisadi, nəqliyyat, mədəniyyət, energetika və s. sahələrə dair mühüm sənədlər imzalanıb. Energetika və qaz sahəsinə aid olan mübadilə sazişləri, Naxçıvan Muxtar Respublikasının elektrik enerjisi və "mavi yanacaq"la təmin olunması bu baxımdan mühüm əhəmiyyət kəs edib.

2005-ci il yanvarında isə Azərbaycan Prezidenti İlham Əliyevin İrana rəsmi səfəri ölkələrimiz arasında münasibətlərin daha da dərinləşdirilməsinə əlverişli imkanlar yaradıb. Sözügedən səfər çərçivəsində Araz çayının hidroenergetika potensialından birgə istifadə, mülki aviasiya sahəsində əməkdaşlığın inkişafı barədə sazişlər imzalanıb.

Həmin ilin sonlarında İranın yeni seçilmiş Prezidenti Mahmud Əhmədinejadın İrandan Naxçıvana çəkilmiş qaz kəmərinin açılışında iştirak etmək üçün muxtar respublikaya səfəri çərçivəsində dövlət başçıları tərəfindən iki ölkə arasında enerji sahəsində əməkdaşlığa dair bəyannamə imzalanıb. Bu kəmərin istifadəyə verilməsi Naxçıvanda qaz problemini əsaslı şəkildə həll etməklə, ikitərəfli iqtisadi əməkdaşlığın müsbət nəticələrinin təzahürünə çevrilib.

2010-cu il noyabrın 17-də İran Prezidenti Mahmud Əhmədinejadın növbəti dəfə Azərbaycana rəsmi səfəri çərçivəsində iki dövlət arasında enerji və nəqliyyat sahəsində Anlaşma Memorandumu və bir sıra digər sənədlər imzalanıb. Memorandumda nəqliyyat sektoru sahəsində Şimal– Cənub dəhlizinin qurulması və bu istiqamətdə əlavə tədbirlərin görülməsi nəzərdə tutulub, birgə elektrik güclərinin yaradılması məsələləri öz əksini tapıb.

İki ölkə arasında dövlət başçıları səviyyəsində qarşılıqlı səfərlər sonrakı illərdə də davam edərək iqtisadi münasibətlərin möhkəmləndirilməsinə təkan verən bir çox mühüm sənədlərə imza atılıb. Buna misal olaraq Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında "Ordubad" və "Marazad" Su Elektrik stansiyalarının tikintisi və istismarı haqqında Sazişi, "Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə"ni və digər sənədləri qeyd etmək olar. Ölkələrimiz arasında iqtisadi, ticarət və humanitar sahələr üzrə Dövlət Komissiyasının fəaliyyəti bərpa olunması, Bakıda və Tehranda mütəmadi görüşlərin keçirilməsi qarşılıqlı investisiyalara, müştərək müəssisələrin yaradılmasına və ən başlıcası, iki ölkə arasında mal mübadiləsinin ciddi şəkildə artmasına təkan verib.

Bütün bunlarla yanaşı, ötən müddətdə Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi və digər sənədlər imzalanıb.

Həmin sənədlər içərisində iki ölkənin dəmir yollarının birləşdirilməsi barədə əldə edilmiş razılaşma xüsusi əhəmiyyət daşıyır. Bu addım Şimal – Cənub nəqliyyat dəhlizinin layihəsi çərçivəsində birgə əməkdaşlığa "yaşıl" işıq yandırıb. Eyni zamanda, Azərbaycanın Şimal – Cənub nəqliyyat dəhlizi ilə yanaşı, Şərq – Qərb nəqliyyat dəhlizinin də əhəmiyyətli tranzit ölkəsi olması İrana öz məhsullarını bu marşrut vasitəsilə Avropa bazarına ixrac etmək imkanı yaradır.

2016-cı il aprelin 20-də Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Hökumətlərarası Çərçivə Sazişinə uyğun olaraq, Astara çayı üzərində dəmir yolu körpüsünün və Neftçala Sənaye Zonasında birgə avtomobil istehsalı zavodunun, 2017-ci ilin yanvarında isə Pirallahı Sənaye Parkında Azərbaycan–İran birgə layihəsi olan əczaçılıq zavodunun təməlinin qoyulması, eləcə də "Xudafərin", "Qız Qalası", "Ordubad" və "Marazad" sazişlərinin reallaşdırılması ölkələrimiz arasında nəqliyyat və enerji sahələrində uğurla əməkdaşlığa geniş imkanlar yaradır.

Heç şübhəsiz, İran prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri çərçivəsində dövlət başçıları arasında keçirilmiş görüşlər, imzalanmış mühüm sənədlər ölkələrimiz arasında çoxtərəfli münasibətlərin daha da möhkəmlənməsinə təkan verəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Zərifə Əliyeva – fenomen Azərbaycan qadını

## *Taleyində 3 dövlət xadimini qovuşduran nadir insan*



**Hər bir xalqın ictimai fəallığı, ölkəsinə önəmli xidmətləri ilə seçilmiş qadın şəxsiyyətləri onun milli tarixində şərəfli yer tutur və heç zaman unudulmurlar. Həyatı və mübarizəsi ilə tarixləşmiş belə qadınlardan biri də Azərbaycan dövlətçilik tarixində müstəsna yeri olan 3 böyük dövlət xadimini birləşdirən dünya şöhrətli insan akademik Zərifə Əliyevadır. Onun tale yazısına, həyat fəlsəfəsinə 3 dövlət xadiminin adı həkk olunub.**

Zərifə xanım Azərbaycanın böyük oğlu, dövlət və elm xadimi, professor Əziz Əliyevin həkimlik sənətini özünə fəaliyyət yolu seçən övladıdır. Əziz Əliyev Azərbaycan səhiyyəsinin inkişafında xidmətləri olan görkəmli dövlət xadimi, müdrik rəhbər idi. Prezident İlham Əliyevin də dediyi kimi: “Əziz Əliyev peşəkar həkim, həm təşkilatçı, həm də dövlət xadimi idi. Təvazökar, xeyirxah insan idi”. Bu insanın şəxsi keyfiyyətləri övladlarına da keçərək onlara zəka, xalq sevgisi, mübarizlik, humanizm və xeyirxahlıq aşılamışdı. Əziz müəllim bilikli pedaqoq, qətiyyətli və təmkinli dövlət rəhbəri idi. Bununla o, hər kəsə, eləcə də övladlarına örnək idi. Belə ailədə formalaşan Zərifə xanım insanlara sevgi və qayğısı ilə tanınan zərif qadın idi. Kübarlıq, ziyalılıq, Vətənə faydalı olmaq onun xarakterini müəyyən edirdi.

Akademik Zərifə Əliyeva ümummilli lider, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin həyat sirdaşı, ömür-gün yoldaşı, ən yaxın dostu olmuşdur. Prezident İlham Əliyev bu barədə söz açarkən vurğulayıb: “Alim kimi Zərifə xanım çox böyük zirvələrə çata bilmişdir. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də öz aktuallığını itirmir. Bir alim kimi Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir, eyni zamanda, Sovet İttifaqının oftalmologiya elmində ən yüksək mükafat olan Averbax mükafatına layiq görülmüşdür.

Zərifə xanım böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı idi. Bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər, əlbəttə ki, bizi də tərbiyə edirdi... Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. O, həmişə sadə insanların əhatəsində olurdu. Çox təvazökar idi”.

Zərifə Əziz qızı Azərbaycanın gələcək liderinin dostluğunu, etibarını, məhəbbətini öz həssas ürəyi, musiqili duyğuları, incə qəlbi, yüksək kübar mədəniyyətli, əsilzadə nəcabətli xanımlıq xisləti ilə qazanmışdı, ailədə onun arxa-dayağı, həyatda yüksəlişinə yardımçı olmuşdu. Ulu öndər Heydər Əliyev xatırlayırdı: “Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə, ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib... Mən, həqiqətən, onu çox sevirdim. Onun da mənə olan məhəbbətini hiss edirdim”.



Ulu öndərin siyasi həyatının ən çətin, ağır və təhlükəli vaxtlarında Zərifə xanım onu heç zaman tək qoymadı, silahdaşı, dostu, dəstəyi oldu. Zərifə xanım ailəsində əvəzolunmaz dəyəri, yeri olan həyat yoldaşı idi. Ulu öndər onun fəaliyyəti haqda deyirdi: “Zərifə xanım şox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi” .

Akademik Zərifə Əliyeva oftalmologiya məktəbində tək elmi-tədqiqatla kifayətlənmir, həm də gənc tibbi kadrların peşə ixtisaslarının yüksəlməsinə özəl diqqət yetirirdi və onun rəhbərliyi ilə çoxsaylı oftalmoloqlar həyata vəsiqə almışdı. Zərifə xanım çoxillik həkimlik yolunda mürəkkəb göz əməliyyatları aparmış, görməsi çox zəif olan, ya da tam görməyənlərin gözünə nur gətirən oftalmoloq olmuşdu.

Ulu öndər Zərifə xanımı belə anırdı: “Ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar”. Prezident İlham Əliyev isə əziz anası haqda söyləyib: “Böyük lider, ulu öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi”.

Zərifə xanım Böyük ana, qayğıkeş qadın idi. Alim və həkim kimi cəmiyyətdə fəal rolu ilə yanaşı, o, analıq, həyat yoldaşı missiyasını da heç zaman unutmamışdı. Həyatda təmkinli, səbirli, mədəni, kübar, diqqətçil, səmimi olmaq Heydər Əliyev və Zərifə Əliyevanın oğulları Prezident İlham Əliyev və qızları – şərqşünas Sevil Əliyevanın həyat yolunda ən yaxşı örnək oldu. Belə bir ailədə İlham Əliyev kimi vətənsevər oğulun formalaşması, gələcəyin lideri kimi yetkinləşməsi tamamilə təbiidir.

Zərifə xanım alim, ziyalı, görkəmli şəxsiyyət, Azərbaycan tibb elminin oftalmologiya sahəsinin inkişafında xidmətləri olan akademik qadındır. Onun həkimlik fəaliyyəti, ömür yolu, mədəni dünyası oftalmologiya elminə güclü təsir edirdi. Azərbaycan oftalmologiyasını dünyada tanıdan Zərifə Əliyeva tibbin bu sahəsində məktəb yaradan yenilikçi alimdir. Zərifə Əliyeva qeyd edirdi: “O şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir”. Bu mənada, akademik A.Nesterov da haqlıdır: “Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi”.

Zərifə Əliyeva Sülhü Müdafiə Komitəsinin, Azərbaycan “Bilik” Cəmiyyətinin, Oftalmoloqların Elmi Cəmiyyətinin Rəyasət Heyətinin, “Oftalmologiya xəbərləri” jurnalının redaksiya heyətinin üzvü, ictimai xadim idi. O, ədəbiyyatı, musiqini sevirdi, özü də pianoda çalırdı, bədii yaradıcılığa ciddi önəm verirdi.

İxtisasca həkim olan gəlini Mehriban xanım Əliyeva söyləyib: “İxtisas seçimimə İlhamın anası – həkim oftalmoloq Zərifə xanım təsir göstərmişdir. Təəssüf ki, mənim Zərifə xanımla ünsiyyətim qısa (1983-1985) oldu, həyatdan getdi. Bu istedadlı və gözəl qadınla bağlı xatirələr hələ də mənim qəlbimdə yaşayır”. Zərifə xanımın ömür yolu, örnək həyatı hər azərbaycanlı qadını, hər bir alim və həkim üçün nümunə, gör-götür məktəbidir. İnsanlara məhəbbəti, incə ürəyi ilə gözlərə nur verən akademik Zərifə Əliyeva müasir gənclərə, eləcə də gələcək nəsillərə örnək bir şəxsiyyətdir.

Prezident İlham Əliyev akademik Zərifə Əliyevanın 90 illik yubileyində söyləmişdir: “Zərifə xanım, sözün əsl mənasında, həkim, böyük alim idi. O, Azərbaycan oftalmologiya məktəbinə öz dəyərli töhfəsini vermişdir, gənc kadrların hazırlanmasında çox böyük fəaliyyət göstərmişdir. Eyni zamanda, insanların görmə qabiliyyətinə mənfi təsir göstərən istehsalatlarda onun laboratoriyaları fəaliyyət göstərmişdir”.

Prezident İlham Əliyev Zərifə xanımın yüksək insani keyfiyyətlərini belə xatırlayıb: “Zərifə xanım yüksək davranış meyarlarına malik idi. İnsanlara münasibətdə səmimiyyət, xeyirxahlıq, eyni zamanda, yüksək mədəniyyət, alicənablıq – bütün bu gözəl amillər onda birləşmişdi. Zərifə xanım əsl ziyalı idi, Azərbaycan xanımına xas olan bütün müsbət keyfiyyətləri özündə birləşdirmişdi, onları təcəssüm etdirirdi”.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Zərifə xanımdan əxz etdiyi ənənələrini yaşadır, milli-mənəvi dəyərlərin hamisi olmaqla ölkədə təhsilin, tibb sahəsi, mədəniyyət, mənəviyyat və s. sahələrin tərəqqisinə müstəsna diqqət göstərir. Müasir Azərbaycanı beynəlxalq aləmdə geniş tanıdır, çoxyönlü humanitar missiyasında Azərbaycan qadınının – anasının yüksək mənəvi-mədəni keyfiyyətlərini ümumbəşəri dəyərlərlə qovuşdurur.

*Rəna MİRZƏZADƏ,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri*

---

**28 aprel Azərbaycanın elm və ictimai fikir tarixində silinməz izlər qoymuş akademik Zərifə xanım Əliyevanın doğum günüdür. Zərifə xanımın zəngin və mənalı həyatı, çoxşaxəli fəaliyyəti Azərbaycan qadınının yüksək intellektinin, dərin humanizminin və misilsiz sədaqətinin parlaq təcəssümüdür. O, yalnız fundamental elmi kəşflərə imza atmış böyük bir alim deyil, həm də nadir insani keyfiyyətlərə malik olan bir şəxsiyyət idi.**



# Ürəklərdə yaşayan şəfqətli insan

Zərifə xanım təmiz qəlbi, xeyirxahlığı, insanlara sonsuz məhəbbəti ilə onu tanıyan hər kəsin qəlbində və yaddaşında əbədi olaraq yaşayır. O, öz sadəliyi, təvazökarlığı və zəngin mənəvi dünyası ilə seçilirdi, hər zaman ətrafındakılara diqqətlə yanaşır, onların sevincinə və kədərinə şərik olur, əlindən gələn köməyi əsirgəmirdi.

Bir alim kimi Zərifə xanım Əliyeva oftalmologiya elmində dünya miqyasında böyük nüfuz sahibi olmuşdur. Onun innovativ elmi araşdırmaları, xüsusilə də sənaye müəssisələrində çalışan işçilərin görmə orqanlarının peşə xəstəliklərinin öyrənilməsi, diaqnostikası və profilaktikası istiqamətindəki fundamental əsərləri bu sahədə yeni bir mərhələnin başlanğıcı olmuşdur. Zərifə xanımın rəhbərliyi altında aparılan tədqiqatlar bir çox göz xəstəliklərinin etioloji amillərinin, patogenezinin və müasir müalicə metodlarının müəyyənləşdirilməsinə misilsiz töhfələr vermişdir. Onun sanballı monoqrafiyaları, elmi məqalələri və ixtiraları bu gün də həkim-oftalmoloqlar üçün dəyərli elmi mənbələrdən biri olaraq qalmaqdadır. Zərifə xanım dəfələrlə nüfuzlu beynəlxalq elmi forumlarda Azərbaycan elmini yüksək səviyyədə təmsil etmiş, öz tədqiqatları ilə dünya alimlərinin böyük marağına səbəb olmuşdur.

Zərifə xanımın həyatında xüsusi əhəmiyyət kəsb edən digər bir rolu isə onun görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı olmasıdır. Heydər Əliyevin mürəkkəb və şərəfli siyasi fəaliyyəti dövründə Zərifə xanım onun ən yaxın məsləkdaşı, sədaqətli dostu, etibarlı sirdaşı və mənəvi dayağı olmuşdur. Onun müdrik tövsiyələri Ulu öndərin qətiyyətli addımlarında, strateji qərarlarında və dövlətçilik fəaliyyətində mühüm rol oynamışdır. Zərifə xanım hər zaman Heydər Əliyevin ideyalarına ürəkdən inanmış, onun siyasi kursunu dəstəkləmiş və ictimai tədbirlərdə onunla çiyin-çiyinə addımlamışdır. Onun zəkası, təvazökarlığı və inamı Ümummilli liderin nüfuzunu daha da artırmışdır.

Zərifə xanım həm də Azərbaycan Respublikasının hazırkı Prezidenti İlham Əliyevin sevimli anasıdır. O, övladını milli-mənəvi dəyərlərə, vətənpərvərliyə, yüksək əxlaqi prinsiplərə sadiq bir şəxsiyyət kimi tərbiyə etmişdir. Prezident İlham Əliyevin müasir Azərbaycanın inkişafı, regionda sülhün və sabitliyin təmin olunması, ölkəmizin beynəlxalq arenada nüfuzunun artırılması istiqamətində əldə etdiyi böyük uğurlar həm də Zərifə xanımın onda verdiyi tərbiyənin, zəngin mənəviyyatın və Vətən sevgisinin nəticəsidir. Onun analıq qayğısı və müdrik nəsihətləri İlham Əliyevin şəxsiyyətinin formalaşmasında müstəsna rol oynamışdır.

Zərifə xanım Əliyevanın əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi olaraq yaşayacaq, onun işıqlı obrazı gələcək nəsillərə yol göstərəcəkdir.

*Gülşən PAŞAYEVA,*
*Milli Məclisin deputatı,*
*Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü*

---

# Akademikin xatirəsi beynəlxalq məclisdə anıldı



**Akademik Zərifə Əliyevanın anadan olmasının 102 illiyinə həsr edilmiş beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Konfrans Səhiyyə Nazirliyi, akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi və Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin birgə təşəbbüsü ilə reallaşıb.

Milli Oftalmologiya Mərkəzində keçirilən konfrans oftalmologiyanın aktual məsələləri, yeni diaqnostika və müalicə metodlarının təhlili, eyni zamanda, gələcək hədəflərin müəyyən edilməsi məqsədi daşıyıb.

Tədbirdə Türk Oftalmoloji Dərnəyinin fəxri prezidenti Sunay Duman, Milli Oftalmologiya Mərkəzinin direktor müavini tibb elmləri doktoru, dosent Hicran Namazova, Türk Oftalmoloji Dərnəyinin rəhbəri professor Hüban Atilla məruzələrlə çıxış ediblər.

*XQ*

---

# Azərbaycanda peşə oftalmologiyasının banisi

**Qaradağ Rayon İcra Hakimiyyəti Azərbaycanın görkəmli oftalmoloqu, tanınmış elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümünə həsr olunmuş dəyirmi masa təşkil edib. Mərasimdə rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov Zərifə xanım Əliyevanın həyat və elmi irsi haqqında ətraflı söz açıb, onun Azərbaycan tibb elminə verdiyi töhfələrdən danışıb.**

Milli Oftalmologiya Mərkəzinin elmi-məlumat və təşkilati-metodik bölməsinin müdiri, Oftalmoloqlar Cəmiyyətinin sədr müavini, tibb elmləri doktoru Yazgül Abdıyeva unudulmaz akademik haqqında “Zirvələrə yüksələn zərif insan ömrü” təqdimatı ilə çıxış edib. O, Zərifə xanımın elmi yaradıcılığı, oftalmologiya sahəsində apardığı tədqiqatlardan söz açıb, eləcə də onun Azərbaycanda peşə patologiyası və tibbi deontologiya üzrə elmi məktəbin formalaşmasındakı əvəzsiz rolunu diqqətə çatdırıb.

Mərasim iştirakçıları bildiriblər ki, Zərifə Əliyevanın əsasını qoyduğu “Peşə oftalmologiyası” sahəsindəki elmi fəaliyyətlər uğurla davam etdirilir və bu yanaşmanı tibb müəssisəsinin bütün alimləri mənimsəyərək elmi-praktik təşəbbüslərdə, o cümlədən neft emalı zavodunda aparılan tədqiqatlarda tətbiq ediblər.

Dəyirmi masada Milli Oftalmologiya Mərkəzinin direktor müavini Ceyhun Nəzərli, tibb üzrə fəlsəfə doktorları Mirana Mirişova, Sona İbrahimova, Nuranə Nuriyeva, həkimlər Leyla Əliyeva, Elçin Həsənov və Natəvan Əliyeva Zərifə xanımın elmi irsi və insanlıq keyfiyyətləri ilə bağlı fikirlərini bölüşüblər.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Qlobal Cənub QHT Platforması təsis olundu





(əvvəli 1-ci səhifədə)

Tədbirdə çıxış edən SMACHS Fondunun təsisçisi və baş direktoru, Keniya Prezidentinin qızı **Charlene Ruto** bildirib ki, Azərbaycan iqlim dəyişmələri ilə mübarizədə və dayanıqlı inkişaf məqsədləri istiqamətində öz səylərini ortaya qoyub. "Qlobal Cənubun gücünün artırılması mühümdür. Qarşılaşdığımız çağırışlar bizə ciddi təsir göstərir. Biz bir məqsəd ətrafında birləşməli, tərəqqiyə çatmaq üçün məsuliyyətimizin fərqində olmalıyıq. Birlikdə müqavimətimizi gücləndirməliyik", – deyə Charlene Ruto vurğulayıb.

Azərbaycan Respublikasının QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru **Aygün Əliyeva** deyib ki, forum 700-dən çox təşkilatı birləşdirir, iqtisadi, siyasi və sosial məsələlərin müzakirəsi üçün ideal bir platforma yaradır: "Təəssüf ki, Cənubda yaşayan ölkələrin böyük bir qismi hələ də müstəmləkəçilik və yoxsulluq kimi çətinliklərlə qarşı-qarşıyadır. Azərbaycan isə daim dayanıqlı inkişafa öz layiqli töhfəsini verir. Bu halların qarşısının alınması üçün ölkəmiz bütün sahələrdə həmin dövlətlərin yanında olub, bir sıra beynəlxalq təşəbbüsləri QHT-lərlə birgə həyata keçirib.

UNDESA-nın İqtisadi və Sosial Məsələlər Departamenti və QHT Şöbəsinin rəisi **Wook-Jin Chang** Azərbaycanın evsahibliyi etdiyi forumun yalnız danışmaq üçün deyil, həm də dinləmək və yeni məlumatlar öyrənməyə xidmət etdiyini söyləyib. O qeyd edib ki, Qlobal Cənub təşəbbüsü, sadəcə, nəzəri ideya olmaqla kifayətlənməməlidir. "İnkişaf etmiş ölkələr texnologiyalarını və təcrübələrini paylaşmaqla qlobal ədalətin bərqərar olmasına real töhfə verə bilərlər. İcmalar arasında sıx əməkdaşlıq və ictimai bərabərlik bizi daha da güclü və müstəsna tərəfdaş edir. Forumun yüksək səviyyədə keçiriləcəyinə tam inanıram", – deyə forum iştirakçısı əlavə edib.

BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi **Vladanka Andreyevanın** sözlərinə görə isə, təcrid edilmiş səslərin Qlobal Cənub çərçivəsində ucaldılması olduqca vacibdir. Əsas dəyişikliyin gücü bizim birləşmək qabiliyyətimizdədir. Müxtəlif sektorlar və sahələr arasında əməkdaşlıq bu baxımdan xüsusi əhəmiyyət daşıyır. O qeyd edib ki, müxtəlif ölkələrin bir araya gəlməsi, iqlim maliyyələşməsi, adaptasiya və birgə həll yolları faydalı və səmərəli tərəqqiyə yol açır.

Ekvadorun keçmiş xarici işlər naziri və UNITAR-in prezidenti **Luis Gallegos** Qlb l Cənub QHT Forumunun əməkdaşlığın gücləndirilməsinə töhfə verəcəyini diqqətə çatdırıb. Qeyd edib ki, biz xalqlarımız arasında əməkdaşlığı artırmalıyıq. Cənub-Cənub arasında əməkdaşlığa xüsusilə ehtiyac olduğunu deyən L.Gallegos qeyd edib ki, dünya hər gün yeni çağırışlarla üzləşir və biz yeni pandemiyalara hazır olmalıyıq.

Böyük Britaniyanın "Loughborough" Universitetinin Diplomatiya və Beynəlxalq İdarəetmə Akademiyasının direktoru, akademik **Nabil Ayad** nəzərə çatdırıb ki, QHT-lər qlobal dəyişikliklərə nəzarət baxımından dövlətlərin milli maraqlarının keşiyində dayanan mühüm qurumlardır. QHT-lər, xüsusilə, iqlim tədbirlərinin irəlilədilməsində əsas güc kimi qəbul olunmalıdırlar. O qeyd edib ki, Bakıda keçirilən "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı Forum vasitəsilə Azərbaycan bu istiqamətdə yüksək töhfələr verir.

Braziliyanın Beynəlxalq Münasibətlər üzrə Tədqiqat İnstitutunun direktoru, professo **Almir Lima Nascimento** deyib ki, yaradılan yeni Qlobal Cənub QHT Platforması regional və qlobal çətinlikləri təşəbbüslərlə həll etməyə yönələcək. O bildirib ki, hazırda sosial və iqtisadi sahələrdə bir çox problemlərlə üz-üzəyik. Bu platforma, Qlobal Cənub çərçivəsində vahid cəbhə olaraq ədalətsizliyə, yoxsulluğa və iqlim dəyişikliyi kimi digər qlobal çağırışlara qarşı birgə mübarizəni vacib edir. Yeni şəbəkənin əhəmiyyəti, üzv dövlətlər arasında qarşılıqlı əməkdaşlıqdan asılıdır və bütün şəbəkə üzvləri bundan faydalanmalıdır.






Özbəkistan parlament komitəsinin, "Yüksəliş" hərəkatının sədri **Bobur Bekmurodovun** fikrincə, QHT-lərin dünyadakı rolu yalnız sosial layihələrdə deyil, həm də sağlam dialoqun təşviqində və sülhü təmin etməkdə mühüm əhəmiyyətə malikdir. O qeyd edib ki, Özbəkistanda da bu sahədə böyük layihələr həyata keçirilir və QHT-lərin sayı son illərdə iki dəfə artıb. Onun sözlərinə görə, bu forumun məhz Bakıda keçirilməsi Azərbaycan Prezidenti İlham Əliyevin dayanıqlı inkişafa verdiyi dəstəyin sübutudur. Azərbaycan Prezidentinin bu sahədə nümayiş etdirdiyi liderlik və irəli sürdüyü təşəbbüslər digər ölkələr üçün də nümunə olmalıdır.

Forumda çıxış edən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri **Ramil İskəndərli** bildirib ki, Azərbaycanın Qlobal Cənubun səsini dünyaya çatdırmaq uğrunda atdığı addımlar olduqca qürurvericidir. Çünki hazırda hər kəs dünyada baş verən mühüm dəyişikliklərin canlı şahididir. O qeyd edib ki, Bakıda keçirilən bu forumun əsas məqsədi qlobal arenada səsimizi daha güclü şəkildə eşitdirmək və bizi narahat edən məqamları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır.

***

Açılış mərasimindən sonra forum "Yerli fəaliyyət, qlobal dəyişiklik: Qlobal cənubda iqlimlə mübarizə aparan QHT-lər" adlı panel iclası ilə işini davam etdirib.

İclasda çıxış edən Pan-Afrika İqlim Ədaləti Alyansının nümayəndəsi **Charles Peter Mwangi Nyambura** deyib ki, Qlobal Cənub tarix boyu sistematik ədalətsizliyə və istismara məruz qalıb. Təəssüf ki, iqlim dəyişikliyi bu bərabərsizliyi daha da dərinləşdirib. Beynəlxalq münasibətlər səhnəsində isə Qlobal Cənuba yönəlik xüsusi bir yanaşma, ədalətli bir baxış hələ də tam formalaşmayıb. O qeyd edib ki, Qlobal Cənubun zəngin potensialı davamlı şəkildə istismar olunur. Əksər ölkələr bu bölgənin qarşılaşdığı çətinliklərin fərqindədirlər. Lakin real dəyişiklik üçün atılan addımlar hələ də kifayət etmir.

Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi **Muxtar Babayev** bildirib ki, ölkəmizin evsahibliyi etdiyi COP29 konfransı, ölkəmiz üçün böyük uğur hekayəsidir. Bu, yalnız bizim üçün deyil, dünya miqyasında iqlim dəyişikliyi ilə mübarizənin gücləndirilməsi baxımından da mühüm addım oldu. "Azərbaycanın COP29-da əsas prioritetlərindən biri inklüzivlik və şəffaflıq idi. Biz bütün vətəndaş cəmiyyətlərini, xüsusilə QHT-ləri bu prosesə cəlb etmək istədik və sevinirik ki, bu məsələdə tərəfdaşlarımız bizə dəstək verdilər. Cəmiyyətin hər təbəqəsinin səsini eşitmək və onları bu mübarizəyə qatmaq bizim üçün həyati əhəmiyyət kəsb edirdi. COP29-da digər bir məqsədimiz isə Cənub ilə Şimal regionları arasında körpü qurmaq olub", – deyə M.Babayev vurğulayıb.

COP29-un İqlim Dəyişmələri üzrə Yüksəksəviyyəli Çempionu **Nigar Arpadarainin** sözlərinə görə, qlobal iştirak təmin edilmədən qlobal gündəlik öz mahiyyətini itirir. COP kimi təşəbbüslər bu şəraitdə son dərəcə vacibdir. Ortaq və praktiki mexanizmlər yaradılmalı, konkret icra mexanizmləri ilə təmin edilməlidir. Azərbaycanın COP29 çərçivəsində ədalətli mövqe nümayiş etdirdiyini xatırladan Nigar Arpadarai əlavə edib: "Biz əldə etdiyimiz nəticələrdən dərs çıxarmalıyıq. Azərbaycan hər zaman həmrəyliyin tərəfində olub. Biz Qlobal Cənubun səsini ucaltmağa və Qlobal Şimalla dialoqa çalışmışıq".

Panel iclasında çıxış edən "Elm və Texnologiya üçün Bir kəmər, bir yol Alyansı"nın baş katibinin müavini, professor **Renying Li** deyib ki, bu il Çin karbonyönümlü mənbələrin həcminin azaldılması ilə bağlı əhəmiyyətli tərəqqiyə nail olub: "Bu sahədə əldə etdiyimiz təcrübəni dünya ilə paylaşmaq və qlobal səviyyədə fəal iştirak etmək niyyətindəyik. Çin gələcəkdə karbondan azad olan iqtisadiyyatı inkişaf etdirmək və bu məqsədə doğru irəliləmək istəyir. Azərbaycan ilə dostluq əlaqələrimizin daha da inkişaf edəcəyinə, qarşılıqlı əməkdaşlığımızın daha da möhkəmlənəcəyinə əminik. Bu yolda biz səylərimizi birləşdirməliyik".

Qazaxıstanın Mədəniyyət və İnformasiya Nazirliyinin Vətəndaş Cəmiyyəti Məsələləri Komitəsinin sədri **Gülbara Sultanova** bildirib ki, qeyri-hökumət təşkilatları aşağı həyat keyfiyyəti, iqlim dəyişikliyi, rəqəmsal bərabərsizlik və qeyri-ədalətli ticarət də daxil olmaqla bir çox müasir problemlərin həllinə töhfə verə bilərlər. O qeyd edib ki, əməkdaşlığı daha da gücləndirməklə biz qlobal problemləri birlikdə həll edə bilərik.

Birləşmiş Millətlər Universitetinin (UPEACE) Vyana və Cenevrədəki BMT ofisləri yanında səfiri **David Fernandez Puyana** diqqətə çatdırıb ki, Cənubi Qafqaz daim dəyişikliklərdən keçir. Günümüzdə bu region güclü və ilhamverici bir sülh prosesinə doğru irəliləyir. Səfir qeyd edib ki, Qlobal Cənub və Qlobal Şimalın qovuşuğunda yerləşən Azərbaycan həmrəyliyin və əməkdaşlığın həyata keçirilməsində öncül rol oynayır.

Panel iclasda xidmətlərə çıxışın yalnız fiziki baryerlərin aradan qaldırılması ilə məhdudlaşmadığı, eyni zamanda, informasiya, təhsil, səhiyyə və hüquqi müdafiə sahələrində tam iştirak imkanlarının təmin edilməsinin vacibliyi qeyd olundu. Xüsusi işarə dili xidmətlərinin göstərilməsi və əlilliyi olan şəxslər üçün uyğunlaşdırılmış avadanlıq və kommunikasiya vasitələrinin təmin olunmasının cəmiyyətə bərabər qoşulma baxımından önəmi xüsusi vurğulandı.

Sonda Qlobal Cənub QHT Platformasının mərkəzi qərargahının Bakıda yerləşməsi qərara alınıb. Azərbaycan 1 il müddətinə Platformaya sədrlik edəcək. Eyni zamanda, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli Qlobal Cənub QHT Platformasının müvəqqəti Baş katibi seçilib. 2026-cı ildə isə Platformanın Baş Assambleyasının keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Forum aprelin 29-da başa çatacaq.

***XQ***



## Leyla Əliyevanın Nepal Prezidenti ilə görüşü



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Katmanduya səfəri zamanı Nepalın Prezidenti Ramçandra Paudel ilə görüşüb.**

Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Nepalın Prezidentinə çatdıran Leyla Əliyeva iki ölkə arasında dostluq münasibətlərinin önəmini bir daha vurğulayıb.

COP29 zamanı Bakıya səfər etdiyini xatırladan Prezident Ramçandra Paudel Azərbaycan Prezidenti İlham Əliyev ilə görüşünün tarixi əhəmiyyətini qeyd edib və aparılan müzakirələrin ölkələrarası əlaqələrin inkişafına təkan verəcəyini bildirib.

Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Nepalda bir sıra layihələrin icrasının nəzərdə tutulduğunu, səfər çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi, eləcə də Katmanduda şəhər xəstəxanasına ziyarət edildiyini bildirib.

Heydər Əliyev Fondunun Nepalda dəstək layihələrinin, eyni zamanda, sosial və səhiyyə sahələrini əhatə edəcəyi diqqətə çatdırılıb.

Görüşdə mövcud əlaqələrin müxtəlif sahələri, o cümlədən humanitar və iqlim dəyişmələri, davamlı inkişaf məsələlərini əhatə etməsinin vacibliyi vurğulanıb.

Prezident Ramçandra Paudel Azərbaycan və Nepal arasında əlaqələri, o cümlədən Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək, göstərilən dəstəyə görə təşəkkürünü bildirib.

***XQ***

## Leyla Əliyeva Beynəlxalq Opera Festivalında



**II Beynəlxalq Opera Festivalının altıncı günündə Azərbaycanın Xalq artisti Fidan Hacıyevanın "Arzu" adlı solo konserti olub. Opera müğənnisi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın şeirləri və bəstəkar Eldar Həsənovun musiqisi əsasında hazırlanmış əsərləri ifa edib.**



"Sənət" Uşaq Musiqi və İncəsənət Mərkəzində keçirilən konsertdə şeirlərin müəllifi Leyla Əliyeva iştirak edib.

Vokal əsərləri balet artistlərinin iştirakı ilə xoreoqrafik nömrələrlə müşayiət olunub. Konsertdə "Səni niyə belə sevirəm", "Bir söz söylə", "Payız", "Yay gecəsində", "Arzu", "Sehrli qala" şeirləri və müəllifin digər əsərləri əsasında romanslar səsləndirilib.

Fidan Hacıyevanın II Beynəlxalq Opera Festivalı aprelin 23-dən 29-dək Bakıda keçirilir. Yeddi gün ərzində paytaxtın müxtəlif məkanlarında tanınmış azərbaycanlı və xarici ifaçıların, gənc opera müğənnilərinin, eləcə də 6–16 yaş arası istedadların iştirakı ilə konsertlər təşkil olunur.

***XQ***

# Qlobal Şimal və Qlobal Cənub arasında etimad körpüsü

**Bu gün Azərbaycanın üzərinə götürdüyü missiya, sadəcə olaraq, regional deyil, həm də qlobal əhəmiyyət daşıyır. İqtisadi və siyasi transformasiya, beynəlxalq hüquqa hörmət, diplomatik təşəbbüskarlıq və tarixi təcrübənin verdiyi empatiya Azərbaycanı Qlobal Şimal və Qlobal Cənub arasında bərabərlik və dialoq körpüsünün aparıcı memarlarından birinə çevirir. Bu körpünün qurulması isə Azərbaycanın və bütün beynəlxalq ictimaiyyətin daha ədalətli, davamlı və sülhsevər bir gələcəyinin təminatı üçün həyati əhəmiyyət daşıyır.**




## Bərabərsizliklər və etimadsızlığın kökü

Son illər beynəlxalq münasibətlər sistemində qlobal parçalanmaların və qeyri-bərabər inkişaf tendensiyalarının daha da kəskinləşdiyi bir dövrdə Azərbaycan öz fəal diplomatiyası ilə yeni bir missiyanı üzərinə götürməkdədir: Qlobal Şimal və Qlobal Cənub arasında etimadın və dialoqun qurulması.

Azərbaycan Prezidenti İlham Əliyevin Qlobal Cənub QHT Platformasının təsis konfransına ünvanladığı müraciət bu istiqamətdə açıq və prinsipial bir siyasi mövqeyi ortaya qoydu. Prezidentin sözləri ilə desək, "ən böyük maneə Qlobal Cənub və Qlobal Şimal arasında illər ərzində formalaşmış etimadsızlıqdır." Məhz bu etimadsızlıq beynəlxalq sistemdə daha inklüziv və ədalətli bir düzənin qurulmasına qarşı ən ciddi əngəl olaraq qalır.

Qlobal Şimal və Qlobal Cənub anlayışları coğrafi bölgüləri təsvir edən terminlər deyil; onlar dünyadakı iqtisadi gücün, siyasi nüfuzun və sosial rifahın kəskin şəkildə bölündüyü bir beynəlxalq reallığı ifadə edir və dünya düzənindəki struktur qeyri-bərabərlikləri və tarixi ədalətsizlikləri simvolizə edir.

Tarixən Qlobal Şimal ölkələri – ABŞ, Qərbi Avropa dövlətləri, Kanada, Yaponiya və sonradan inkişaf etmiş bəzi digər ölkələr – sənaye inqilabından başlayaraq texnoloji innovasiya, iqtisadi kapital yığımı və siyasi-hərbi güc sahəsində üstünlük əldə etmişlər. Onlar qlobal ticarət şəbəkələrini qurmuş, beynəlxalq hüququ və institutları öz maraqlarına uyğun şəkildə formalaşdırmış, resursların və zənginliyin böyük hissəsini öz əllərində cəmləmişlər.

Əksinə, Qlobal Cənub adlandırılan Afrika, Latın Amerikası, Asiya və Sakit okean ölkələrinin əksəriyyəti uzun müddət müstəmləkəçiliyin, iqtisadi istismarın və siyasi asılılığın təsiri altında olmuşdur. Bu bölgələrin dövlətləri yalnız XX əsrin ortalarında müstəqillik əldə etsələr də, post-kolonial dövrdə də struktur asılılıqdan tam azad ola bilməmişlər. Qlobal iqtisadi sistemdə onların rolu uzun müddət xammal təminatçısı və istehlak bazarı olmaqla məhdudlaşmışdır.

Siyasi nəzəriyyələr çərçivəsində bu vəziyyət "struktur qeyri-bərabərlik" və "institusional ayrı-seçkilik" anlayışları ilə izah edilir. Struktur qeyri-bərabərlik dedikdə nələr nəzərdə tutulur? Məlum olduğu kimi, beynəlxalq iqtisadi və siyasi sistem elə qurulub ki, inkişaf etmiş ölkələr öz üstün mövqelərini qorumaq üçün sistemli şəkildə mexanizmlərdən istifadə edirlər. Beynəlxalq valyuta sistemi, ticarət qaydaları, texnologiyaya çıxış imkanları və hətta beynəlxalq informasiya axınları bu üstünlüyün qorunmasına xidmət edir.

Bu gün də beynəlxalq təşkilatlarda – məsələn, BMT Təhlükəsizlik Şurası, Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı kimi qurumlarda – qərarvermə mexanizmləri Qlobal Şimal ölkələrinin maraqlarına daha çox xidmət edir. BMT Təhlükəsizlik Şurasında veto hüququ yalnız beş daimi üzv dövlətə (onlar da Qlobal Şimalı təmsil edirlər) məxsusdur. BVF və Dünya Bankında isə səsvermə hüquqları ölkələrin iqtisadi çəkisinə əsaslanır və nəticədə inkişaf etmiş ölkələrin dominantlığı təmin edilir.

Qlobal çağırışlar – iqlim dəyişikliyi, ərzaq və su təhlükəsizliyi, borc böhranı, texnoloji bərabərsizlik – ən ağır formada məhz Qlobal Cənub ölkələrini vurur. İqlim dəyişikliyinin ən kəskin təsirləri də bu bölgələrdə yaşanır. Halbuki, karbon emissiyalarının əsas məsuliyyəti inkişaf etmiş sənayeləşmiş dövlətlərin üzərindədir. Paradoks ondadır ki, Qlobal Cənub problemlərin əsas qurbanı olsa da, bu məsələlərin qlobal həllində təsir imkanları və danışıqlardakı çəkisi olduqca zəifdir.

Nəticədə, beynəlxalq münasibətlər sistemində yaranan dərin disbalans yalnız iqtisadi və siyasi sahələrlə məhdudlaşmır; bu disbalans etimadsızlıq, məyusluq və qlobal idarəetmə institutlarına qarşı inamsızlıq kimi sosial və psixoloji nəticələr doğurur. Belə bir şəraitdə Qlobal Cənub ölkələrinin daha bərabər və ədalətli sistem tələbi getdikcə daha güclü və daha legitim olur.

Bu fon qarşısında Qlobal Şimal və Qlobal Cənub arasında yeni bir etimad quruculuğu prosesinə ehtiyac yaranır. İnkişaf etməkdə olan ölkələrin beynəlxalq sistemdə daha fəal və təsirli rola sahib olması üçün həm normativ yanaşmanın (beynəlxalq hüququn, ədalət prinsipinin təkmilləşdirilməsi), həm də struktur islahatlarının (məsələn, beynəlxalq təşkilatlarda təmsilçiliyin artırılması) həyata keçirilməsi vacibdir.

## Azərbaycanın körpü rolunda unikal mövqeyi

Prezident İlham Əliyevin müraciətində vurğuladığı kimi, "biz bu disbalansı aradan qaldırmaq məqsədilə Qlobal Cənub ilə Qlobal Şimal arasında körpü rolunu öz üzərimizə götürərək etimad quruculuğu işinə yeni töhfələr vermək əzmindəyik." Prezidentin bəyanatı Azərbaycanın beynəlxalq sistemdəki artan rolunu və məsuliyyətini ifadə etməklə yanaşı, onun tarixi, siyasi və diplomatik təcrübəsinə söykənən obyektiv reallığa əsaslanır.

Azərbaycanın bu rolu mənimsəməsi təsadüfi deyil. Müstəqillik qazandıqdan sonra ölkə dərin və çoxşaxəli transformasiya mərhələsindən keçmişdir. Planlı iqtisadiyyatın iflasından sonra bazar iqtisadiyyatına keçid, enerji strategiyasında şaxələndirmə və regional əməkdaşlıq təşəbbüsləri Azərbaycanın beynəlxalq nüfuzunu artırmışdır. Əldə olunmuş təcrübə onu inkişaf etməkdə olan ölkələr üçün həm nümunə, həm də tərəfdaş qismində təqdim edir. Azərbaycan bir tərəfdən zəngin təbii ehtiyatlardan səmərəli istifadə nümunəsini göstərmiş, digər tərəfdən isə qeyri-neft sektorunun inkişafı ilə iqtisadi şaxələndirmənin vacibliyini ortaya qoymuşdur.

44 günlük Vətən müharibəsində Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə istinad edərək ərazi bütövlüyünü bərpa etməsi isə xüsusilə Qlobal Cənub ölkələri üçün mühüm bir presedent yaratdı. Müstəmləkəçilikdən çıxmış, ərazi mübahisələri və suverenlik pozuntuları ilə qarşılaşan dövlətlər üçün Azərbaycanın uğuru beynəlxalq hüququn yalnız nəzəri bir konsept deyil, reallıqda tətbiq oluna və nəticə verə bilən bir mexanizm olduğunu nümayiş etdirdi.

Azərbaycanın xarici siyasəti də bu körpü rolunu daha da gücləndirir. Dövlətin beynəlxalq hüququn əsas prinsiplərinə – suverenlik, daxili işlərə qarışmama və münaqişələrin sülh yolu ilə həlli kimi prinsiplərə ciddi sadiqliyi onu Qlobal Cənub ölkələrinin beynəlxalq sistemdəki ədalət və bərabərlik tələbləri ilə eyni müstəviyə gətirir. Azərbaycan beynəlxalq arenada tərəf saxlamayan, ədalətə əsaslanan bir siyasət yürütməklə etimad qazanan azsaylı ölkələrdən biri kimi çıxış edir.

Diplomatik fəallığı da Azərbaycanın bu missiyasının mühüm dayağıdır. Qoşulmama Hərəkatına uğurlu sədrliyi və bu çərçivədə inkişaf etməkdə olan ölkələrin maraqlarının müdafiəsi Azərbaycanın qlobal səviyyədə etibarlı və söz sahibi bir dövlət kimi qəbulunu təmin etmişdir. Azərbaycanın 2024-cü ildə COP29-a evsahibliyi etməsi isə qlobal ekoloji çağırışlar fonunda Qlobal Cənubun səslərinin daha güclü eşidilməsinə xidmət edəcək və dövlətimizin inklüziv diplomatiyasının təzahürü olacaqdır.

Bu rolun formalaşmasında Azərbaycanın tarixi və sosial təcrübələri də əhəmiyyətli yer tutur. Öz tarixində müharibə, məcburi köçkünlük, iqtisadi çətinliklər və regional münaqişələr yaşamış bir ölkə kimi Azərbaycan Qlobal Cənubun qarşılaşdığı problemləri sadəcə nəzəri deyil, praktiki və insani səviyyədə dərk edir və bu empatiya dövlətimizin beynəlxalq münasibətlərdə daha anlayışlı, daha çevik və daha ədalətli mövqe tutmasına imkan verir.

Beləliklə, Azərbaycan yalnız coğrafi mövqeyi ilə deyil, həm də tarixi təcrübəsi, siyasi iradəsi və diplomatik fəallığı ilə Qlobal Şimal və Qlobal Cənub arasında körpü rolunda etibarlı və mühüm bir aktor kimi çıxış edir. Sözügedən mövqe çağdaş beynəlxalq münasibətlərdə struktur dəyişikliklərinə ehtiyac duyulduğu bir zamanda Azərbaycanın strateji əhəmiyyətini daha da artırır.

Qlobal miqyasda gedən siyasi, iqtisadi və sosial transformasiya prosesləri mövcud beynəlxalq sistemin struktur problemlərini daha aydın şəkildə üzə çıxarmaqdadır. Müasir çağırışlar – iqlim dəyişikliyindən iqtisadi qeyri-bərabərliyə, regional münaqişələrdən qlobal idarəetmənin legitimlik böhranına qədər – beynəlxalq münasibətlərdə daha ədalətli, inklüziv və nümayəndəliyin təmin olunduğu yeni bir düzənə ehtiyacın təcili olduğunu göstərir. Belə bir dünya nizamının formalaşması isə Qlobal Şimal və Qlobal Cənub arasında tarixi qeyri-bərabərlikdən doğan etimadsızlığın aradan qaldırılmasını zəruri edir.

Belə mürəkkəb və ziddiyyətli prosesdə Azərbaycanın oynadığı rol diqqətəlayiqdir. Azərbaycanın təşəbbüsləri və fəallığı göstərir ki, inkişaf etməkdə olan ölkələrin təcrübəsi, yaşadıqları tarixi çətinliklər və əldə etdikləri uğurlar artıq beynəlxalq sistemdə mərkəzi bir yer tutmağa başlayır. Azərbaycan sadəcə olaraq, sözlə deyil, konkret fəaliyyət və təşəbbüslərlə — siyasi platformalar yaratmaq, inklüziv dialoqlara ev sahibliyi etmək, inkişaf etməkdə olan ölkələrin maraqlarını beynəlxalq gündəmin mərkəzinə çıxarmaqla – etimad quruculuğunda real töhfə verir.



Prezident İlham Əliyevin "Azərbaycan az inkişaf etmiş, inkişaf etməkdə olan ölkələrin və bütövlükdə, Qlobal Cənubun üzləşdiyi problemləri dərindən dərk edir" fikri isə bu fəaliyyətlərin arxasındakı strateji fəlsəfəni açıq şəkildə ortaya qoyur. Azərbaycan, tarixdən gələn təcrübəsi və keçdiyi inkişaf yolu ilə bu ölkələrin problemlərini yalnız nəzəri planda deyil, praktiki səviyyədə də anlayır. Azərbaycanın Qlobal Şimal və Qlobal Cənub arasında körpü rolu süni deyil, təbii və legitim bir mövqeyə çevrilir.

Azərbaycanın təşəbbüsləri yeni dünya nizamı ideyasının reallaşmasına real dəstək verir və belə təşəbbüslər həm beynəlxalq hüququn üstünlüyünü bərpa etməyə, həm də qlobal idarəetmədə səsvermə və təmsilçilik prinsiplərini yenidən qurmağa yönəlib. İnkişaf etməkdə olan ölkələrin səsini gücləndirmək, onların real ehtiyaclarını beynəlxalq gündəmdə prioritetə çevirmək Azərbaycanın diplomatik strategiyasının əsas xəttini təşkil edir.

Nəticə etibarilə, Azərbaycan yalnız öz milli maraqlarını qorumaqla kifayətlənmir; o, beynəlxalq sistemdəki struktur ədalətsizliklərlə mübarizə aparan daha geniş bir qlobal cəbhənin fəal üzvünə çevrilir. Azərbaycanın mövqeyi, gələcəyin daha ədalətli və davamlı beynəlxalq nizamının inşasında strateji bir aktor kimi rolu getdikcə daha da güclənir.

*Şəbnəm ZEYNALOVA,*
*Azərbaycan Turizm və Menecment Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Makron və korrupsiyaya uğramış komandası

(əvvəli 1-ci səhifədə)

Onu da qeyd edək ki, korrupsiya problemi təkcə hakimiyyətin ən yüksək eşelonları ilə məhdudlaşmır. Eyni zamanda, korrupsiya bütün səviyyələrdə dövlət qulluqçularına təsir edir, onları cinayətə sürükləyir. Xüsusilə, ödənişli xidmət qarşılığında rüşvət tələb etmə adi hal alıb. Fransa liderinin şəxsi təhlükəsizliyinin keçmiş rəhbərinin rüşvətxorluqda ittiham edilməsi də bu zəncirin bir halqasıdır. Belə ki, uzun sürən prosedurdan sonra İnterpolun Baş Katibliyi Fransa prezidenti Emmanuel Makronun şəxsi təhlükəsizliyinin keçmiş rəhbəri Aleksandr Benallanın beynəlxalq axtarışa verilməsinə qərar verib. 2025-ci ilin aprel ayında "Red Notice" ("Qırmızı Bülleten") ilə beynəlxalq axtarışa daxil edib və bu barədə bütün üzv dövlətlərə bildirişlər göndərib. Bu qərarın qəbul edilməsinə əsas kimi 2024-cü ildə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılan cinayət işi çərçivəsində göndərilmiş hüquqi sorğu göstərilib.

Məlum olduğu kimi, Fransa prezidentinin mühafizə xidmətinin keçmiş rəhbəri Aleksandr Benalla və "Saur" şirkətinin vitse-prezidenti Anass Derraz (hazırda Azərbaycandadır, məsuliyyətə cəlb olunub) 2018-ci ildə Azərbaycan əsilli rusiyalı milyarder Fərhad Əhmədovun aktivlərinə qarşı beynəlxalq sanksiyaların ləğvi qarşılığında külli miqdarda rüşvət alma və başqa cinayətlər törətməkdə ittiham olunurlar.

Həmin iş üzrə əvvəllər xarici və yerli mətbuatda dərc edilmiş məqalələrdə qeyd olunur ki, Fransa rəsmiləri rüşvət müqabilində Fərhad Əhmədovun dəbdəbəli "Luna" yaxtasının beynəlxalq həbsdən azad ediləcəyi, özünün isə sanksiyalardan qorunacağı vəd edilib. Bundan sonra Aleksandr Benalla və Anass Derrazın hesablarına külli miqdarda vəsait köçürülüb. Beynəlxalq araşdırmaları ilə tanınan "Observer Online" nəşri rüşvətin köçürülməsini təsdiq edən sənədlərlə birlikdə dərc etdiyi məqalədə deyilir: "Bir müddət əvvəl Britaniya mətbuatında qalmaqallı məqalə dərc olunub. Bu məqalədə bildirilir ki, Azərbaycan xüsusi xidmət orqanları 6 milyon 140 min ABŞ dolları məbləğində rüşvət tələb etmə faktı ilə bağlı cinayət işi açıb. Rüşvəti isə Aleksandr Benalla və onunla əlbir olan Mərakeş əsilli Fransa vətəndaşı Anass Derraz tələb ediblər".

Məqaləyə əsasən, F.Əhmədov həmin pulun bir hissəsini A.Benallanın "Bank of Africa United Kingdom PLC SC PAR"ın Fransa filialında açılmış 2701000091503 nömrəli və A. Derrazın "Al Hilal Bank"da açılmış 024071984024 nömrəli bank hesablarına köçürüb.

Fransanın özündə bu məsələ ciddi səylə ört-basdır edilib. Ölkənin aidiyyəti qurumları daha çox beynəlxalq sanksiyada olan şəxslərdən rüşvət alınması mövzusunun ictimailəşməsinin doğuracağı nəticələrdən ehtiyatlanıb. Lakin faktla bağlı Azərbaycan dövlətinin təhlükəsizlik orqanında aparılan cinayət işi üzrə "Saur" şirkətinin vitse-prezidenti A.Derraz istintaqa cəlb olunub. O külli miqdarda rüşvət almaqda və başqa cinayətlər törətməkdə ittiham olunub və ölkədən çıxışına qadağa qoyulub. Hazırda Derraz ev dustağıdır A.Benallanın isə beynəlxalq axtarışa verilməsi ilə bağlı İnterpola müraciət olunub".

Məqalədə daha sonra bildirilir: "Redaksiyamızda rüşvətin həqiqətən də köçürülməsi barədə təsdiq var. Bizim ixtiyarımızda F.Əhmədov, A.Benalla və A.Derraz arasında imzalanmış "hüquqi xidmətlər haqqında" üçtərəfli müqavilə, həmçinin F.Əhmədovun hesabından Benalla və Derrazın hesablarına vəsaitlərin köçürülməsini təsdiq edən bank çıxarışları var. Bu sənədlər geniş auditoriyaya təqdim olunur".



Beləliklə, İnterpol Fransa prezidentinin mühafizə xidmətinin keçmiş rəhbəri A.Benallanı "Red Notice" ("Qırmızı Bülleten") əsasında beynəlxalq axtarışa verməsi DTX-nin əlində təkzibedilməz və mötəbər sübutların mövcudluğundan xəbər verir. "Qırmızı Bülleten" şəxsin olduğu ölkədə tutulmasını və barəsində axtarış elan etmiş ölkəyə ekstradisiyasını nəzərdə tutur.

Onu da qeyd edək ki, yaxın vaxtlarda Bakıda saxlanılan A.Derrazla bağlı aparılan cinayət işi üzrə açıq məhkəmə baxışının başlanacağı və açıqlanacaq beynəlxalq korrupsiya dəlillərinin əlavə qalmaqallar yaradacağı gözlənilir.

Makronun yaxın çevrəsinin rüşvət qalmaqalı bununla bitmir. Məsələ ondadır ki, bu şəxslər adları rüşvət əməllərində hallanan ilk adamlar deyillər. Dəfələrlə Makron komandasında təmsil olunan şəxslərin maliyyə fırıldaqları, korrupsiya əməlləri barədə xəbərlər mediada yayılır. Məsələn, onun yaxın adamı Riçard Ferrani Fransa dövlətinin ən yüksək inzibati orqanlarından biri olan Konstitusiya Şurasının rəhbəri təyin etməsi ölkədə burmanalı qarşılanmamışdı. Yada salaq ki, Ferran "Anticor" antikorrupsiya assosiasiyası "qanunsuz imtiyazlar əldə etməkdə" ittiham edilib. Düzdür, məhkəmə 2021-ci ildə ona bəraət verib, amma bu gün də Ferranın adı korrupsiya işi ilə birlikdə hallanır.

Makronun yüksək vəzifələrə təyinatlarla bağlı qızğın şəkildə təbliğ etdiyi "yeni dünya"sının üfunətdən boğulduğunu sübut edən digər dəlil isə ölkənin mədəniyyət naziri Raçida Dati və "Renault-Nissan" Alyansının keçmiş rəhbəri Karlos Qonu ilə bağlıdır. Fransada Milli Maliyyə Prokurorluğu hər iki şəxsi korrupsiya və vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham edərək, onlara qarşı cinayət işinin başlanmasını tələb etmişdi. Müstəntiqlərin fikrincə, 2010-cu ildən 2012-ci ilə qədər Dati "Renault-Nissan"ın hüquq məsləhətçisi və Avropa Parlamentinin üzvü vəzifəsində avtomobil alyansının törəmə müəssisəsindən 900 min avro alıb. Lakin o, bu pulun müqabilində heç bir konkret iş görməyib. Qon isə 2023-cü ildə beynəlxalq axtarışa verilsə də saxlanmayıb. Hazırda Livanda yaşayır. Dati və Qon prokurorun ittihamlarını rədd etsələr də "ləkəni" silmək gücündə deyillər.

Buna baxmayaraq, Raçida Dati 2024-cü il yanvarın 11-də Fransanın mədəniyyət naziri təyin edilib. 23 dekabr 2024-cü ildə Fransua Bayru yeni hökuməti quranda onu təkrar mədəniyyət naziri təyin edib.

Bayrunun özü də korrupsiya qalmaqallarının fəal iştirakçılarından biridir, Avropa Parlamentinin vəsaitlərindən sui-istifadə etməkdə ittiham olunub. Bu şəxs 2017-ci ildə Makronun hakimiyyətə gəlməsində əvəzsiz rol oynayıb, ali posta namizədliyini geri çəkib. Prezident də ona borclu qalmayıb, Bayru haqqında məhkəmədə bəraət qərarı çıxarılmasına nail olub.

Ümumiyyətlə, Makron hakimiyyətinin təməli korrupsiya və rüşvət üzərində qurulub. O, 2017-ci ildə seçki kampaniyasında maliyyə saxtakarlığı və həm də "Uber" şirkəti ilə gizli razılaşma ilə yadda qalıb. Bu da ölkədə ən böyük korrupsiya sisteminin qurulduğunu göstərir.

Göründüyü kimi, müxtəlif korrupsiya məsələlərində adı hallanan vəzifəli şəxslər məhz Makronun himayəsilə azadlığa çıxıblar. Bu hal Fransa prezidentinin korrupsiya hallarını müdafiə etməsi kimi dəyərləndirilir. İrimiqyaslı maliyyə maxinasiyaları, korrupsiya piramidasının başında birbaşa prezidentin durduğu təsdiqləyir. Bir daha aydın olur ki, Fransa dövlətinin hər zaman bayraq kimi dalğalandırdığı "demokratiya", "azad rəqabət mühiti", "azad bazar iqtisadiyyatı" və digər ideyalar sadəcə boş sözlər və şüarlardır, əməldə heç nə yoxdur. Ölkə isə rüşvətxorlar tərəfindən idarə edilir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Postmünaqişə mərhələsində uğurlu liderlik



III MƏQALƏ

### “Təcrübə”nin fəlsəfi anlamı

Fəlsəfədə “təcrübə” ümumi olaraq həyatda, işdə, peşə fəaliyyətində, tarixi və siyasi hadisələrdə qazanılan bilik kimi qəbul edilir. Başqa sözlə, “təcrübə subyektin şüuruna birbaşa ötürülən və dərk edilən reallıqla bilvasitə hissi kontaktla müşayiət olunan bilikdir”.

Fəlsəfə tarixində təcrübəyə fərqli izahlar verilmişdir. Onların hər birinin öz mənası vardır. İ.Kantın “təcrübə” anlayışına çox diqqət edirlər. Filosoflar yazırlar ki, Kantın fəlsəfi sistemində biliklə təcrübə üst-üstə düşür. Lakin Kantın “təcrübə”si adi təcrübə deyildir. Kanta görə, təcrübə hissi materialın apriori (təcrübədən öncə) təşkilolunma formalarının tətbiqi nəticəsində yaranır. Bundan başqa, Kant daxili və xarici təcrübələri ayırır və onların bir-birinə reduksiya edilməsinin mümkün olmadığını vurğulayır.

XX əsrə qədər təcrübənin fəlsəfi anlamı ilə bağlı çoxlu sayda fərqli ideyalar mövcud olmuşdur. Onlardan biri də siyasi təcrübədir.

### Siyasi mədəniyyət və siyasi təcrübə

Təcrübənin fəlsəfi dərkində ümumi olan məqamları sintez etsək, belə bir idraki mənzərə alırıq: Təcrübə bütöv və universal insan fəaliyyətinin növüdür. Bu zaman təcrübə sosial, tarixi, mədəni irsini (ənənəsini) müəyyən dərəcədə özündə ehtiva edir.

Təcrübənin bur cür anlamını siyasi təcrübəyə proyeksiya edirlər. Siyasi təcrübə bir tərəfdən, ümumiyyətlə, cəmiyyətdə ənənə, adət, norma və s. kimi çıxış edir. Eyni zamanda, onu ayrıca kateqoriya kimi də dərk edirlər.

Siyasi təcrübə “siyasi mədəniyyət” anlayışı kontekstində dərk edilir. Bu baxımdan siyasi təcrübə sosial və tarixi təcrübə ilə sintezdə siyasi mədəniyyəti formalaşdırır.

Bu keyfiyyətdə siyasi təcrübə sabit və stabil hal deyildir – dinamik prosesdir. Onun konkret məzmunu, feili müəyyənedici faktorları ilə yanaşı, məqsədyönlüyü də mövcuddur. Məqsədyönlülük artıq hər bir tarixi dönəmdə hədəfin, obrazın olması deməkdir. Bu hədəfin və obrazın müəyyən edilməsi krtiteriyası kimi isə alınan nəticələr çıxış edir.

Belə alınır ki, “siyasi mədəniyyət” anlayışının nəzəri obrazının başlıca formalaşma mexanizmi fəaliyyətin siyasi sferası ilə bağlıdır. Yəni siyasi təcrübə siyasi mədəniyyətin tərkib hissəsi statusunda fəaliyyətin ifadəçisidir. Siyasi fəaliyyət fəlsəfi kontekstdə siyasi təcrübədə özünü təsdiq edir, onun vasitəsilə zaman-məkan kontinuumunda reaktuallaşır.

“Siyasi mədəniyyət” anlaşıyını ilk dəfə elm tarixində alman filosofu-maarifçisi İ.Q.Herder işlətmişdir (1784-cü ildə). O, əsərində “siyasi mədəniyyətin yetkinliyi” və “siyasi mədəniyyətin daşıyıcıları” ifadələrini işlətmişdir. Lakin alman filosof siyasi mədəniyyətə elmi tərif verməmişdir.

Yalnız XX əsrin ikinci yarısında (1956-cı il) G.Almond belə bir cəhd göstərmişdir. Onun mövqeyinə görə, siyasi mədəniyyət bir çox sosial obyektlər və proseslərə olan istiqamətlərin cəmidir”. Bu yanaşmanı amerikalı mütəxəssis S.Verba inkişaf etdirmişdir. Onun tərifinə görə, siyasi mədəniyyət, birincisi, siyasətdə hadisələrlə fərdlərin davranışları arasında əlaqə yaradır, ikincisi, bu özəllik cəmiyyətin siyasi mədəniyyətə reaksiyasının göstəricisidir. Deməli, siyasi mədəniyyət üçün cəmiyyətin aparılan siyasəti necə görmələri və qəbul etmələri ciddi əhəmiyyət kəsb edir.

Sonrakı tədqiqatlarda “siyasi mədəniyyət” anlayışında davranış aspektini də nəzərə almaqdan bəhs edilmişdir. Polşalı tədqiqatçı E.Vyatr yazırdı ki, siyasi mədəniyyət anlayışına müəyyən “dayanıqlı davranış nümunələri” də daxil edilməlidir. Çünki davranış nümunələri (memləri) olmadan heç bir mədəniyyət sistemi mövcud ola bilməz.

Fəlsəfi detallara baş vurmadan onu vurğulayaq ki, XXI əsrdə siyasi mədəniyyətin araşdırılması daha da dərinləşmiş və genişlənmişdir. Həmin tədqiqatlarda XX əsrin ikinci yarısında aparılan araşdırmaların ümumi təhlili verilmişdir. Göstərilir ki, siyasi mədəniyyət özündə tarixi ənənə, ideologiyalar və mentallığı birləşdirir. Bundan başqa, siyasi mədəniyyət münaqişələrin həlli zamanı siyasi elitanın fəaliyyət istiqamətlərinin formalaşmasında əks olunur.

Beləliklə, XXI əsrdə siyasi mədəniyyətə institusional parametrlə yanaşı, qeyri-institusional xarakterli faktorların prizmasında baxılır. Bu o deməkdir ki, siyasi mədəniyyət fərdi ilə kolleket fəaliyyətin qarşılıqlı əlaqəsində meydana gələn özəl fəaliyyətlə bağlıdır.

Bundan başqa, siyasi mədəniyyət neqativ mənzərə də yarada bilər. Bu halda siyasi təcrübədən hansı mənalarda danışmaq olar? XXI əsrin geosiyasi dinamikası üçün məhz bu məqam ciddi fəlsəfi mahiyyət daşıyır. Onun aydınlaşması üçün XXI əsrdə siyasi təcrübə məsələsinin fəlsəfi və siyasi-nəzəri anlamlarına nəzər salaq .

### Müasir mərhələdə siyasi təcrübə

Öncə, indiki yüzil üçün xarakterik olan bir nəzəri məsələni vurğulayaq. XX əsrin tədqiqatlarında siyasi təcrübə həm ümumiyyətlə, siyasi mədəniyyətlə sinonim kimi işlədilmişdir, həm də o, siyasi mədəniyyətdən daha məhdud semantik sahədə təsəvvür edilmişdir. Birinci anlamda siyasi təcrübə, bütövlükdə, hər bir cəmiyyətdə və bəşəri miqyasda insan fəaliyyətinin tərkib hissəsi kimi mədəniyyət hadisəsi olaraq qəbul edilir.

Bu tezis əsaslıdır, lakin indi o anlamın politoloji yanaşma kimi kreativ gücü zəifdir. Demək olar ki, XXI əsrin mürəkkəb dinamikasında siyasi təcrübə–siyasi mədəniyyət formulu yaradıcı heç nə vermir, sadəcə konstatasiya edir, o, semantik fiksasiyadır. Başqa səbəblərlə yanaşı, həm də ona görə ki, XXI yüzili “mədəniyyət əsri”, “mədəniyyətlərin yarışı dönəmi” adlandırırlar. Bu baxımdan siyasi təcrübə avtomatik olaraq mədəniyyət sisteminin və o kontekstdə siyasi mədəniyyətin atributu kimi qəbul edilməlidir.

Eyni zamanda, indiki əsrin geosiyasi və siyasi-mədəni xarakteristikaları siyasi təcrübəni daha mürəkkəb struktur-funksional vahid kimi qəbul etməyi şərtləndirir. Bu baxımdan hazırda siyasi mədəniyyətlə siyasi təcrübənin qarşılıqlı münasibətlərinin yeni məna çalarlarından bəhs etmək lazım gəlir. Buna görədir ki, XX əsrin sonlarında filosoflar siyasi mədəniyyətlə siyasi təcrübənin münasibətlərinə iki aspektin sintezində baxmağı daha adekvat yanaşma kimi təqdim etmişlər. Onlar siyasi mədəniyyətin öncəki nəsillərin ənənə formasında təcrübəsinin yekunu olması və həm də yeni siyasi nəsil üçün hazır fəaliyyət şərtləri və qaydaları kimi dəyərlər və normaları hazırlaması dərkini daha əsaslı hesab edirlər.

Bir başqa yanaşmaya görə, siyasi mədəniyyət, siyasi təcrübənin cəm göstəricisidir, siyasi biliklərin və prioritetlərin keyfiyyətidir, siyasi subyektlərin davranış və funksionallaşma nümunələridir, cəmiyyətin siyasi həyatının obrazı və tərzinin inteqral xarakteristikasıdır.

Son illər tədqiqatçılar daha konkret səviyyədə mövzunu araşdırırlar. O sırada siyasi mədəniyyətin siyasi sistemin funksionallaşma mexanizmləri strukturunda tədqiqi diqqəti çəkir. Əsas problem kimi siyasi mədəniyyətin siyasi sistemin sabitliyinə təsiri məsələsinə baxılır.

### İlham Əliyev təcrübəsi

Beləliklə, siyasi mədəniyyət və siyasi təcrübənin XXI əsrin şərtləri daxilində fəlsəfi və politoloji müqayisəsi göstərir ki, onlar mürəkkəb münasibətlər sisteminə malikdirlər. Biz siyasi təcrübəni siyasi mədəniyyətin atributlarından biri kimi qəbul etməyi daha doğru sayırıq. Bu zaman siyasi təcrübə siyasi mədəniyyətin ümumi göəstəricisi kimi təsəvvür edilə bilər. O, siyasi subyektlərin davranış və funksional nümunəsi kimi də qəbul edilməlidir. Nəhayət, siyasi mədəniyyət toplumun siyasi həyatının inteqral xarakteristikasıdır.

Biz bu ümumi yanaşma çərçivəsində siyasi təcrübə kontekstində bir parametri də əlavə etməyi lazım bilirik. Konkret olaraq, siyasi mədəniyyətin inteqrativ funksiyası aspektində siyasi təcrübənin toplum və dövlət üçün müsbət nəticəverici olması əhəmiyyət kəsb edir. Bunun fonunda siyasi təcrübənin yuxarıda vurğulanan xüsusiyyətlərinə dövlət və cəmiyyət üçün qalıcı müsbət nəticənin alınması faktorunu əlavə etmək lazım gəlir.

Vurğuladığımız əlamətlərin qarşılıqlı əlaqəsi prizmasında Azərbaycan Prezidenti İlham Əliyevin siyasi liderlik təcrübəsinin fəlsəfi və politoloji dərkinə çalışmaq olar. Burada, ilk olaraq, bir mühüm məqamı qeyd edək. Məsələ onunla bağlıdır ki, Prezident İlham Əliyevin siyasi təcrübəsi dövlət başçısı və uğurlu liderin təcrübəsidir. Yəni bütün hallarda o, müsbət nəticəverici fəaliyyətin nəticəsidir. Bu o deməkdir ki, İlham Əliyevin liderlik təcrübəsi yeni uğurlu fəaliyyət nümunəsi kimi təhlil edilməlidir.

Bundan başqa, Prezident İlham Əliyevin liderlik nümunəsinin yeni parametrləri iki mərhələ üçün təhlil edilməlidir.

Birincisi, 2003-2020-ci illəri əhatə edən və münaqişənin mövcudluğu mərhələsi kimi təsnif oluna bilən fəaliyyət müddəti.

İkincisi, Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra faktiki olaraq postmünaqişə dövrü kimi qiymətləndirilən ikinci mərhələ. Bu müddətdə hələlik sülh müqaviləsi imzalanmasa da, onu faktiki olaraq münaqişənin bitməsi ilə xarakterizə olunan mərhələ adlandırırlar. Onun əsaslandırılması İlham Əliyevin liderlik fəaliyyəti sayəsində müharibə ehtimalının regionda sıfıra enməsi ilə bağlıdır. BMT-nin sənədlərində də göstərilir ki, münaqişədən sonrakı geosiyasi, siyasi və təhlükəsizlik durumu qalıcıdırsa, onu postmünaqişə mərhələsi adlandırmaq olar.

Deməli, Prezident İlham Əliyevin “Qarabağ münaqişəsi həll edilmişdir” fikri tam əsaslıdır. Onu da vurğulayaq ki, ATƏT-in Minsk qrupu, ümumiyyətlə, münaqişəni (müharibəni yox) həll etmək üçün yaradılmışdı. Buna görə də münaqişə bitdiyindən onun saxlanmasına qətiyyən ehtiyac yoxdur. Bu məqam da Prezident İlham Əliyevin postmünaqişə mərhələsində liderlik təcrübəsinin çox əhəmiyyətli çalarlarından biridir.

Bütün bunlar belə bir nəticə çıxarmağa əsas verir ki, Prezident İlham Əliyevin münaqişə dönəmində uğurlu liderliyinin başlıca politoloji əlamətlərini araşdırmaq əsasında postmünaqişə mərhələsində Azərbaycan rəhbərinin liderlik təcrübəsinin nəzəri təhlilini aparmaq mümkündür.

Aydındır ki, İlham Əliyevin postmünaqişə mərhələsində liderliyinin fərqli cəhətləri kifayət qədərdir və onların sistemli təhlilinə böyük ehtiyac vardır. Bu məsələ müasir politologiya üçün yeni tədqiqat fenomenidir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**ABŞ-da “Christian Post” adlı bir internet qəzet var. İşi-gücü Azərbaycanı, guya, xristianların təqib olunduğu ölkə kimi qələmə vermək, şivən qoparmaqdır. Media orqanı yenə köhnə “ampluasındadır”. Ancaq qəzet indi, necə deyərlər, barıtı daha çox edib.**

Xatırladaq ki, “Christian Post” ötən ilin sentyabrında “Ermənistan Azərbaycandan tələb etməlidir ki, Dağlıq Qarabağdakı kilsələrə hücumu dayandırsın” sərlövhəli məqalə yayımlamışdı. Bu dəst-xətt ermənipərəstlikdən və anti-Azərbaycan ritorikasından qaynaqlanmışdı. Nəşrin fevralda “Erməni kilsəsi İsraildən Qüdsdəki 1700 illik mülkün müsadirəsini dayandırmasını istəyir” sərlövhəli yazısının olduğunu da bilirik, apreldə ölkəmizə qarşı qərəz püsgürən məqaləsini və orada “ABŞ-ın Azərbaycanı xristianların təqibinə görə məsuliyyətə cəlb etməsinin vaxtının çatdığı”nın diqqətə çatdırılmasını da.

Papalıq Qriqorian Universitetinin nümayəndəsi “Christian Post”un sorğusuna cavab olaraq təhsil ocağının sözügedən tədbirin təşkilində iştirak etmədiyini və heç bir maddi yardım almadığını vurğulayıb. Əlbəttə, cavab nəşrin Ayqazyanın sərsəmləmələrini ön plana çəkməsinə mane olmayıb.

Məlum olduğu kimi, barəsində söz açılan konfrans çərçivəsində Kəlbəcərdəki Dadivank monastrından söz açılıb və bildirilib ki, bu məbəd Qafqaz Albaniyasına aiddir. Görünür, “Christian Post”u əndazədən çıxaran elə budur. Həmçinin, tədbir çərçivəsində Qafqaz Albaniyasına məxsus sərginin təşkili.

# “Christian Post”un anti-Azərbaycan ritorikası

## *Vatikandakı Papalıq Qriqorian Universiteti də şərlənir*



Əlqərəz, “Christian Post”un hazırkı hədəfi Vatikanın Papalıq Qriqorian Universitetidir. Nəşr təhsil ocağını Azərbaycanın erməni-xristianları məhv etmə səylərini legitimləşdirməkdə günahlandırıb, bunun “sübutu” baxımından müəyyən fikirlər gündəmə gətirib. Qəzetin bildirdiyinə görə, dini liderlər və insan haqları təşkilatları, Vatikandakı universitetin dövlət tərəfindən maliyyələşdirilən konfransı Azərbaycana həsr etməsini pisləyiblər. Sən demə, tədbir ölkəmizə mübahisəli ərazi qismində göstərilən Qarabağdan erməni tarixini silmək niyyətli platforma qazandırıbmış. Bunu “Christian Post”un məqaləsində fikirlərini təqdim etdiyi Amerikadakı Erməni Apostol kilsəsinin Şərq Yeparxiyasının arxiyepiskopu Vigen Ayqazyan vurğulayıb.

Ümumiləşdirmə apararaq bildirək ki, “Christian Post” Vatikanın Papalıq Qriqorian Universitetində keçirilən “Azərbaycanda xristianlıq: tarix və müasirlik” konfransı məsələsində nəinki anti-Azərbaycan dəstxət nümayiş etdirib, eyni zamanda, bu dəstxət üçün Vatikanı günahlandırmaqdan da çəkinməyib. Əsl həyasızlıq da elə budur. Əlbəttə, daha böyük həyasızlıq var.

Belə ki, Ermənistan və ermənipərəst dairələri ABŞ Prezidenti Donald Tramp Administrasiyasının dini həssaslıq duyğularına Azərbaycana qarşı qəzəb motivləri qazandırmaq yolu tutublar. Bunun ən müxtəlif təzahürləri var. Belə bir kursun götürülməsində böyük məqsəd isə Azərbaycanla Ermənistan arasındakı ziddiyyətli duruma dini aspekt qatmaqdır.



V.Ayqazyan açıq şəkildə bildirib ki, Vatikandakı Papalıq Qriqorian Universiteti Azərbaycanın maliyyəsi qarşısında yenik düşüb. Göründüyü kimi, din xadimi adını daşıyan bu iblis şər atmaqla məşğuldur. Nəzərə alsaq ki, ona tribuna verən “Christian Post”dur, deməli, qəzet də şər kampaniyasında iştirakçıdır və bunu ayrıca sübuta yetirməyə ehtiyac yoxdur. Görünən dağa nə bələdçi?

Beləliklə, məqsəd aprelin 10-da Müqəddəs Taxt-Tacın Papalıq Qriqorian Universitetində keçirilmiş “Azərbaycanda xristianlıq: tarix və müasirlik" mövzusundakı konfransını gözdən salmaqdır. O konfransı ki, onun müxtəlif sessiyalarına Türkiyədən, Qazaxıstandan, Özbəkistandan, Gürcüstandan, Rusiyadan, Cənubi Koreyadan, Polşadan, İtaliyadan, Almaniyadan, Fransadan, ABŞ-dan və Litvadan təmsilçilər qatılmışdılar.

V.Ayqazyan iddia edib ki, Azərbaycanın Vatikanın layihələrini maliyyələşdirməsi ikincinin Bakı ilə İrəvan arasındakı duruma münasibətinə təsir göstəribmiş. Sanki, Vatikan açıq-aşkar Ermənistanın tərəfini tutmalı imiş, ancaq pul müqabilində bunu etmir. Erməni arxiyepiskopun atdığı şərin kulminasiya anı isə onun bəzi kardinalların və Vatikan rəsmilərinin Azərbaycandan maddi yardım aldıqlarını bildirməsidir.

“Christian Post”un “məqsədinə” çatmaq naminə Birləşmiş Ştatların Beynəlxalq Dini Etiqad Azadlıqları Komissiyasının 2024-cü ilin mayında açıqladığı qərəzli hesabata istinad yolu tutduğu da danılmaz faktdır. Halbuki, ABŞ-ın aşkar anti-Azərbaycan və ermənipərəst mövqe tutan sabiq administrasiyasının “sifarişi” əsasında hazırlanmış “hesabat” ölkəmizdəki reallığı əks etdirə bilməzdi. O cümlədən, sənəddə Azərbaycanın dini etiqad azadlığının kobud şəkildə pozulmasına görə “xüsusi narahatlıq doğuran ölkə” elan edilməsi.

Sonda bildirək ki, Azərbaycan əleyhinə belə primitiv, reallıqdan tam uzaq, sərsəm məqalələrin yayımlanması yalnız ABŞ-dakı erməni lobbi və diaspor təşkilatlarının “işi” sayıla bilməz. Bu, həm də Ermənistan hakimiyyətinin həmin təşkilatlarla müştərək “fəaliyyətinin” nəticəsidir. Fəaliyyət ABŞ-ın hazırkı administrasiyasının xristian təəssübkeşliyi damarına basmaqla, onun Azərbaycana xristianları təqibə məruz qoyan ölkə qismində yanaşmasına, nəticədə Vaşinqtonun Bakıya təzyiq göstərməsinə nail olmaq məramına söykənir. Əlbəttə, bu sayaq oyunbazlıqlar heç bir fayda verməyəcək və verə də bilməz.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Cənubi Qafqazda gərginlik ocağının sönməsinə imkan verməyən dövlətlərdən biri də Hindistandır. Nyu–Dehli son illərdə Ermənistanı intensiv şəkildə silahlandırır. Bunun nəticəsində həm erməni xalqında, həm də hökumətində revanşist iddialar baş qaldırır, onlar xam xəyallara düşürlər. Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsi üzərində danışıqlar başa çatsa da, məhz bu kimi təxribatçı əməllər üzündən İrəvan Bakının konstitusiyada dəyişikliklər və ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət tələbini yerinə yetirmir.**

# ZORƏN MÜTTƏFİQ

## *Paris və Nyu–Dehli geosiyasi maraqlarına çatmaqda İrəvana alət kimi baxırlar*

Bu çərçivədə Fransanın da bölgədə pozuculuğa yönəlmiş hərəkətləri diqqətdən yayına bilməz. Ümumiyyətlə, son illərdə İrəvan–Paris–Nyu–Dehli müttəfiqliyi formalaşıb. Əlbəttə, tərəflərin "hərbi əməkdaşlıq" adı verdiyi bu əməllər bölgəmizdə və dünyada sülhə, sabitliyə xidmət etsəydi, onu yalnız alqışlamaq olardı. Əfsuslar olsun ki, üç ölkə birləşərək həm Cənubi Qafqazda, həm də Cənubi Asiyada vəziyyəti ağırlaşdırır.

Paris–Nyu–Dehli hərbi əməkdaşlığının daha da dərinləşməsi istiqamətində atılan son addım aprelin 28-də iki ölkənin "Rafale Marine" adlanan daşıyıcı əsaslı (hərbi-dəniz aviasiyası üçün nəzərdə tutulmuş qırıcılar) 26 ədəd döyüş təyyarəsinin alqı-satqısına dair müqavilə imzalamasıdır. Hindistan Müdafiə Nazirliyi bildirib ki, sövdələşmənin dəyəri 7,27 milyard ABŞ dollarından çoxdur. Ölkənin "Times Now" nəşri məlumat yayıb ki, maliyyə tutumu bu qədər böyük olan sənədə Hindistan və Fransanın müdafiə nazirləri – Racnat Sinqx və Sebastian Lekornunun iştirakı ilə imza atılıb. Bu, iki ölkənin imzaladığı ən böyük müdafiə sazişidir. Satılacaq qırıcılar Hindistan Hərbi–Dəniz Qüvvələrinin istifadəsi üçün nəzərdə tutulub.

Qeyd edilib ki, Hindistan 2016-cı ildə alınmış 36 ədəd bu cür təyyarəyə malikdir. Onlar "Vikrant" aviabazasında yerləşəcək və daha əvvəldən ora gətirilmiş MiQ-29K təyyarə parkını tamamlayacaqlar.



***

Hindistan–Fransa hərbi əməkdaşlığının Cənubi Qafqaz üçün ziyanı onların hər ikisinin regionla bağlı destruktiv əməllərinin icrasında Ermənistandan vasitə kimi istifadə etmələridir. Əslində, bu ölkələrin heç biri Ermənistana təbii müttəfiq kimi yanaşmır, bu, zorən müttəfiqlikdir. Hindistan Azərbaycan və Türkiyənin Pakistanın strateji müttəfiqi olması, Fransa isə yenə də Bakı və Ankaraya münasibətdə yürütdüyü düşmənçilik, türkofobiya və islamofobiya siyasəti səbəbindən İrəvana "stavka" edirlər.

Bundan əlavə, Hindistan Ermənistanı silahlandırmaqla regionda öz geosiyasi məqsədlərini həyata keçirir. Nyu–Dehli Pakistana müqavimət göstərməyə, Avropa və Asiya silah bazarlarına çıxışını genişləndirməyə çalışır. Cənubi Asiya dövləti paralel olaraq Türkiyə ilə ciddi fikir ayrılıqlarına malik Yunanıstanla da hərbi əməkdaşlığı genişləndirir. Ölkənin baş naziri Narendra Modinin 2023-cü ilin avqustunda Afinaya birgünlük rəsmi səfəri zamanı Hindistan mediası bu hadisənin "Kəşmir məsələsində Pakistanın mövqeyini dəstəkləyən Türkiyə üçün mühüm siqnal" olacağını yazmışdı. Eyni zamanda, "Financial Express" qəzeti Hindistanın Türkiyə–Pakistan–Azərbaycan müttəfiqliyinə alternativ olaraq Ermənistan və Yunanıstanın iştirakı ilə yeni güc mərkəzi yaratmaq planlarından xəbər vermişdi. Yəni Hindistan–Fransa–Ermənistan hərbi-siyasi əməkdaşlığı təkcə bu üç ölkə ilə məhdudlaşmır, daha geniş coğrafiyada, necə deyərlər, suları bulandırmağa xidmət edir.

Bu məsələnin çoxkombinasiyalı olmasını bir neçə gün öncə "Reuters" agentliyində yerləşdirilmiş "Hindistan Rusiyanın ənənəvi müştərilərinə ucuz silah kreditləri təklif edir" sərlövhəli məqalə də təsdiq edir. Məqalədə qeyd edilib ki, Hindistan aktiv şəkildə Moskvanı silah bazarından sıxışdırır, Sovet İttifaqının tərkibində olmuş Ermənistanı silahla təchiz etmək məsələsində Rusiyanın uzunmüddətli mövqeyini sarsıdır.

Agentlik qeyd edir ki, Nyu–Dehlinin bu sahədə uğurlu fəaliyyətinin bir nümunəsi ötən il Hindistanın ilk hərbi attaşesinin göndərildiyi Ermənistandır. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun (SIPRI) məlumatına görə, 2022–2024-cü illərdə Ermənistanın idxal etdiyi silahların 43 faizi Hindistanda istehsal olunub ki, bu da 2016–2018-ci illər arasındakı, demək olar ki, sıfır göstəricidən kəskin şəkildə fərqlənir.

"Reuters" qeyd edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü və Rusiyanın strateji müttəfiqi olan Ermənistan bu yaxınlara qədər rus tanklarına, hava hücumundan müdafiə sistemlərinə və artilleriyasına arxalanırdı. İndi Hindistanın raket və artilleriya sistemləri Ermənistanın arsenalını doldurur. Bu seçim bir çox cəhətdən məcburidir. Çünki Rusiya istehsal etdiyi bütün silah və hərbi texnikanı Ukrayna ilə müharibəyə yönəldib. Məhz bu fonda Hindistan dövriyyəyə girir. Üstəlik, Nyu–Dehli müştərinin xüsusiyyətlərini nəzərə alaraq, hər bir məsələdə çeviklik nümayiş etdirir.

Silah-sursat və hərbi texnika üçün kredit məsələsinə gəldikdə isə məqalədə iki Hindistan rəsmisinə istinadən bildirilib ki, Nyu–Dehli müştərilərə uzunmüddətli və ucuz kreditlər verir. Aşağı faiz dərəcələri və uzunmüddətli ödənişləri olan bu kreditlər Ermənistan kimi büdcələri Qərb tədarükçülərinin qiymət etiketlərinə tab gətirə bilməyən ölkələr üçün həyati əhəmiyyət daşıyır.

***

Xatırladaq ki, bu ilin fevralında Türkiyənin "Star" qəzeti Ermənistan və Hindistan arasında təxminən 2 milyard dollar dəyərində ilk iri sazişin hələ 2020-ci ildə bağlandığını yazmışdı. 2024–2025-ci illərdə Ermənistan Hindistandan ilk növbədə artilleriya və hava hücumundan müdafiə sistemlərinin daxil olduğu 60 milyon dollarlıq silah-sursat almağı öhdəsinə götürüb. Bundan əvvəl isə İrəvan Hindistandan "MArG 155" haubitsalarını almış və "Pinaka" reaktiv yaylım atəş sistemlərinin, tank əleyhinə sursatların və digər silah növlərinin tədarükü üçün 250 milyon dollarlıq müqavilə imzalamışdı. 2023-cü ildə Hindistanın "Kalyani Strategic Systems Limited" şirkəti Ermənistanla 155 mm-lik artilleriya silahlarının tədarükü üçün 155,5 milyon dollarlıq müqavilə imzalayıb. 2024-cü ildə Ermənistan naməlum sayda "Akaş" hava hücumundan müdafiə raket sistemlərinin tədarükü ilə bağlı müqavilə imzalayıb və Hindistanın hərbi-sənaye kompleksi məhsullarının ən böyük idxalçısı olub.

Maraqlıdır ki, hər zaman, necə deyərlər, sudan quru çıxmağı bacaran haylar Ermənistanın Rusiya silahlarını Hindistan silahlarına dəyişməsinə özlərinə xas izahat tapıblar. Bəzi erməni politoloqlarının fikrincə, Hayastanın təhlükəsizliyinin təminatçısı kimi Rusiyanın rolunun azalması və resurslarının məhdudlaşması fonunda İrəvan getdikcə daha çox yeni əməkdaşlıq formatları axtarır. İlk növbədə, silah təchizatında əsas yer tutan, təlim və texniki dəstək sahəsində mühüm tərəfdaşa çevrilə biləcək Hindistana üz tuturlar. Bu, Ermənistanın Moskvadan əvvəlki birtərəfli asılılıqdan çıxmaq istəyini təsdiq edir. Beləliklə, Ermənistanın ölkədə Rusiya silah-sursatının və hərbi texnikasının varlığını alqışladığı dövr unudulub. Bu gün Hindistan Rusiyaya sanksiyalar tətbiq olunmasından istifadə edərək, açıq şəkildə, belə demək mümkünsə, İrəvan istiqamətində Moskvanın yerini tutub.

Qeyd edək ki, Hindistan və Fransanın Ermənistanı silahlandırması ilə bağlı Azərbaycan tərəfi dəfələrlə narazılığını bildirib və buna son qoyulmasını tələb edib. Prezident İlham Əliyev 2024-cü il dekabrın 17-də rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində ölkəmizin bununla bağlı mövqeyini aydın şəkildə ifadə etmişdi: "Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dır. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, – hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, – ABŞ isə bunu etiraf etmir. Halbuki, biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik".

Ancaq ölkəmizin haqlı tələblərinin eşidilməməsi rəsmi Bakının da hərbi xərcləri artırmasına gətirib çıxardı. Yəni biz adekvat tədbirlər görməyə məcbur idik. 2025-ci ildə növbəti hərbi büdcəmiz rekord büdcədir. Bu, təxminən beş milyard dollardır. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu məbləğin ən azı 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik, Qarabağın bərpası, sosial ödənişlər və sair üçün istifadə edərdik. Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Ermənistan isə silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, şərti sərhəddə növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



***İlyas HÜSEYNOV, politoloq:***

– Fransa ilə Hindistan arasında hərbi və hərbi-texniki əməkdaşlıq inkişaf etməkdədir. Buna əyani misal olaraq Hindistanın Fransa istehsalı olan qırıcı təyyarələr almasını göstərmək olar. Bu, bir sıra hallarda Cənubi Asiyada regional təhdidi gücləndirməkdədir. Zənnimcə, Paris və Nyu–Dehli arasında silah alqı-satqısı sahəsində sövdələşmə və "Rafale Marine" adlanan döyüş təyyarələrinin alınması Hindistanın yerləşdiyi coğrafiya ilə bağlıdır. Çünki qardaş Pakistan son dövrlərdə, xüsusilə hərbi təyyarə istehsalı sahəsində böyük uğurlar qazanıb. Biz Pakistan istehsalı olan qırıcıların döyüş qabiliyyətinə yaxşı bələdik. Pakistanın aviasiya sahəsində üstünlük əldə etməsinə qarşılıq olaraq Fransanın dəstəyi ilə Hindistan bu istiqamətdə rəqabətdə uduzmaq istəmir.

Digər tərəfdən, bu proseslər ölkəmizi də yaxından maraqlandırır. Çünki Fransa ilə Hindistan Ermənistanı silahla təchiz edən dövlətlərdir. Hindistanda fransız lisenziyası ilə istehsal olunan silahların Ermənistana ötürülməsi baş verir. Bir növ "silah dəhlizi" yaradılıb ki, bunun da qarşısını almaq lazımdır. Anlamaq lazımdır ki, Ermənistanın silahlandırılması Cənubi Qafqaz regionunda böyük eskalasiyaya, hətta müharibəyə gətirib çıxara bilər. 30 il ərzində Azərbaycan torpaqlarının işğal altında qalması və bölgədə törədilən vəhşilik elə bil unudulub, sanki bunun üzərindən xətt çəkilib. Bəzi böyük güc mərkəzləri bunu anlamayaraq yenidən Cənubi Qafqazda müharibə axtarışında və öz maraqlarını təmin etmək yolundadırlar. Buna təcili son qoymaq lazımdır. Prezident İlham Əliyevin bu istiqamətdə səsləndirdiyi fikirləri bir daha xatırlatmaq yerinə düşər. Dövlətimizin başçısı bildirib ki, Fransa tərəfindən Ermənistana verilən silahlar geri qayıtmalıdır. Fransa isə nəinki Ermənistana verdiyi silahları geri çağırmır, əksinə Hindistan da İrəvanı sürətlə silahlandırır. Bu isə revanşizm dalğasını gücləndirir.



# DİN rəhbəri Tovuzda qəbul və sıra baxışı keçirib



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 27-də və 28-də Tovuz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Tovuz şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Tovuz Rayon Polis Şöbəsində Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Qazax, Ağstafa rayonlarından və digər bölgələrdən qəbula gələn 153 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarına xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Vətən müharibəsinin 36 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 191 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Türkiyədə



**Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Konstitusiya Məhkəməsinin 63-cü ildönümü münasibətilə "XXI əsrdə Konstitusiya ədalət mühakiməsinin gələcəyi" mövzusunda simpoziumda iştirak etmək üçün İstanbulda olub.**

Fərhad Abdullayev tədbirdə çıxış edərək hüquq və ədalətin, insan hüquq və azadıqlarının müdafiəsi və konstitusiya prinsiplərinin aliliyindən söz açıb.

Simpoziumda Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı Təşkilatına müvəqqəti sədrlik səlahiyyətləri rəsmi olaraq Azərbaycan Konstitusiya Məhkəməsinə verilib.

***XQ***

# ANAMA-nın əməkdaşı minaya düşüb

**Aprelin 28-də Qazax rayonunun işğaldan azad edilmiş Qızılhacılı kəndi ərazisində mina hadisəsi baş verib.**



Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən verilən məlumata görə, qurumun əməkdaşı, Paşayev Elnur Oruc oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı baş verib. Hadisə nəticəsində Paşayev Elnur bədənin müxtəlif nahiyələrindən yüngül xəsarətlər alıb.

O, rayon mərkəzi xəstəxanasına təxliyə edilib. Vəziyyəti qənaətbəxşdir, həyati təhlükəsi yoxdur.

***XQ***

## Təqvimin qara səhifəsi

# Amansız “Aprel işğalı”

## *Azərbaycan Xalq Cümhuriyyətinin faciəli süqutu*

***Fəzail İBRAHİMLİ,***
***Milli Məclisin deputatı, professor***

**(əvvəli ötən sayımızda)**

Müasir tarixşünaslıqda bu əlaqələrin qurulmasına Rusiya tərəfinin göstərdiyi cəhdlər əsasən Azərbaycan Xalq Cümhuriyyəti hökumətini Sovet Rusiyasının Azərbaycanı işğal etdiyi bir ərazi gözü ilə deyil, əməkdaşlıq qurmaq istədiyi bir ölkə kimi görməsinə inandırmağa çalışması kimi izah edilir. Bu, eyni zamanda, hökuməti müdafiə tədbirləri görməkdən yayındırmaq, daha təmkinli davranmağa sövq etmək və hərbi müdaxilənin olmayacağına inandırmaqla sayıqlığının yatırdılması məqsədini daşıyırdı.

Sovet Rusiyasının Qafqaz siyasətinin formalaşdırılmasında Xalq Komissarları Sovetində millətlər komissarı İ.Stalin, Azərbaycan, Gürcüstan və Ermənistanda yerli milli hakimiyyətlərin devrilməsində xüsusi xidmətləri, anti-Azərbaycan mövqeyi ilə seçilən Q.Orconokidze olmuşlar. Qafqaz istiqamətində gedən hərəkətləri əlaqələndirmək üçün Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin 8 aprel 1920-ci il qərarı ilə yaradılmış Qafqaz Bürosuna Q.Orconikidzenin başçılıq etməsi də təsadüfi deyildir. Yaradılmış büronun üzvləri S.Kirov, A.Nazaretyan, N.Nərimanov, Y.Stasova və başqaları idi. Onlar xüsusilə 1920-ci ildə Cənubi Qafqaz regionunun işğalı istiqamətində “səylər” göstərmişlər.

Qırmızı ordunun işğalına hazırlıq kifayət qədər möhkəm və etibarlı vasitələrlə dəstəklənirdi. Hələ ordu hissələri Bakıya gəlməzdən əvvəl silahlı üsyanın uğur qazanması üçün lazım olan materiallar və ləvazimatlar Bakıya daşınmışdı.

Qafqaz Bürosuna, həmçinin Qafqaz qırmızı ordusunun fəaliyyətinə rəhbərlik etmək tapşırılmışdı. 1920-ci ilin 28 martında RSFSR silahlı qüvvələrinin ali baş komandanı S.Kamenev V.İ.Leninə hesabat verirdi ki, Qroznı şəhəri tutulmuşdur və növbəti istiqamət kimi hökumətin direktivləri əsasında Bakı istiqamətində Qafqaz əməliyyatının inkişaf etdirilməsinə başlanılır. Sonradan bu plana bəzi düzəlişlər edildi. 1920-ci ilin 23 aprelində XI qırmızı ordunun komandanlığına teleqram göndərilərək əmr edilirdi ki, XI qırmızı ordunun son məqsədi təkcə Bakı quberniyasının tutulması deyil, bütöv Azərbaycan ərazisinin işğalı olmalıdır. Göründüyü kimi, sovet qoşunlarının irəliləməsi tam işğal məqsədi daşımışdır və bunu həyata keçirmək üçün, guya, türklərə bolşevik Rusiyasının Azərbaycan ərazisindən keçməklə yardıma getməsi bəhanəsindən məharətlə istifadə edilmişdir.

Bolşevik qoşunlarının Cənubi Qafqaza yaxınlaşması xəbəri Avropada narahatlıq doğursa da, İngiltərə hökuməti o dövrdə Sovet Rusiyası ilə siyasi və iqtisadi münasibətlərin yaxşılaşdırılması xəttini götürmüşdü. 1920-ci ilin aprelində Antanta liderləri Cənubi Qafqaza yardımın göndərilməsi məsələsini müzakirə etsələr də real addımlar atılmadı.

Beləliklə, Avropa ölkələrinin söz verdikləri hərbi yardımı göndərməməsi, Sovet Rusiyasının hərbi müdaxiləsinə qarşı Azərbaycan və Gürcüstan hərbi qüvvələrinin birləşərək birgə mübarizə aparmaq səylərinin nəticə verməməsi, ermənilərin Qarabağda qaldırdıqları qiyam və bunun nəticəsində milli qoşun hissələrinin ora cəlb edilməsi ilə şimal sərhədlərinin müdafiəsiz qalması,



o dövrdə istiqlal mübarizəsinə girişmiş Türkiyənin Avropanın “imperialist” dövlətlərinə qarşı Sovet Rusiyası ilə əlaqələr qurması və nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin özünün daxilində siyasi vəziyyətin durulmaması şimal qonşunun hərbi təcavüzü ilə Azərbaycanı meydanda tək qoydu.

RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı Bürosu yerli Azərbaycan hakimiyyətinə təqdim ediləcək ultimatumu müzakirə edərək, eyni zamanda, üsyanın da başlanmasına qərar verdi. 1920-ci il 26 aprel tarixində Müvəqqəti Azərbaycan İnqilab Komitəsi təşkil edildi.

Qırmızı ordu qüvvələri artıq Azərbaycan sərhədlərinə yaxınlaşmışdı. Artıq neftlə zəngin torpaqların işğalı real görünürdü. Əməliyyat Qafqaz cəbhəsinin hərbi rəhbərliyinin 21 aprel 1920-ci il tarixli 490 saylı direktivinə əsasən, XI ordunun komandanı M.Levandovskinin başçılığı altında həyata keçirildi. İranın şimal hissəsində yerləşən ingilis hərbi hissələrinin və Gürcüstandan gələ biləcək köməyi əngəlləmək üçün əməliyyat qısa müddətə cəmi beş günə başa çatdırılmalı idi.

Azərbaycanın daxili və xarici düşmənlərinin qabaqcadan hazırlanmış və konkret bir xətt üzrə inkişaf etdirilən plana uyğun işlərə başlanıldı. Yalama-Bakı əməliyyatı yerinə yetirilməyə başladı. Aprelin 26-dan 27-nə keçən gecə XI ordu hissələrinin Azərbaycana hərbi əməliyyatı başladı. Bu, beynəlxalq hüquq normalarının kobudcasına pozulması idi.

Aprelin 27-də səhər tezdən qoşunların aparıcı zirehli qatarı Azərbaycan sərhədini keçdi. Azərbaycan Ordusunun göstərdiyi müqavimət dəf edildi.

Hökumət çox ağır bir vəziyyətə düşmüşdü. İşğalçı qoşunlarının ölkə hüdudlarını keçib paxtaxta gəlməsi Azərbaycan Xalq Cümhuriyyətinin müqəddəratını həll etmiş oldu. Aprelin 27-si axşam açıq hərbi təzyiq altından qalmış Azərbaycan Parlamenti qısa, lakin gərgin bir iclasda Azərbaycan Kommunist Partiyası MK, Rusiya Kommunist (b) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı Bürosu adından təqdim olunmuş hakimiyyəti N.Nərimanovun rəhbərlik etdiyi fəhlə-kəndli hökumətinə təslim edilməsi barədə ultimatumu gündəliyə qoydu.

Həmin tarixi iclasdan əvvəl M.H.Hacınski, M.Ə.Rəsulzadə, Q.Qarabəyov, A.Səfikürdski, A.Qardaşov, Ağamalıoğludan ibarət komissiya yaradılmışdı. Bu komissiya təqdim edilmiş ultimatuma cavab vermək üçün Azərbaycan Parlamentinin şərtlərini hazırlamış oldu. M.Ə.Rəsulzadə ölkənin düşdüyü durumu xalq kütlələrinə çatdırmaq, xalqdan xəbərsiz qərarlar almamaq üçün iclası xalq kütlələrinə açıq keçirməyi təklif etdi. Ultimatumun mətnini sosialistlərə və bolşeviklərə rəğbət bəsləyən M.Hacinski oxudu. O, Sovet hərbi hissələrinin Azərbaycanı işğal etmək üçün deyil, Anadoluya getmək üçün Bakıya girmədən keçmək niyyətinə inandığını bildirdi. Gərgin keçən iclasda Azərbaycan Parlamentinin müxtəlif fraksiyalarının nümayəndələri çıxış etdilər. Çıxış edən “Hümmət”, “İttihad”, Sosialist bloku, “Əhrar” partiyalarının nümayəndələri onun fikirləri ilə razılaşaraq hakimiyyətin təhvil verilməsinə razı olduqlarını bildirdilər. Göründüyü kimi, Parlamentin tərkibinə daxil olmuş bu qüvvələrin amalı Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına söykənməmişdi. Qızğın müzakirələrin nəticəsi olaraq axşam saat 11-də Parlament buraxıldı. Parlament aşağıdakı şərtlərlə hakimiyyəti təhvil vermişdi:

1. Sovet hökuməti tərəfindən idarə olunan Azərbaycanın tam istiqlaliyyəti mühafizə edilir;

2. Azərbaycan kommunist firqəsinin yaratdığı hökumət müvəqqəti orqan olacaqdır;

3. Azərbaycanın son idarə formasını hər hansı bir xarici təzyiqdən asılı olmayan fəhlə, kəndli və əsgər deputatları sovetləri şəxsində Azərbaycanın ali qanunverici orqanı müəyyənləşdirir;

4. hökumət idarəsinin bütün xidmətçiləri öz yerlərində qalır, ancaq məsul vəzifə tutanlar dəyişdirilir;

5. yeni yaradılan müvəqqəti kommunist hökuməti Parlamentin və hökumət üzvlərinin həyatının və əmlakının toxunulmazlığına təminat verir;

6. qırmızı ordunun Bakı şəhərinə döyüşlə daxil olmasına yol verməmək üçün tədbir görüləcək;

7. yeni hökumət haradan baş verməsindən asılı olmayaraq Azərbaycanın istiqlalını sarsıtmaq məqsədi güdən bütün xarici qüvvələrə qarşı qəti tədbirlər görəcək və öz sərəncamında olan bütün vasitələrlə mübarizə aparacaqdır.



28 aprel 1920-ci ildə Azərbaycan İnqilab Komitəsi “Bakı və bütün Azərbaycan əhalisinə” müraciətlə çıxış etdi. Müraciətdə bildirilirdi ki, Azərbaycan İnqilab Komitəsi Azərbaycan zəhmətkeşlərinin iradəsi ilə ona verilmiş hakimiyyətə və səlahiyyətlərə malikdir.

Beləliklə, müstəqil Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Azərbaycanın işğalı uzun müddət hazırlanan mərkli bir siyasətin reallaşdırılması idi. Cəmi iyirmi üç ay mövcud olmuş və bunun da on doqquz ayını Bakıda yerləşmiş Azərbaycan milli hökuməti milli ideyanın inkişafı, milli dövlətçilik ənənələrinin xalqın yaddaşına həkk edilməsi, millətin, ölkənin və bütövlükdə Azərbaycan cəmiyyətinin inkişafı, ölkə həyatının müxtəlif sahələrində əsaslı islahatların aparılması və davamlı inkişaf platforması yaratmaq üçün müqayisəolunmaz işlər görmüşdür. Bu işlər Azərbaycan milli hökuməti tərəfindən qısa zaman kəsiyində və stabil olmayan siyasi şəraitdə həyata keçirilmiş və Azərbaycan xalqı qarşısında çox şərəfli bir vəzifəni yerinə yetirmişdir.

Təəssüf ki, Azərbaycan xalqı XX əsrin əvvəllərində çoxəsrlik mücadilənin nəticəsi kimi əldə etdiyi, xalqın düşüncəsində dərin kök salmış müstəqillik və dövlətçilik nemətinin şirinliyini qısa müddət dada bildi. Çətinliklə qazanılmış müstəqillik sovet imperiyasının idealogiyasının buxovuna çevrilmiş oldu.

Azərbaycan 70 il imperiya əsarətində yaşamaq məcburiyyətində qaldı. Lakin bu illərdə xalqımızın iradəsi və milli ruhu qırılmadı. 1990-cı illərin əvvəllərində yaranmış münbit siyasi şəraitdə Azərbaycan öz müstəqilliyini bərpa etdi. Bu dövrdə də Azərbaycanın başı üstünü yenə qara buludlar aldı. Şimaldan, cənubdan, şərqdən və qərbdən Azərbaycana mənhus baxışlar dikildi və iti caynaqlar uzandı. Xalqın tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanın xilaskarına çevrildi. Onun siyasi rəhbərliyi ilə ölkənin iqtisadi və siyasi gələcəyinə tuşlanmış strateji kurs müəyyən edildi. Bu siyasi kursu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev davam etdirərək, ölkəmizi Cənubi Qafqazda ən güclü respublikaya çevirdi. İqtisadi qüdrətimizə, güclü ordumuza və xalqın birliyinə söykənən cənab Prezident tariximiz üçün iki yüz illik niskilə çevrilən Qarabağ məsələsini həll etdi. Tarixi ədalət və respublikamızın suveren hüquqları bərpa edildi. Bu gün Azərbaycan nəinki regionda, hətta Qafqaz geosistemindən kənarda qlobal məsələlərin həllində söz sahibidir.

## Xuntaçıların məhkəməsi

# Ermənistan silahlı qüvvələrinin Şuşanı işğal etməsinə videomateriallar şahidlik edir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 28-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli tərəfindən Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin yandırılmasını, aramsız atəşə tutulmasını əks etdirən videomaterial nümayiş olunub.

Nümayiş etdirilən növbəti videomateriallar Şuşa rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı barədə olub.

Dəlillərdən biri Şuşanın işğalı əməliyyatına rəhbərlik etmiş “Komandos” ləqəbli general-mayor Arkadi Ter-Tadevosyanın işğal prosesi və orada iştirak etmiş şəxslər barədə çıxışlarının əks olunduğu videomateriallardan hissələr olub. Videomaterialda, həmçinin Şuşanın işğalına hərtərəfli hazırlıqdan bəhs edilib. Vurğulanıb ki, Şuşanın işğalına dair plana Vazgen Sarkisyan (Ermənistanın birinci müdafiə naziri – red.) razılıq verib. Döyüş əmri isə Seyran Ohanyan tərəfindən hazırlanıb.

“Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi planı çox məxfi şəraitdə Vazgen Sarkisyan, Arkadi Ter-Tadevosyan, Felek Kızoryan, eləcə də digər komandirlərin iştirakı ilə hazırlanıb. “Döyüş əmri Seyran Ohanyan tərəfindən hazırlanmışdı”, - deyə kadrlarda bildirilir. Vurğulanıb ki, əslində, əməliyyat aprelin 24-də keçirilməli imiş. Lakin silah təminatı və digər səbəblərdən bu, təxirə salınıb.

Dövlət ittihamını müdafiə edən prokurorlar deyiblər ki, tədqiq olunan bu və digər faktlar Şuşanın işğalına Ermənistan siyasi-hərbi rəhbərliyinin göstəriş verdiyini sübuta yetirir.

Məhkəmədə nümayiş olunan digər videomateriallarda dörd istiqamət üzrə Şuşanın işğalına rəhbərlik edən şəxslərin - Samvel Babayan, Seyran Ohanyan, Valeri Çitçyan, Arkadi Karapetyanın adları çəkilir. Ermənilərin hazırladıqları videomaterialda vurğulanır ki, hücum əməliyyatının məqsədi işğalla yanaşı, həm də Şuşanın “yeriyən həşəratlardan təmizlənməsi” olub (azərbaycanlılar nəzərdə tutulub).

Ardınca Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın Şuşa rayonunun işğalı ilə bağlı qeydlərinin yer aldığı videomaterial tədqiq edilib.

S.Sarkisyan Şuşa əməliyyatının əhəmiyyətinin çox böyük olduğunu bildirərək deyib: “Bu əməliyyatın əhəmiyyəti o qədər böyük idi ki, orada Robert Köçəryan özü iştirak edirdi”.





Məhkəmədə Ermənistan silahlı qüvvələrinin general-polkovniki, ovaxtkı baş qərargah rəisi Qurgen Dalibaltayanın (1926-2015) çıxışları yer almış videomaterial da nümayiş etdirilib.

Q.Dalibaltayan bildirib ki, Şuşa əməliyyatının işlənməsində, hazırlanmasında və həyata keçirilməsində Robert Köçəryan və Serj Sarkisyan (Ermənistanın keçmiş prezidentləri – red.) iştirak ediblər. O vurğulayıb ki, Şuşanın işğal edilməsinin əhəmiyyəti çox böyük idi.

Videomateriallarda qeyd edilib ki, Şuşaya hücum əməliyyatında Q.Dalibaltayanın çox böyük rolu olub.

Bundan sonra təqsirləndirilən şəxslərin bəzilərinə nümayiş olunan videomateriallarla bağlı dövlət ittihamını müdafiə edən prokurorlar, zərərçəkmiş şəxslərin nümayəndələri və müdafiəçilər tərəfindən suallar verilib.

Təqsirləndirilən Arkadi Qukasyan Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabda deyib ki, 1990-cı ilədək “Sovet Qarabağı” qəzetində işləyib. 1992-ci ilin sonunda qondarma rejimin “baş nazirinin” siyasi məsələlər üzrə “müşaviri” təyin olunub.

O, dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında Şuşanın işğalı zamanı azərbaycanlılara qarşı törədilən vəhşiliklərdən xəbərsiz olduğunu söyləyib.

Arkadi Qukasyan dövlət ittihamçısı Fuad Musayevin “Ermənistanın müdafiə naziri Vazgen Sarkisyanın 1999-cu ildə qondarma rejimin “qəhrəmanı” medalı ilə təltif edilməsi sizin tərəfinizdən olub?” sualına “Bəli” cavabını verib. O, həmçinin Vazgen Sarkisyanı da qondarma rejimin “Qızıl qartal” ordeni ilə təltif etdiyini bildirib. “Bu, hansı məqsədlə edilmişdi” sualına cavabda isə deyib ki, həmin vaxt qondarma rejimin təhlükəsizliyini Ermənistan öz üzərinə götürmüşdü. O, Şuşanın işğalı zamanı Ermənistanın baş qərargah rəisi olmuş Qurgen Dalibaltayanı da sonradan “Döyüş ordeni” ilə təltif etdiyini diqqətə çatdırıb.

Bundan sonra iclasda Şuşanın işğalından sonra çəkilən və Arkadi Qukasyanın da olduğu foto nümayiş etdirilib.

Təqsirləndirilən şəxs dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında həmin fotonun Şuşanın işğalından sonra oraya səfər edərkən çəkildiyini, fotoda yanında dayanmış şəxslərin Zori Balayan və Oleq Yesayan olduğunu bildirib.

Bundan sonra A.Qukasyan Vazgen Sarkisyana qondarma rejimin “qəhrəmanı” medalının verilməsi barədə “sərəncam” imzaladığını qeyd edib və deyib: “O, Ermənistanın müdafiə naziri idi”.

O, Azərbaycan ərazilərinin işğalında iştirak etmiş Seyran Ohanyana, Valeri Çitçyana və digərlərinə də müxtəlif “orden” və “medal”lar verdiyini etiraf edib.

Daha sonra təqsirləndirilən şəxs Bako Sahakyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırıb. O, Vilen Mikaeliyanın rəhbəri olduğu dəstənin Şuşanın işğalında iştirak etdiyini, özünün də həmin dəstədə olduğunu etiraf edərək vurğulayıb: “Bu, şərq istiqaməti idi. Mən bilirəm ki, həmin istiqamətin komandiri Arkadi Karapetyan idi”.

O, həmin vaxt sərəncamında AKM markalı avtomat olduğunu, lakin heç kimə atəş açmadığını deyib.

B.Sahakyan Şuşanın işğal olunması əməliyyatına rəhbərliyi Vazgen Sarkisyan, Arkadi Ter-Tadevosyan, Seyran Ohanyan və digərlərinin etdiyini deyib və bildirib. “Onlar özləri dəfələrlə deyiblər ki, Şuşa əməliyyatında kimlər və necə iştirak edib. Mən ona görə deyirəm ki, burada məxfi hissə yoxdur. Onların hətta böyük hissəsi mətbuatın məhsullarına öz etirazlarını bildirirdilər ki, Şuşadakı fəaliyyətləri tamamilə əks olunmayıb. Həmin dövrdə mən onlardan hansısa biri ilə tanış ola bilməzdim. Amma əvvəldə dediyim kimi, sonradan onların hər biri ilə tanış olmuşam”.

O, həmçinin A.Ter-Tadevosyanın fəaliyyətini yüksək qiymətləndirdiyini, ona qondarma rejimin “qəhrəmanı” adını verdiyini bildirib.

Məhkəmənin növbəti iclası mayın 1-nə təyin olunub.

***XQ***

# Rəqəmsallaşma və süni intellekt iş yerlərinə necə təsir edir?

(əvvəli 1-ci səhifədə)

Qeyd olunub ki, əlavə olaraq, əmək bazarı ilə bağlı görülən tədbirlər nəticəsində əmək müqavilələrinin sayı 556 min və ya 42,4 faiz artıb. Bunun da 90 faizi özəl sektorun payına düşüb. Bu müddət ərzində əməkhaqqı fondu 2,9 dəfə, o cümlədən qeyri-dövlət sektoru üzrə 3,2 dəfəyədək artıb.

Ölkəmizdə şəhid ailələri və müharibə əlillərinin sosial müadifəsi və məşğulluğu ilə bağlı tədbirlərin gücləndirildiyini diqqətə çatdıran nazirin sözlərinə görə, Vətən müharibəsindən sonrakı dövrdə bu kateqoriyadan olan 131 min unikal şəxsə, ümumilikdə, 380 minə yaxın sosial xidmət göstərilib. A.Əliyev deyib ki, şəhid ailələrinin və müharibə əlillərinin müavinət və təqaüdləri orta hesabla 2 dəfəyədək artırılıb. Son beş ildə onlara 6 min 800 mənzil və müharibə əlillərinə isə 567 avtomobil verilib.

Nazir qeyd edib ki, ötən il 26,2 min nəfərin məşğulluğu təmin olunub, o cümlədən, 12,4 min nəfər özünüməşğulluq proqramına, 1070 nəfər isə peşə hazırlığına cəlb olunub. 11 min nəfərə 77 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib, o cümlədən, 492 hərbçiyə 609 yüksək texnologiyalı protez, 2 min 300 müharibə əlilinə 70 min reabilitasiya vasitəsi təqdim edilib. Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, məşğulluq imkanlarının artırılması, əmək münasibətlərinin inkişafı, sosial sahədə xidmətlərin elektronlaşması, operativliyin və şəffaflığın təmin edilməsi istiqamətində ardıcıl islahatlar həyata keçirildiyini diqqətə çatdıran nazir deyib ki, hazırda Əmək Məcəlləsində 200-ə yaxın dəyişikliklər üzərində iş aparılır. Həmin dəyişikliklər, əsasən, məsafədən işin təşkil edilməsi, saatlıq əməkhaqqı sisteminin tətbiqi, bərabər dəyərli əməyə görə bərabər əməkhaqqının ödənilməsi, ailə üzvləri olan kişilərə və qadınlara ayrı-seçkiliyin aradan qaldırılması və sair məsələləri nəzərdə tutur.

Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev deyib ki, hazırda ölkəmizdə 9 minə yaxın müəssisədə kollektiv müqavilələr mövcuddur və bu sənədlər vasitəsilə minlərlə işçinin hüquqları qorunur, əmək şəraiti təkmilləşdirilir.




O bildirib ki, 2024-cü ildə yeni imzalanan kollektiv müqavilələrin sayı əvvəlki illə müqayisədə 14 faiz artıb. Konfederasiya rəhbərinin sözlərinə görə, bu rəqəmlər açıq şəkildə göstərir ki, əməyin mühafizəsi təkcə sosial məsələ deyil, həm də milli təhlükəsizlik və davamlı inkişaf məsələsidir. “Əmək mühafizəsi sahəsində tarixi baxımdan önəmli bir hadisə olan 1905-ci ildə imzalanan ilk kollektiv müqavilə işçi və işəgötürən arasında münasibətlərin rəsmi və qarşılıqlı razılaşma əsasında tənzimlənməsinə təkan verdi. O gündən bu günə kollektiv müqavilələr yalnız hüquqi sənəd deyil, sosial dialoqun təməl sütununa çevrildi”, – deyə o əlavə edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov konfransın mövzusunun aktuallığını vurğulayıb, rəqəmsallaşmanın və süni intellektin əmək bazarına təsirlərini qeyd edib. Bildirilib ki, texniki bacarıqları və müasir əmək vərdişləri olmayan işçilər əmək bazarında müəyyən çətinliklərlə qarşılaşa bilər. Bu baxımdan, işçilər yeni tələblərə və çağırışlara uyğunlaşmalı, bilik və bacarıqlarını artırmalıdırlar. Bu istiqamətdə Azərbaycanda sistemli və ardıcıl işlər görülür. Qeyd olunub ki, əməyin mühafizəsi, sağlam və təhlükəsiz iş şəraitinin təmin edilməsi Azərbaycanda həyata keçirilən uğurlu sosial siyasətin prioritet istiqamətlərindəndir. Vurğulanıb ki, ölkəmizdə qəbul edilən “Süni İntellekt Strategiyası” inklüziv məşğulluğun inkişafına, yeni əmək vərdişlərinin formalaşmasına töhfə verəcəkdir.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxışında özəl sektor nümayəndələrinə çağırış edərək onlara xidmət səviyyəsinin və əməliyyat səmərəliliyinin artırılması məqsədilə süni intellektin tətbiqini genişləndirməyə daha cəsarətlə yanaşdığını məsləhət bilib: “Dövlət olaraq bu istiqamətdə sizi təşviq edəcək stimullaşdırıcı təşəbbüsləri dinləməyə və birlikdə işləməyə tam hazırıq. Qarşımızda duran yeni çağırışlar fonunda rəqabətqabiliyyətli iqtisadiyyat yalnız texnologiyaya çevik uyğunlaşma və innovasiya açıq yanaşma ilə mümkündür. Bu baxımdan, həm dövlət, həm özəl sektor səviyyəsində rəqəmsal həllər və innovativ texnologiyalara yönəlmiş investisiyaların həcmi və təsir dairəsi artırılmalıdır. Bu, təkcə texnoloji modernizasiya deyil, eyni zamanda yeni iş yerlərinin yaradılması, məhsuldarlığın artırılması və dayanıqlı inkişaf üçün əsas vasitədir” – deyə nazir müavini bildirib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova isə deyib ki, ölkəmizdə qadın və uşaq əməyinin təhlükəsizliyi, işçi hüquqlarının təminatı hər zaman diqqət mərkəzində olan məsələdir. Onun sözlərinə görə, bu məsələ dövlətin, vətəndaş cəmiyyətinin və beynəlxalq qurumların fəaliyyət gündəliyinin əsas istiqamətlərindən biridir.

Dövlət Komitəsinin sədri bu gün Azərbaycanda Böyük Qayıdış prosesi çərçivəsində yeni çağırışların meydana çıxdığını xatırladaraq bildirib ki, insanların “ağıllı kənd”də yaşamağa alışması üçün addımlar atılmalıdır. “Bunun üçün yeni layihələr reallaşdırılmalıdır. Qarabağda yaşayan ailələrin, bərpa və minatəmizləmədə iştirak edən insanların hüquqlarının qorunması da kollektiv müqaviləyə daxil edilməlidir. Qarabağa qayıdan ailələrin, vətəndaşlarımızın məşğulluğunun təmin edilməsi, layiqli və təhlükəsiz iş şəraiti ilə təmin olunması vacib məsələ kimi diqqətdə saxlanılmalıdır” – deyə komitə sədri bildirib.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib ki, beynəlxalq tədqiqatlara əsasən, yüksək texnologiyaların tətbiqi ilə bağlı 2023-cü ilə qədər dünya üzrə, təxminən, 375 milyon insanın yeni ixtisaslara və yeni bacarıqlara yiyələnməsinə ehtiyac yaranacaq ki, bu da ümumi işçi qüvvəsinin təxmini 14 faizini təşkil edir.

Son illər süni intellektin qlobal səviyyədə inkişafı, onun tətbiqi sahələrini daha da genişləndirməklə bir çox sektorlarda köklü dəyişikliklərə səbəb olduğunu xatırladan müvəkkil deyib ki, bu təcrübə, xüsusən də, qərar qəbuletmə prosesində səmərəliliyin və şəffaflığın artırılmasını, idarəetmənin optimallaşdırılmasını, maliyyə xərclərinin minimum endirilməsini və vətəndaşların xidmətlərə çıxışının asanlaşdırılmasını hədəfləyir.

Konfransda iştirak edən Pan Avropa Regional Şurasının (PARŞ) prezidenti, Moldova Həmkarlar İttifaqları Federasiyasının sədri İqor Zubku, BƏT-in baş mütəxəssisi Qoça Aleksandria və PARŞ-ın siyasi məsələlər üzrə məsləhətçisi Anna Salnikova beynəlxalq əmək standartları və tövsiyələrdən bəhs ediblər, əmək hüquqları, əməyin mühafizəsi istiqamətində təmsil etdikləri təşkilatın gördüyü işlər barədə məlumat veriblər.

# Dünya Bankının ölkəmizlə növbəti əməkdaşlığı

## *5 ildə layihələrə 1,5 milyard dollar vəsait ayrılacaq*




**Dünya Bankı Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının xəttilə növbəti 5 il ərzində Azərbaycana 1 milyard ABŞ dollarından 1,5 milyard dollaradək vəsait ayırmaq niyyətindədir.**

Bu barədə DB-nin mediada yayılan məlumatına görə, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının 2025 – 2026-cı illər üçün ilkin maliyyə planına Azərbaycan hökumətinin müraciəti əsasında 5 yeni layihə daxil edilib. Orta illik maliyyələşdirmənin 250-400 milyon dollar həcmində olması nəzərdə tutulub.

Məlumata əsasən, məşğulluğun dəstəklənməsi layihəsinə əlavə olaraq 150 milyon dollar, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi (regional proqram çərçivəsində) 225 milyon dollar, rəqabətqabiliyyətli və dayanıqlı kənd təsərrüfatının, o cümlədən irriqasiyanın inkişafı layihəsinə 400 milyon dollar, Bakının inkişafı layihəsinə 100-300 milyon dollar ayrılması planlaşdırılıb. Bu vəsaitin, təxminən, yarısının 2025-ci ilin iyun ayının sonunadək, qalan hissəsinin isə növbəti maliyyə ilində ayrılacağı qərara alınıb.

Bildirilir ki, gələcəkdə Dünya Bankı Qrupu uzunmüddətli strategiya çərçivəsində əlavə əməkdaşlıq tədbirlərinin müəyyənləşdirilməsi məqsədilə Azərbaycan hökuməti ilə müəyyən layihələrin icrasını planlaşdırır. İlkin dövrdə əsas diqqətin aşağı karbonlu iqtisadiyyata keçid, nəqliyyat əlaqələrinin inkişafı, su resurslarının idarə edilməsi, maliyyə sektorunda islahatlar və rəqəmsal transformasiyaya istiqamətlənmiş analitik dəstəyə yönəldiləcəyi nəzərdə tutulur. Bu, proqramının həyata keçirilməsinin ikinci yarısında yeni investisiya layihələri üçün əsas ola bilər.

Xatırladılır ki, 2024-cü il dekabrın əvvəlində Azərbaycanda Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının ümumi istifadə olunmamış vəsaiti 176,1 milyon ABŞ dolları olmaqla iki kredit proqramı (məşğulluq və nəqliyyat sahələrində) qüvvədə idi.

Azərbaycan Dünya Bankı ilə 1992-ci ildən əməkdaşlıq edir. Bu müddət ərzində Dünya Bankı ölkəyə 52 layihənin həyata keçirilməsi üçün 4 milyard ABŞ dollarından çox vəsait ayırıb.

Azərbaycan Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının səhmlərinin 0,13 faizinə sahibdir ki, bu da 2 min 371 səhm təşkil edir. Onların abunəliyi üçün ölkə hökuməti 286 milyon ABŞ dolları ödəyib. Yaxın vaxtlarda daha 505 səhmin alınması nəzərdə tutulub.

Dünya Bankının neft sektoruna texniki yardım layihəsi ölkəmizin neft sektoruna xarici investisiyaların təşviq olunması üçün məsləhət xidmətlərini maliyyələşdirib və ayrılan vəsaitin həcmi 20,8 milyon dollar təşkil edib. Bura qanunverici bazanın təkmilləşdirilməsi və neft sənayesində çoxsaylı problemlərin həllinə dəstək daxil olub.

Qeyd edək ki, indiyədək Dünya Bankı Azərbaycana 50-dən çox layihə üçün 4,5 milyard dollardan artıq məbləğdə maliyyələşdirmə ayırıb.

# “Zərifə Əliyeva” gəmi-bərəsi Xəzərdə üzən körpüdür



**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Zərifə Əliyeva” gəmi-bərəsinin istismara verilməsindən 3 il ötür. 2022-ci ildən bu il aprelin 1-dək sözügedən gəmi ilə 17 min 908 yük avtomobili daşınıb. Bununla yanaşı, ötən 3 il ərzində gəmi-bərə ilə 337 vaqon, 2 min 94 minik avtomobili və 16 min 970 sərnişin daşınıb.**

Qeyd edək ki, “RoPax” tipli “Zərifə Əliyeva” gəmi-bərəsi Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunub. Gəminin tikilib istismara verilməsinə 3 il vaxt sərf olunub. 30 nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. Gəminin uzunluğu 154,5 metr, eni 17,7 metr, bortunun hündürlüyü 7,5 metr, sürəti isə 14 uzeldir.

“Zərifə Əliyeva” gəmi-bərəsi Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha öndədir. Belə ki, gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər var.

Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə suya buraxılmış gəmi-bərə ilk səfərini 2022-ci il mayın 5-də də Qazaxıstanın Kurık limanına edib. Ümumilikdə, gəmi Aktau – Ələt, Ələt – Aktau, Türkmənbaşı – Ələt, Ələt – Türkmənbaşı, Kurık – Ələt, Ələt – Kurık istiqamətləri üzrə çoxsaylı səfərlər həyata keçirib.

# Yazlıq əkinlər subsidiyalaşdırılır

**Ölkəmizdə yazlıq əkinlər tərəfindən dövlət subsidiyalaşdırılır. Əkin sahələrinin hər hektarına görə Aqrar Subsidiya Şurasının müəyyən etdiyi əmsallara uyğun olaraq fermerlərə subsidiyalar ayrılır.**

Bugünlərdə Kənd Təsərrüfatı Nazirliyi subsidiya almaq istəyən fermerlərə müraciət edərək onları mayın 31-nə qədər yazlıq əkinlərini bəyan etməyə çağırıb. “Öz təsərrüfatlarında pambıq, qarğıdalı, günəbaxan, kartof, yazlıq arpa və buğda, tərəvəz, bostan və s. bitkiləri becərən fermerlər dövlət dəstəyindən yararlanmaq üçün əkinlərini mütləq Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTİS) bəyan etməlidirlər”, – deyə müraciətdə qeyd olunub.



Artıq subsidiya almaq üçün müraciət prosesi tam elektronlaşdırılıb. Elektron müraciətin formalaşması üçün fermerlər EKTİS şəxsi kabinetlərində mülkiyyət və istifadə hüququna dair sənədlərə əsasən qeydiyyatdan keçirdikləri təsərrüfatları (torpaq sahələri) üzrə apardıqları yazlıq əkinlərlə bağlı məlumatları daxil etməlidirlər.

Xatırladaq ki, qanunvericiliyə əsasən, 5 hektardan artıq sahədə aparılan əkinlər aqrokimyəvi analiz və 10 hektarlıq əkinlər, eləcə də yeni salınan meyvə bağları sığorta predmeti hesab olunur. Bu səbəbdən də yazlıq əkin aparan fermerlər torpaq nümunələrindən analiz verməli və əkinlərini 50 faiz dövlət dəstəyi ilə sığortalamalıdırlar.

# I rübdə qeyri-həyat sığortası yığımları çoxalıb

**Mərkəzi Bankın məlumatına görə, cari ilin yanvar – mart ayları ərzində respublikada qeyri-həyat sığortası üzrə sığorta şirkətlərinin yığımları 129,8 milyon manat (2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,8 milyon manat və ya 5,5 faiz çox) təşkil edib.**



Hesabat dövründə, eyni zamanda, qeyri-həyat sığortası üzrə ödənişlərin həcmi 25,6 milyon manat (2024-cü ilin yanvar-mart aylarındakı göstərici ilə müqayisədə 2,1 milyon manat və ya 7,6 faiz az) təşkil edib. Başqa sözlə, 2024-cü ilin birinci rübündə ölkədə qeyri-həyat sığortası üzrə sığorta şirkətlərinin yığımları 123 milyon manat, ödənişləri isə 27,7 milyon manat olub.

Qeyd edək ki, cari ilin birinci rübündə Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 399,1 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz və ya 26 milyon manat çox) sığorta haqqı toplanıb. Yanvar – mart aylarında sığorta şirkətləri tərəfindən 164 milyon manat (illik müqayisədə 10,7 milyon manat, yaxud da 7 faiz çox) ödəniş edilib.

2024-cü ilin birinci rübündə isə Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri tərəfindən 373,1 milyon manat sığorta haqqı toplanıb, 153,3 milyon manat sığorta ödənişi edilib. Hesabat dövründə toplanmış hər 100 manat sığorta haqqından 41,1 manat ödəniş həyata keçirilib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*İhsan Doğramacı – 110*

# Türk dünyasının böyük təbibi



**Türk dünyasının görkəmli alimi, səhiyyə və təhsil qurucusu, Azərbaycan Milli Elmlər Akademiyasının fəxri üzvü, professor İhsan Doğramacının anadan olmasının 110 illiyi ölkəmizdə də sevgi-sayğı ilə qeyd edilir. AMEA-nın Rəyasət Heyətinin binasında dünya şöhrətli təbibin yubileyi münasibətilə keçirilən elmi konfransda onun nəsillərə örnək həyat və yaradıcılığı, xalqımızla və ölkəmizlə sıx bağlılığı diqqət mərkəzində olub.**

Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün, Milli Məclisinin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanovun, AMEA Rəyasət Heyəti üzvlərinin, ölkənin elm ocaqlarının, Azərbaycan Tibb Universitetinin təmsilçilərini iştirak etdiyi məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli İhsan Doğramacının Türk dünyasının son 100 ildə yetişdirdiyi ən önəmli və əfsanəvi şəxsiyyətlərindən biri olduğunu söyləyib. O qeyd edib ki, ünlü təbib və görkəmli alim İhsan Doğramacının Türkiyədə və eləcə də bütün Türk dünyasında səhiyyənin, təhsilin inkişafına verdiyi töhfələr bu gün qürurla, iftixarla xatırlanır.

AMEA rəhbəri İsa Həbibbəyli Türk dünyasının önəmli siması, AMEA-nın fəxri üzvü, professor İhsan Doğramacının 110 illiyinin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi ərəfəsində keçirilməsinin Azərbaycan alimlərinin dünyaşöhrətli şəxsiyyətə və Türk dünyasına olan ehtiramının ifadəsi olduğunu deyib.

Akademik bildirib ki, Türk dünyasın vahid ailə kimi görən İhsan Doğramacı Türkiyədə təhsilin inkişafı sahəsində xidmətləri misilsizdır.

Alimin təşəbbüsü ilə bu gün qardaş Türkiyənin və dünyanın aparıcı ali təhsil müəssisələrindən olan Bilkənd və Hacettepe universitetləri qurulub, Ali Təhsil Qurumu yaradılıb. O, uzun illər Dünya Səhiyyə Təşkilatında Türkiyəni təmsil edib və bu qurumun nizamnaməsinə imza atan şəxslərdən biri olub. İraq türkmanlarının görkəmli nümayəndəsi olan İhsan Doğramacı doğma yurdunda da təhsilin inkişafına, peşəkar tibb ocaqlarının yaradılmasına çalışıb.

Professor İhsan Doğramacının Azərbaycanı ikinci Vətəni kimi qəbul etdiyini və Azərbaycan sevdalısı bir şəxsiyyət olduğunu deyən akademik İsa Həbibbəyli alimlə ümummilli lider Heydər Əliyevin hələ sovet illərindən başlayan sıx dostluq, qardaşlıq bağlarının ömürlərinin sonlarına kimi yüksək səviyyədə davam etdiyini bildirib. Akademik vurğulayıb ki, bu dostluq Azərbaycanla Türkiyə arasında bugünkü birliyin, həmrəyliyin yaranmasında da önəmli olub. İhsan Doğramacı ölkəmizdə də elmin, səhiyyənin inkişafına və tibb üzrə yüksəkixtisaslı kadrların hazırlanması istiqamətində unudulmaz fəaliyyətlərinə görə xalqımızın sonsuz sevgisini qazanıb.

Bütün bunlara görə 1995, 2000 və 2005-ci illərdə görkəmli alimin yubileyləri ölkəmizdə yüksək səviyyədə qeyd edilib. Ulu öndər Heyər Əliyev professor İhsan Doğramacını "İstiqlal", Prezident İlham Əliyev isə Azərbaycanın ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edib. Alimin sağlığında Ömər Eldarovun hazırlandığı heykəl Ulu öndərin iştirakı ilə Bilkənd Universitetində ucaldılıb.

Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün professor İhsan Doğramacının həyatı və fəaliyyəti barədə iştirakçılara məlumat verib. Qeyd edib ki, o, 1915-ci ildə İraqın Ərbil şəhərində türkman ailəsində anadan olub, İstanbul Universitetinin Tibb fakültəsini pediatriya üzrə bitirib. Ankara Universitetində çalışdığı illərdə Uşaq Sağlamlığı İnstitutunu qurub. Professor İhsan Doğramacının həyatının Azərbaycanla sıx bağlı olduğunu deyən səfir, konfransın yüksək səviyyədə təşkilinə görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib.

Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik Əhliman Əmiraslanov böyük müəllimi İhsan Doğramacı ilə ilk tanışlığının Moskvada, 1980-ci illərin əvvəlində Dünya pediatrlarının tədbirində olduğunu, Bakıya bütün səfərlərində onu müşayiət etdiyini söyləyib. O qeyd edib ki, 1992-ci ildə Bakıya səfəri zamanı professor İhsan




Doğramacının təşəbbüsü ilə Azərbaycan Tibb Universitetinin 10 tələbəsi Bilkənd Universitetinə göndərilib və həmin şəxslər sonralar ölkəmizdə səhiyyənin inkişafına mühüm töhfələr vermişlər.

AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynova isə çıxışında professor İhsan Doğramacının Türk dünyasının qürur mənbəyinə çevrildiyini, pediatriya elminin görkəmli nümayəndəsi, Türkiyədə və dünyanın bir sıra ölkələrində təhsil sahəsində inqilabi yeniliklərə imza atmış bir ziyalı olduğunu söyləyib.

ETN-in Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov, Azərbaycan Tibb Universitetinin kafedra müdiri tibb elmləri doktoru, professor Rauf Bəylərov, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Qəzənfər Paşayev və Azərbaycanın Türkiyədə səfiri olmuş Məmməd Əliyev professor İhsan Doğramacı ilə bağlı xatirələrindən, onun Türk dünyasında səhiyyənin, təhsilin, elmin inkişafına verdiyi töhfələrdən danışıblar.

Konfransda Biologiya və Tibb Elmləri Bölməsinin professor İhsan Doğramacının həyatı və fəaliyyəti barədə hazırladığı videoçarx nümayiş olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.

***Tahir AYDINOĞLU***
***XQ***

# Cənub bölgəsinin alimləri



**AMEA-nın Lənkəran Regional Elm Mərkəzi və şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə "AMEA-nın 80 illiyinə həsr olunmuş: regionun görkəmli alimləri" adlı elmi seminar keçirilib.**

Lənkərandakı Heydər Əliyev Mərkəzində təşkil olunan seminarda ilk söz alan şəhər icra hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyinin keçirilməsi ilə əlaqədar 18 mart 2025-ci ildə imzaladığı sərəncamın əhəmiyyətini vurğulayıb, dövlətimizin inkişafına, azərbaycançılıq ideologiyasına töhfələr vermiş görkəmli alimlərin həyat və elmi fəaliyyətinə həsr olunan elmi seminarın işinə uğurlar arzulayıb.

Lənkəran REM-in direktoru Mehman Əliyev giriş nitqində deyib ki, Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi ilə əlaqədar Mərkəz silsilə tədbirlər həyata keçirir. Bu tədbir isə bölgənin və ölkənin 4 böyük aliminə – Azərbaycan dilçiliyinin görkəmli nümayəndəsi, tanınmış türkoloq, şərqşünas, pedaqoq, Əməkdar müəllim, filologiya elmləri doktoru, professor Mirzə Rəhimova, urologiya sahəsində dünya şöhrətli alim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, AMEA-nın müxbir üzvü Sudeyf İmamverdiyevə, ictimai-siyasi xadim, pedaqoq, Əməkdar müəllim, hüquq elmləri doktoru, professor İbrahim Quliyevə və Milli Məclisin deputatı, tibb elmləri doktoru Rəşad Mahmudova həsr olunub. Bu alimləri birləşdirən ortaq simvolik nöqtələr vətəndaşlıq təfəkkürü, azərbaycançılıq məfkurəsi və ulu öndər Heydər Əliyev məktəbinin ən etibarlı müdavimləri olmaları, onun yolunun layiqli davamçısı, Prezident İlham Əliyevin xarici və daxili siyasətini ardıcıl dəstəkləmələridir.

Məruzələrdən əvvəl hər dörd alimin həyat və elmi fəaliyyətini əks etdirən videoçarxlar nümayiş olunub. Sonra Lənkəran REM-in əməkdaşı Səfail Qurbanovun "Professor Mirzə Rəhimovun dilçilik görüşləri", biologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Hüseynovanın "Təbabətdə öz məktəbini yaradan cərrah-uroloq Sudeyf İmamverdiyev", şöbə müdiri Sərraf Talıbovun "Professor İbrahim Quliyevin ictimai-siyasi və elmi fəaliyyəti" və Mərkəzin əməkdaşı Fəranə Mikayılovanın "Dünya şöhrətli ürək-damar cərrahı Rəşad Mahmudovun tibb elminə gətirdiyi yeniliklər" mövzularında məruzələri dinlənilib. Görkəmli alimlərin elmimizə verdikləri töhfələrdən, ictimai-siyasi fəaliyyətlərindən ətraflı bəhs olunub.

Mirzə Rəhimovun qızı, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti Bakı filialının bioloji, humanitar və İctimai elmlər şöbəsinin müdiri, dosent Dürdanə Rəhimzadə AMEA-nın yubileyinə təbriklərini çatdırıb, atası ilə bağlı xatirələrini danışıb, keçən il onun 95 yaşının layiqincə qeyd edildiyini söyləyib və minnətdarlığını bildirib.

Məşhur "91"lərdən olan, YAP Veteranlar Şurasının üzvü Sudeyf İmamverdiyev, hüquq elmləri doktoru, professor İbrahim Quliyev və Milli Məclisin deputatı, məşhur ürək-damar cərrahı, tibb elmləri doktoru Rəşad Mahmudov ürək sözlərini minnətdarlıqla dilə gətiriblər.

Tədbirdə Lənkəranın ictimaiyyət, elm, təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin nümayəndələri, Lənkəran Dövlət Universiteti və Lənkəran Tibb Kollecinin tələbələri iştirak ediblər.

***Ə.ƏLİYEV***
***XQ***

## Yeni kitablar

**Həyatını bütünlüklə söz sənətinə xidmətə həsr edən filologiya elmləri doktoru, professor Vaqif Yusiflinin yenicə çapdan çıxmış "Qarabağ şeirimizdə, nəsrimizdə" adlı kitabında müəllifin silsilə məqalələri yer alıb.**

Toplunu vərəqlədikcə Vaqif Yusiflinin təkbaşına, ən azı, bir şöbənin görə biləcəyi işin öhdəsindən gəldiyi görünür. Müəllif müəyyən bir ardıcıllıq prinsipini əsas götürüb və məqalələr bir-birinin davamı kimi oxucu qarşısına çıxarılıb. Cəfakeş alimin təqdimatında təkcə 90-cı illərdən bugünümüzə qədər

# Zəfər qanadlı duyğular

olan Qarabağ mövzusu deyil, ondan öncəki dövrlər də nəzərdən keçirilib. Yazılarda Xalq şairləri Bəxtiyar Vahabzadə, Süleyman Rüstəm, Xəlil Rza, Qabil, Məmməd Araz, Fikrət Qoca, Cabir Novruz, Mirvarid Dilbazi, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, eləcə də digər bədii söz ustalarının hələ işğal dönəminə qədər qələmə aldıqları Qarabağ mövzusu günümüzün reallığı baxımından şərh olunub.

Professor Vaqif Yusiflinin araşdırdığı Qarabağla bağlı poeziya nümunələrində təbii kədər, ağrı-acı, faciə notları ilə yanaşı, böyük Zəfərin qazanılacağına möhkəm əminlik var və son 5 ilə aid əsərlər də xalqımızın ümidinin inama, inamının isə parlaq qələbəyə çevrildiyini bədii boyalarla göstərir. Bu baxımdan Məmməd Aslanın, Əşrəf Veysəllinin, Əli Mahmudun, Ələmdar Quluzadənin, Vaqif Bəhmənlinin, Adil Cəmilin və digərlərinin yaradıcılıq nümunələrində şeirin inandırmaq gücü önə çəkilib. Məqalələrdə bu amil lazımınca qabardılıb və alimanə şəkildə təhlil-təqdir edilib.

Böyük oxucu auditoriyası üçün nəzərdə tutulmuş maraqlı məqalələr toplusu milli-mənəvi dəyərimiz sayılan Qarabağ mövzusunun əbədiliyinin təsdiqi kimi də önəmlidir. Bir daha görürük ki, həm Vaqif Yusifli, həm də kitabda şeir və nəsr əsərləri sərf-nəzər olunan müəlliflər bu mövzunun xalqımızın qan yaddaşında həmişəlik yer tutduğunu bəlirlədiblər.

Kitabda Musa Ələkbərli, Vaqif Aslan, Adil Şirin, Rafael Tağızadə, Elçin İskəndərzadə, Mətləb Misir, Tahir Rza, döyüşçü-şair Emin Pirinin zəfər qanadlı, yaddaqalan poeziya nümunələrinə də diqqət cəlb olunub. Nəsr bölümündə isə Aqil Abbas, Mustafa Çəmənli, Elçin Hüseynbəyli, Hüseynbala Mirələmov və digər qələm sahiblərinin son illərə aid povest və romanlarına müəllifin maraqlı baxış bucağından işıq tutulub.

Vaqif Yusifli ayrı-ayrı nəsr və poeziya nümunələri əsasında təhlillər aparmaqla bərabər, bizdə dissident ədəbiyyatının olub-olmadığına da özünün ümumi icmalları ilə cavab verib, hələ senzuranın qılıncının çox iti olduğu dövrlərdə şeir və nəsrimizdə məhz kimin Qarabağın halal-hümmət sahibi olduğuna dair açıq-gizli qənaətlərin ifadə edildiyini bildirib.

Müəllif, eyni zamanda, obyektiv olaraq, Qarabağ müharibəsi və döyüşçü psixologiyasının hələ də hərtərəfli şəkildə nəsrimizdə əksini tapmadığını təəssüflə qeyd edir, bu mənada, nəsrin publisistika və poeziyadan geri qaldığını bildirir. Əlbəttə, ayrı-ayrı nəsr əsərlərində bu, özünü göstərir, amma daha geniş aspektdə olmasını gözləyirik.

Görkəmli tənqidçi, filologiya elmləri doktoru, AMEA Ədəbiyyat İnstitutu Ədəbi Tənqid şöbəsinin müdiri Vaqif Yusiflinin ədəbi prosesi özünəxas diqqətlə izləməsinin




nəticəsi kimi ərsəyə gələn bu kitabı da müasir tənqidimizin uğuru kimi dəyərləndirilir. Məsələn, Bəsti Əlibəyli yazır ki, Vaqif müəllim yarım əsrlik fəaliyyəti boyunca daim ədəbiyyatın və yazıçının yanında dayanıb. Müəlliflərə, mətnlərə yuxarıdan-aşağı baxıb kiçiltməklə öz eqosunu önə çıxarmayıb. Belinskini sevən, Yaşar Qarayev məktəbindən keçən obyektiv, vicdanlı bir tənqidçi kimi, mətnin dediklərini və bundan duyduqlarını yazıb. Onun dil və ifadə tərzi tənqidimizin ən aydın dilidir, desək, yəqin ki, səhv etmərik. Bütün məziyyətləri ilə Vaqif müəllimin tənqidi müəllif, mətn və oxucu arasında etibarlı, tolerant və dominant təbiətli sağlam, dayanıqlı bir körpüdür.

Nəhayət, qeyd edək ki, "Vektor" Beynəlxalq Nəşrlər Evi tərəfindən nəşr olunmuş toplu Azərbaycan Yazıçılar Birliyi regional bölməsinin "Qarabağ kitabxanası" seriyasından çap olunub. Kitabın elmi redaktoru və ön sözünün müəllifi AYB-nin Qarabağ bölməsinin sədri, professor Elçin İskəndərzadədir.

Professor Vaqif Yusiflinin "Qarabağ şeirimizdə, nəsrimizdə" məqalələr toplusunu da ədəbi ictimaiyyətin maraqla qarşılayacağına inanırıq.

***Ə.DOSTƏLİ***
***XQ***

# Xivə festivalının Qran-prisini Azərbaycan qazanıb



**Qədim Xivə şəhərində UNESCO və ICESCO-nun himayəsi ilə 2-ci Türk Dünyası Mədəniyyət Forumu və festivalı başa çatıb.**



Azərbaycanın Özbəkistandakı səfirliyi nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli forumdakı məruzəsində bildirib ki, bu gün düzənlənən bu forumun əsas istiqaməti məhz qeyri-maddi mədəni irsin – dil, musiqi, folklor, ənənələr, sənətkarlıq kimi dəyərlərin qorunması və paylaşılmasıdır. Bu forum bizə ortaq türk dilini formalaşdırmaq imkanı verir. Sevindirici haldır ki, çıxışların böyük əksəriyyəti türk dilinin müxtəlif ləhcələrində səsləndirilir və ortaq türk dilinin formalaşmasına zəmin yaradır.

Forum çərçivəsində keçirilən "Yeni Özbəkistanda baxşı sənəti: Müasir tədqiqatlar və perspektivlər" elmi konfransında AMEA Folklor İnstitutunun direktoru, dosent Hikmət Quliyev, institutun dosentləri Aynur İbrahimova və İlhamə Qəsəbova, Beynəlxalq Muğam Mərkəzinin direktoru Sahib Paşazadə çıxış edərək tük xalqları mədəniyyətinin öyrənilməsi ilə bağlı önəmli mövzulardan söz açıblar.

Konfransda AMEA Folklor İnstitutu ilə Daşkənddəki Yunus Rəcəbi adına Özbək Milli Musiqi Sənəti İnstitutu arasında əməkdaşlığa dair sənəd imzalanıb.

***

Forum çərçivəsində keçirilən festivalın münsiflər heyətində Azərbaycan aşığı Samirə Əliyeva da olub. Qran-pri isə "Şirvan" Aşıq Qrupuna və Aşıq Qəlbinur İbrahimliyə verilib. Mükafatı Özbəkistanın mədəniyyət naziri Azadbek Nazarbekov təqdim edib.

Birinci yerə Özbəkistan və Türkmənistan nümayəndələri layiq görülüblər. İkinci mükafat Özbəkistan və Qazaxıstan nümayəndələrinə verilib. Üçüncü yeri Rusiya, Özbəkistan və Monqolustan sənətçiləri tutublar. Festivalda iştirak edən musiqi kollektivlərinə həvəsləndirici mükafatlar verilib.

***Qulu KƏNGƏRLI,***
***XQ-nin Türküstan müxbiri***

**Xivə**

Gəlimli-gedimli dünya

# “Saz üstündə köklənmişəm...”

**Onun ömrü maraqlı bir kitaba bənzəyir. Həyat və yaradıcılığı haqqında oxunaqlı bir kitab yazmaq olar. Amma bir məqalədə onun bütün yaradıcılığı haqqında oxucuda geniş təsəvvür yaratmaq mümkünsüzdür. Ömür kitabına vurduğu naxışlar, yaradıcılığında qoyduğu izlər bir qəzet məqaləsinə sığan deyil. Elxan Məmmədlinin özü də yerə, göyə sığan adam deyildi, axı!**

O, əvvəlcə Azərbaycan radiosunda “Bulaq” verilişinin aparıcı müəlliflərindən biri kimi fəaliyyətə başladı. Yaradıcı ömrünün on ildən çoxunu “Bulağ”a həsr etdi. Sonra isə fəaliyyətini AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun folklor şöbəsində davam etdirdi. Həmin dövrdə tədqiqatçı-alim kimi bir sıra folklor nümunələrinin işıq üzü görməsində yorulmadan çalışdı. İki cilddən ibarət “Azərbaycan aşıqları və el şairləri”, “Azərbaycan bayatıları”, “Cinaslar”, “Bayatı, qoşma, təcnis”, “Borçalı şair Nəbi” adlı kitabların tərtibi və toplanması da onun əməyinin məhsuludur. Daha sonra üçcildlik “Borçalı folkloru” kitablarını nəşr etdirdi.



O, aşıq sənətinin təbliğinə bir ömür həsr etdi. Ona görə insanların ürəyinə yol tapa bildi. Folklorumuzun gözəl bilicisi idi. "Azərbaycan aşıq yaradıcılığında təcnis" mövzusunda namizədlik dissertasiyasını müdafiə etdi və filologiya elmləri namizədi alimlik dərəcəsi aldı. Ömrünün sonunadək – uzun illər AMEA-nın Folklor İnstitutunda "Aşıq yaradıcılığı" şöbəsinin müdiri işlədi.

...İllər ötəcək, özü həyatda olmasa da, onun nəcib insani sifətləri çoxlarının yadında qalacaq. Bu da Elxan müəllimin özündən sonra övladları üçün qoyub getdiyi dəyərli bir irsdir. Sadəliyi, səmimiyyəti, təvazökarlığı, dostcanlılığı və yaxşı işi ilə çalışdığı kollektivin və əhatəsində olan insanların hörmətini qazandı. Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı çağdaş Azərbaycan folklorçuları içərisində Elxan Məmmədli qədər xalqla yaxın ünsiyyətdə olan ikinci bir araşdırmaçının olmadığını qeyd edir: “Sazdan-sözdən söhbət gedən elə bir məclis olmaz ki, orada Elxan Məmmədli xatırlanmasın. Bu sahənin ən mübahisəli, qa¬ran¬lıq problem¬lə¬ri¬nin aydınlaşmasında onun faktoloji biliyi hər zaman həlledici olur. Elxan sazı və bütövlükdə aşıqlığı ustad aşıqların özü səviyyəsində bilir. Mən dəfələrlə müşahidə etmişəm ki, onun olduğu saz-söz məclislərində aşıqlar öz çalğı və oxumalarına xüsusi həssaslıqla yanaşırlar”.

O, təbiəti etibarilə mehriban və ünsiyyətcil idi. Saz sənətinin sirlərinə bələdliyi gendən, qandan və Borçalı kökənli olmasından irəli gəlirdi. Bir tərəfdən yaşadığı şəhər mühiti ilə, bir tərəfdən də köksündə boy atdığı Borçalı mahalı ilə sıx təmasda olurdu. Bu da bir həqiqətdir ki, o, gözünü açıb Borçalının Aşıq Hüseyn Saraclı, Əmrah Gülməmmədov, Kamandar Əfəndiyev kimi ustad aşıqlarını görmüşdü. Həm də öz atası Hüseynqulu Məmmədlidən ustad dərsi almışdı. Hüseynqulu müəllimin Qorqudşünaslığa dair kitabı və çoxsaylı məqalələri də nadir estetik fölklor nümunələridir. Elxan Məmmədlinin folklorşünas alim kimi yetişməsində Hüseynqulu müəllimin təsiri az olmamışdır desək, yanılmarıq.

Dünyadan köçüb gedən hər adamdan nişanə qalmır. Xoş o insanın halına ki, özündən sonra ondan qiymətli bir nişanə qalır. Elxan Məmmədlidən qalan nişanələr 40 illik bir tarixə söykənir. Azərbaycan radio və televiziyasında “Bulaq”, “Ustadnamə”, “Sazın-sözün sehrində”, “Gözəlləmə” və “Sarıtel” verilişlərinin müəllifi və aparıcısı idi. Onun “Sarıtel” verilişi daha çox dinləyicilərin ürəyindən xəbər verirdi. Mən “Sarıtel”i maraqla izləyir, hər verilişi intizarla gözləyirdim. “Sarıtel” Elxan Məmmədlinin yaradıcılığının əsas qollarından biri idi. Bu, onun yaradıcılığına yaxından bələd olmaq üçün bir açardır. Onun verilişləri də özü kimi, sözü kimi bəzəksiz, düzəksiz olurdu. Verilişboyu ürəyindəkiləri dilə gətirirdi. “Sarıtel” sərin sulu, şəffaf bir dağ çeşməsinə bənzəyirdi. Qayaların arasından sızaraq üzə çıxan, qaynayan bu çeşmənin suyundan min-min insanlar “içirdi”. Ömrünün sonuna kimi bu çeşmənin suyundan dinləyicilərə pay verdi. Sözü-söhbəti könüllərdən bahar nəğmələri kimi süzülüb keçdi.

Elxan Məmmədlini lap uşaq vaxtlarımdan tanıyırdım. Doğmalığımızın yaşı qədimdir desəm, yalan olmaz. O, rəhmətlik şəhid qardaşım Almazın uşaqlıq dostu idi. Yaxşı yadımdadır, qardaşımla bizim kənd evimizə gələrdi. Qardaşımın qarmonunda gözəl saz havaları ifa edərdi. Məni harada görsə, həmişə kiçik qardaş kimi isti ürəklə dindirirdi. Aramızda qırılmaz könül bağları vardı. Son illərdə ünsiyyətimiz daha sıx olurdu.

Aşıq sənəti ilə bağlı ülvi xidmətləri həmişə xalq tərəfindən yüksək qiymətləndirilirdi. Dövlətimiz tərəfindən də “Əməkdar mədəniyyət işçisi” kimi fəxri ada layiq görüldü.

Elxan Məmmədli xaraktercə nikbin adam idi. Daim üzü gülərdi, xoş danışar, xoş dillənərdi. Amma vəfalı və cəfalı ömür-gün yoldaşı Səfiyyə xanımın vəfatından sonra qəhər dilində düyün saldı. Ona həm bir ömür-gün yoldaşı, həm də bir həkim kimi qayğı göstərən Səfiyyə xanımın ayrılığına dözə bilmirdi, xiffət edirdi. Doğru deyiblər ki, su axar, çuxuru tapar. Elxan müəllimlə Səfiyyə xanım bir-birinə çox gözəl yaraşırdı. Uzun illərin əzab-əziyyətindən, çətinliklərindən keçib gəlmişdilər. Mən tələbəlik illərində dəfələrlə onların evində qonaq olmuşdum. Səfiyyə xanımın çayından içmişdim, süfrəsində çörək kəsmişdim. Onların ailə ocağını həyat ətri, insan nəfəsi, körpə gülüşü bəzəyirdi. Övladları Xuramanın, Elnurun uşaqlıq çağları hələ də gözlərim önündə canlanır. İndi Xuraman həkim, Elnur isə böyük bir kollektivin rəhbəridir. Özlərinin də nümunəvi ailələri var.

Səfiyyə xanımın vəfatından sonra övladları, nəvələri hər zaman Elxan müəllimin yanında olsalar da, təkliyin qüssəsini özü təkcə çəkirdi. Bunu övladlarına və nəvələrinə hiss etdirmirdi. Səksən yaşına yenicə qədəm qoyanda dostlarına deyirmiş ki, bəlkə də səksəni tamamlamaq mənə qismət olmayacaq...

...Bəd xəbər quş qanadlı olur, deyirlər. Elxan Məmmədlinin qəfil ölümü doğmalarını, dostlarını çox kədərləndirdi. O, 1946-cı ilin soyuq bir qış günündə Borçalının Faxralı kəndində dünyaya gəlmişdi. Dünyadan köçməyi isə Bakıda, bir bahar günündə oldu, bahar nəğməsi kimi oldu... Beləcə, ilk baharda bir yaz mehi kimi bizdən ayrıldı, sazdan ayrıldı Elxan Məmmədli.

Bu günlərdə qardaşı Eldar müəllim Elxan Məmmədlinin öz səsində bir neçə şeirini mənə göndərdi, dinlədim. Deyirdi:

**Saz üstündə köklənmişəm,**
**Özgə kökə yatammaram...**

Doğrudan da, Elxan Məmmədlinin ruhu saz üstündə köklənmişdi. Saz-söz məclislərinin yaraşığı idi. Harda saz vardı, orda Elxan müəllim məclislərin başında olardı. Sözü-söhbəti nağıllara, dastanlara sığmazdi. Ədəb-ərkan məclislərindəki danışığı özündə dərin mənaları, müqəddəs hissləri ehtiva edirdi.

Sazla baş-başa yaşayıb ömrünün səksəninci baharına qədəm qoymuşdu. Onun ömrü gələcək nəsillərə örnək ola bilən bir ömür idi.

**P.S. Bu gün vəfatından 40 gün ötür, saz üstündə köklənən ruhuna min rəhmət, Elxan Məmmədli!..**

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

İmmunlaşdırma həftəsi

# Kütləvi peyvənd sağlam nəsil deməkdir

**Peyvəndlər uşaqları, xüsusilə immun sistemi zəif körpələri ciddi fəsadlardan qoruyur. Azərbaycanda immunlaşdırma proqramı dövlət tərəfindən dəstəklənir və peyvəndlərlə idarə olunan xəstəliklərin azaldılmasına yönəlib. Uşaqlar arasında profilaktiki peyvəndlər Səhiyyə Nazirliyinin təsdiq etdiyi Peyvənd təqviminə əsasən həyata keçirilir. Uşaqlar ilk iki peyvəndi doğum evində alırlar. Sonra isə onlar yaşadığı ərazi üzrə tibb müəssisəsində qeydiyyata alınaraq 2 aylıqdan 6 yaşa qədər təqvimə uyğun profilaktiki peyvənd edilirlər.**

“Leyla” Klinikasının pediatriya şöbəsinin müdiri Sahib Cəfərov XQ-yə müsahibəsində vaksinasiyanın vacibliyindən və peyvənd vasitəsilə qarşısı alınan xəstəliklərdən danışdı:

– Uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən immunoprofilaktika Azərbaycanda səhiyyə sisteminin əsas prioritetlərindən biridir. İmmunoprofilaktika proqramı körpə və uşaq ölümünün, eyni zamanda, xəstələnmə səviyyəsinin azaldılmasına yönəlmiş ən vacib sənəddir. Azərbaycanda hazırda aparılan immunoprofilaktika tədbirləri nəticəsində bir sıra xəstəliklərin yayılma səviyyəsi xeyli azalıb, bir neçəsi isə eliminasiya olunub. Ölkəmizdə hər il aprel ayında təşkil edilən immunlaşdırma həftəsi artıq başa çatdı.

Peyvənd təqviminə uyğun olaraq 6 yaşadək uşaqlar arasında 11 yoluxucu xəstəliyə qarşı vaksinasiya aparılır. Bunlar Hepatit B, vərəm, difteriya, göyöskürək, tetanus, poliomielit, b tipli hemofil infeksiya, pnevmokok infeksiyaları, qızılca, epidemik parotit, məxmərəkdir. Peyvəndlər insanları qeyd edilən həmin xəstəliklərdən qoruyur. Azərbaycana UNICEF xətti ilə gətirilən bütün vaksinlər Ümumdünya Səhiyyə Təşkilatının təhlükəsizlik və effektivlik standartlarına cavab verir.

Uşaq peyvəndlə qarşısı alına bilən xəstəlik keçirdikdən sonra, ona yenə də vaksin vurulmalıdır. Peyvənd uşağı eyni xəstəliyi törədə biləcək mikrobun bir çox serotiplərindən qoruyur. Məsələn, pnevmokok əleyhinə peyvənd uşağı pnevmokok bakteriyasının 13 serotipindən qoruyur. Qızılca keçirən uşağı qızılca–parotit–məxmərək əleyhinə QPM vaksini, eyni zamanda, epidemik parotit və məxmərək xəstəliklərindən də qoruyaçaq. Heksavaksin uşaqları difteriya, göyöskürək, tetanus, b tipli hemofil infeksiya, hepatit B, poliomielitdən qoruyur. Uşaq bu xəstəliklərdən hər hansı birini keçiribsə belə, o, digər infeksiyalara yoluxmamaq üçün bu peyvəndi təqvimə uyğun nəzərdə tutulmuş intervallarla 3 dəfə almalıdır.



S.Cəfərov vurğuladı ki, uşaq doğulduqda onun immun sistemi bir çox mikroblara müqavimət göstərə bilir:

– Lakin onların arasında daha təhlükəli mikroblar var ki, uşaq onlara qarşı həssas olur. Məhz belə mikroblara qarşı erkən yaşlardan uşağın immun sistemini gücləndirmək üçün peyvəndlərdən istifadə olunur. Bəzi səbəblərdən peyvəndlər vaxtında vurulmur. Onlar da müəyyən yaş həddinə qədər vurulmalıdır. Ən yaxşısı vaxtında poliklinikaya müraciət edib, peyvəndləri etdirməkdir.

Kombinə edilmiş peyvəndlərdən istifadə daha məqsədəuyğundur. Çünki kombinə edilmiş vaksin bir inyeksiya ilə vurulsa da, uşağı bir neçə infeksiyadan qoruyur. Bu, həm uşaq üçün ağrılı olan inyeksiyaların sayını azaldır, həm də valideynlərin tibb müəssisəsinə dəfələrlə gəlməsinə ehtiyac qalmır.

Hazırda Azərbaycanda tətbiq edilən kombinə edilmiş vaksinlərə QPM (qızılca, parotit, məxmərək əleyhinə), DT (difteriya, tetanus əleyhinə), GDT (göyöskürək, difteriya, tetanus əleyhinə) və Heksavaksin (göyöskürək, difteriya, tetanus, Hepatit B, B tipli hemofil infeksiya və poliomielit əleyhinə) peyvəndləri daxildir.

Vaxtından əvvəl doğulan uşaqlar anadan daha az qoruyucu anticisimlər alır. Buna görə də həmin uşaqlarda yoluxucu xəstəliklərdən müdafiə aşağı səviyyədə olur və yoluxma ehtimalı artır. Bu səbəbdən də vaxtından əvvəl və ya az çəki ilə doğulan körpələr pediatrın təyinatı əsasında profilaktik peyvənd təqviminə uyğun peyvənd olunurlar.

***Söhbəti hazırladı:***
***Zərifə BƏŞİRQIZI***
***XQ***


## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

*vakant yerlərə*

## MÜSABİQƏ ELAN EDİR

Elmi-tədqiqat müəssisəsində işləmək üçün 1 nəfər aparıcı mütəxəssis və 5 nəfər mühəndis tələb olunur.

Aparıcı mütəxəssis üçün tələblər: fəlsəfə doktoru elmi dərəcəsi olan və ya 5 ildən az iş stajı olmayan elmi işçi, Azərbaycan və rus dillərində sərbəst danışa bilmək, kompüter proqramları üzrə işləmək bacarığı.

Mühəndis vəzifəsi üçün tələblər: magistratura pilləsini bitirmiş, xarici dillərdə danışıq bacarığı, punktual və şəxsi inkişafa yönümlü, “Windows ” əməliyyat sistemi, “MS Office Word”, “Excel”, “PowerPoint”, “Outlook”, proqramları və layihə işlərində “Archicad”, “Autocad” və sair proqramları bilmək bacarığı.

Yuxarıda qeyd olunan tələblərə uyğun namizədlərdən CV-lərini azimeti@arxkom.gov.az elekton ünvanına göndərmək xahiş olunur.

Əlaqə nömrəsi -012-596-37-28 (daxili 203, 240).

Ünvan - Bakı şəhəri, Füzuli küçəsi 65.



## “Neftqazmaş” ASC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

manatla

| AKTİVLƏR | 2024-cü il | 2023-cü il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 1.924.814 | 2.245.047 |
| Qeyri-maddi aktivlər | 886 | 985 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | ***1.925.700*** | ***2.246.032*** |
| Ehtiyatlar | 1.124.798 | 1.327.346 |
| Qısamüddətli debitor borcları | 429.431 | 41.648 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 285.435 | 300.170 |
| Sair qısa müddətli aktivlər | 58.318 | 42.928 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | ***1.897.982*** | ***1.712.092*** |
| **CƏMİ AKTİVLƏR** | **3.823.682** | **3.958.124** |
| **KAPİTAL** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 767.890 | 767.890 |
| Kapital ehtiyatları | 1.142.571 | 1.256.531 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 989.341 | 338.374 |
| **CƏMİ KAPİTAL** | **2.899.802** | **2.362.796** |
| **ÖHDƏLİKLƏR** | | |
| Bank kreditləri | 0 | 331.000 |
| CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | **0** | **331.000** |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 242.956 | 130.822 |
| Qısamüddətli kreditor borcları | 209.536 | 445.996 |
| Sair qısamüddətli öhdəliklər | 424.963 | 424.963 |
| Dvidendlər üzrə təsisçilərə borclar | 46.425 | 262.547 |
| CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR | ***923.880*** | ***1.264.327*** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **923.880** | **1.595.327** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3.823.682** | **3.958.123** |



## “Neftqazmaş” ASC səhmdarlarının nəzərinə!

13 iyun 2025-ci il saat 17.00-da “Neftqazmaş” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Sabunçu rayonu, I Zabrat qəsəbəsi, Oktyabr küçəsi-29 nömrəli ünvanda “Neftqazmaş” ASC-nin iclas zalında keçiriləcəkdir.

İclasın gündəliyi:

I. Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabatı.

II. Mənfəətin bölüşdürülməsi.

III. Direktorlar şurasının tərkibinin və sədrinin seçilməsi.

IV. İdarə heyətinin tərkibinin və sədrinin seçilməsi.

V. Təftiş komissiyasının tərkibinin seçilməsi.

Telefon - (012) 5502341, (012) 5502361.



## “Bakı Ofset Kombinatı” ASC səhmdarlarının nəzərinə!

19 iyun 2025-ci il saat 10.00-da Bakı şəhəri, Nəsimi rayonu, A.Məhərrəmov küçəsi 4 nömrəli ünvanda “Bakı Ofset Kombinatı” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi .
2. Digər məsələlər.

**Əlaqə telefonu- (050-209-29-15 ).**



## “Kürdəmir Taxıl” ASC səhmdarlarının nəzərinə!

20 iyun 2025-ci il saat 11.00-da Kürdəmir şəhəri, Bakı prospekti 6 nömrəli ünvanda “Kürdəmir Taxıl” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2024-cü il üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi .
2. Digər məsələlər.

**Əlaqə telefonu- (070) 313-99-62.**



## “Bakıtikişsənaye” ASC səhmdarlarının nəzərinə!

14 iyun 2025-ci il saat 16.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Həsən Əliyev küçəsi 1008-ci məhəllədə keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin 2024-cü il üçün illik maliyyə hesabatı .
2. Dividendlərin verilməsi.
3. Sair məsələlər.

Əlaqə telefonları- (012) 440-02-43.

***Direktorlar şurası***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 85 (30779) 29 aprel 2025-ci il, çərşənbə axşamı

İdman

# “Baku Open – 2025” şahmat festivalı




**Azərbaycan Şahmat Federasiyası ilə Gənclər və İdman Nazirliyinin dəstəyi ilə təşkil edilən “Baku Open – 2025” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilib.**

“Bakı Kristal Zal”ın Sərgi Mərkəzində keçirilən mərasimdə iştirak etmək üçün Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadi Dvorkoviç, FIDE rəsmisi, ikiqat dünya çempionu, Ümumdünya Şahmat Olimpiadasının qalibi Çju Çen, Türkiyə Şahmat Federasiyasının prezidenti Fethi Apaydın Bakıya gəlib.

Yarışın açılış mərasimində Azərbaycan Şahmat Federasiyasının Prezidenti Mahir Məmmədov, gənclər və idman naziri Fərid Qayıbov, Beynəlxalq Şahmat Federasiyasının prezidenti Arkadiy Dvorkoviç çıxış ediblər.

Xatırladaq ki, festivalın ümumi mükafat fondu 55 min ABŞ dollarına bərabərdir. Yarışda 16 ölkədən 700-dən çox şahmatçı iştirak edir. Turnir çərçivəsində həm də veteran şahmatçılar arasında Azərbaycan çempionatı keçirilir.

Festival, həmçinin “Chess Tour Azerbaijan” layihəsinin tərkibinə də daxildir. Aprelin 27-dən start götürən turnir mayın 7-dək davam edəcək.

# Latviyada 4 medal




**Azərbaycan kikboksçuları Latviyanın Riqa şəhərində keçirilən WAKO (Latvia Open) yarışında 3 qızıl, 1 gümüş medal qazanıblar.**

İkiqat Dünya və Avropa çempionu, Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin üzvü Rafiq Babazadə (57 kq, K-1) gənclər arasında birinci yeri tutub. Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzinin idmançısı Ayxan Həsənov (81 kq, 86 K-1) böyüklər arasında iki qızıl medal, Avropa çempionu Oqtay İsmayılov isə gənclər arasında (60 kq, K-1) gümüş medal qazanıblar. Ayxan Həsənov Fövqəladə Hallar Nazirliyinin İdman Sağlamlıq Mərkəzinin məşqçisi Elşən İsayevin tələbəsidir.

*L.AZAD*
*XQ*

“Prezident Kuboku–2025”

# Beynəlxalq Reqata Füzulidən start götürdü







**Gənclər və İdman Nazirliyi (GİN) ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı əsasında ümummilli lider Heydər Əliyevin 102-ci ildönümünə həsr olunan “Prezident Kuboku–2025” beynəlxalq reqatası başlayıb.**

Dünən beynəlxalq reqata çərçivəsində Füzuli sakinləri üçün xüsusi aksiya keçirilib. Köndələnçay su anbarında peşəkar avarçəkənlərin nümunəvi çıxışları olub, uşaq və yeniyetmələr üçün viktorinalar təşkil edilib. **Avropa Kanoe Assosiasiyasının prezidenti Jan Zunqrana** Füzuli sakinləri üçün təşkil edilmiş xüsusi tədbirdən sonra jurnalistlərə açıqlamasında Azərbaycan torpaqlarında olmasından məmnunluq hissi duyduğunu bildirib. O vurğulayıb ki, bu, onun Füzuliyə növbəti gəlişidir. Füzulini daha yaxından tanımaq istədiyini bildirən qurum rəsmisi, reqatada iştirakın onun üçün xüsusi önəm daşıdığını deyib: “Bu tədbirin avarçəkmə ilə məşğul olmaq istəyən Füzuli sakinləri üçün əhəmiyyətini yüksək qiymətləndirirəm. Ölkəniz 20-dən çox dövlətin idmançılarının iştirakı ilə nüfuzlu yarışa evsahibliyi edəcək. Azərbaycan bu turnirin təşkilindən sonra önəmli təcrübə qazanacaq. Ölkəniz gələcəkdə Avropa çempionatına da evsahibliyi etməyə qadirdir. Texniki heyətimiz də bu həftənin sonuna qədər Mingəçevirin idman obyektlərinə baxış keçirmək məqsədilə burada olacaq”.

**Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının mətbuat katibi Vüsal Qurbanov** ötən il Füzuli şəhərinin işğaldan azad olunması günü münasibətilə, oktyabrın 17-də Aşağı Köndələnçay su anbarında avarçəkmə üzrə “Mingəçevir Reqatası–2024”ün rəsmi açılış mərasimi təşkil olunduğunu xatırladıb: “Beynəlxalq reqata çərçivəsində yerli sakinlər üçün keçirilən xüsusi tədbir böyük maraq doğurdu. Tədbirdə əsas məqsəd Füzuli sakinləri üçün idman bayramı təşkil etməkdir. Füzuliyə köç edən sakinlərə peşəkar məşqçilərin nəzarəti altında həvəskar qayıqlarda avar çəkmək imkanı yaradıldı. Uşaqlar və yeniyetmələr maraqlı viktorinalarda iştirak etdilər. Qaliblər federasiya tərəfindən mükafatlandırıldı”.

Vüsal Qurbanov onu da əlavə edib ki, mayın 2-də Mingəçevirdə “Kür” Olimpiya Tədris-İdman Mərkəzinin qarşısında “Prezident Kuboku–2025” beynəlxalq reqatasının bağlanış mərasimi keçiriləcək. Bağlanış mərasimində əvvəlcə qaliblər mükafatlandırılacaq. Kayak-kanoe və akademik avarçəkmə üzrə kuboklar sahiblərinə təqdim ediləcək. Daha sonra bağlanış mərasimi bədii hissə ilə davam edəcək. Bədii hissədə müxtəlif şou proqramlar, tanınmış rəqs qruplarının çıxışları və konsert proqramı tamaşaçılara əsl bayram ab-havası yaşadacaq. Reqataya hər zaman olduğu kimi, möhtəşəm atəşfəşanlıqla yekun vurulacaq.

Qeyd edək ki, “Prezident Kuboku–2025” beynəlxalq reqatasının rəsmi paradı və komandaların təqdimatı aprelin 29-da Mingəçevir şəhəri, Heydər Əliyev prospektində keçiriləcək. Aprelin 30-da Qarabağın daha bir dilbər guşəsi olan Suqovuşanda “Prezident Kuboku–2025” beynəlxalq reqatasının rəsmi açılış mərasimi və 200 metr məsafədə yarışlar olacaq. Reqata mayın 1–2-də Mingəçevir “Kür” Olimpiya Tədris-İdman Mərkəzində davam edəcək. Burada komandalar avarçəkmənin kayak, kanoe və akademik növündə müxtəlif məsafələrdə mübarizə aparacaqlar. 20-dən artıq ölkədən 200-dən çox idmançının iştirak edəcəyi reqata mayın 2-də başa çatacaq.

Xatırladaq ki, “Prezident Kuboku” reqatası ardıcıl üçüncü ildir Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib.

*L.QURBANOVA*
*XQ*

SAĞLAMLIQ

# Süfrədə soğan – yeyən qalar cavan



**Yaşıl soğan həm ləzzətli, həm də sağlamlıq üçün faydalı məhsuldur.**

Tərkibindəki C vitamini ilə soğan insanın immun sistemini gücləndirir və xəstəliklərə qarşı müqavimət qazandırır, qış aylarında qrip və soyuqdəymədən qoruyur. Liflə zəngin olduğundan həzm sisteminin müntəzəm işləməsinə kömək edir, qəbizlik və mədə problemlərində faydalıdır.

Göy soğanın tərkibindəki natrium qan təzyiqini tənzimləyir, antioksidantlar və flavonoidlər arterial damarlarda xəstəlik riskini azaldır. Müntəzəm yeyildikdə təzə soğan ürək xəstəliklərinin qarşısını alır. Bu göyərti bədəndən toksinləri çıxarır, sidikqovucu kimi böyrəklərin və qaraciyərin daha səmərəli işləməsinə kömək edir, tabii detoks prosesini sürətləndirir və sağlamlığı yaxşılaşdırır.

Göy soğandakı kükürd birləşmələri və antioksidantlar xərçənglə mübarizə aparır. Bəzi araşdırmalar göstərir ki, ondan davamlı istifadə xərçəng riskini azaldır O, sümük sağlamlığı üçün vacib olan K vitamini ilə də zəngindir. Bu vitamin isə osteoporoz xəstəliyinin qarşısını alır.

Nəhayət, iltihabı azaltmağa və vaxtından əvvəl qocalma əlamətlərinin qarşısını almağa kömək edən soğandakı vitamin və minerallar dəriyə daha sağlam görünüş verir.

*Z.HÜSEYNLİ*
*XQ*

# “Kosmosun rəngləri”



**Xətai Sənət Mərkəzində Ümumi Təsviri Sənət Ənənələri Qrupunun təşkilatçılığı, “Rəngarəng zəkalar” Tədris Mərkəzi və “IWS Sumqayıt Sulu Boya Cəmiyyəti”nin dəstəyi ilə uşaq və yeniyetmələrin “Kosmosun rəngləri” rəsm sərgisi keçirildi.**

Əvvəlcə “Lider rəqs qrupunun” balaca üzvləri rəngarəng musiqi nömrələrinin sədaları altında rəqs etdilər. İfaçı Aylin Tahir “Azərbaycan əsgəri” mahnısı ilə mərasimi şənləndirdi.

Sonra rəssamlar Gündüz Həbibov, Vüsalə Yunusova və sənətşünas Şahanə Mansırova sərgidə iştirak edən balaca rəssamların əl işlərinə baxış keçirərək öz fikirlərini bildirdilər.

“Rəngarəng zəkalar” Tədris Mərkəzinin rəhbəri Sona Qurbanova, Xətai Sənət Mərkəzinin təsviri sənət müəllimi Gündüz Həbibova uşaqların rəsmlərində hər birinin öz fərdi düşüncəsi, özəl rəng dünyası olduğunu vurğuladılar. Onların gələcəkdə daha fəal olmalarını və daha çox çalışmalarını arzuladılar.

Fikrət Əmirov adına 6 saylı 11 illik İncəsənət Məktəbi, “Qərb Tədris Mərkəzi”, S.Ələsgərov adına 1 saylı İncəsənət Məktəbi, Xəzər Universitetinin “Dünya” Məktəbi, “Təməl Tədris Mərkəzi”, “İnci Mədəniyyət evi” və digər tədris müəssisələrinin müəllim və şagirdlərinə təşəkkürnamə, sertifikat və kiçik hədiyyələr təqdim olundu.

*Fidan SALMANOVA*
*XQ*

HAVA

# Yağış, külək və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, aprelin 29-da Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var.**

Səhər tədricən kəsiləcək, gündüz dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 8-10°, gündüz 10-13° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunu, nisbi rütubət gecə 70-80 , gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-13°, gündüz 14-18° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-8° isti olacaq.



*Q. QASIMOV*
*XQ*

*✓ 2024-cü ildə Bakının Nizami Rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyi tərəfindən Məmişova Zərri Zakir qızının adına verilmiş GJF/1 seriyalı, 239247- 239248 nömrəli mənzil-kommunal xidməti üçün mədaxil qəbzlərinin əslləri itdiyinə görə etibarsız sayılır.*

# ALLAH RƏHMƏT ELƏSİN

“Xalq Bank” ASC-ni rəhbərliyi və kollektivi qurumun müşahidə şurasının sədri Asim Məmmədliyə atası

**MAHMUD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Xalq Sığorta” ASC-nin rəhbərliyi və kollektivi qurumun müşahidə şurasının sədri Asim Məmmədliyə atası

**MAHMUD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Səlim Babullaoğlu və Rafiq Həşimov Asim Məmmədliyə atası

**MAHMUD MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3432
SİFARİŞ 874
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00